*İbn Əbu Zeyd əl-Qayravaninin*

# Müqəddiməsinin ŞƏRHİ

**Maliki aliminin qələmi ilə Əhli-sünnətin etiqad əsasları**

Müəllif:
*Əbu Zeyd Həbibli*

Tovhid.info

*İbn Əbu Zeyd əl-Qayravaninin*

# MÜQƏDDİMƏSİNİN

# ŞƏRHİ

**(Maliki aliminin qələmi ilə Əhli-sünnətin etiqad əsasları)**

***Müəllif:***

Əbu Zeyd Həbibli

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

# Kitabı şərh edənin müqəddiməsi

Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Ona həmd edir, Ondan yardım istəyir, Onun məğfirətini diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəltsə, onu azdıra biləcək, kimi də azdırsa, onu doğru yola yönəldəcək kəs yoxdur. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq məbud yoxdur. O, təkdir və şəriksizdir. Yenə də şahidlik edirəm ki, Muhəmməd Allahın qulu və son elçisidir. Allahın ona, əhlinə və əshabına salavatı və salamı olsun!

Sizlərə təqdim etdiyimiz növbəti kitab Əhli-sünnət alimlərindən Əbu Muhəmməd Abdullah İbn Əbu Zeyd əl-Qayravaninin "ər-Risalə" adlı fiqh kitabına yazdığı müqəddiməsidir. İbn Əbu Zeyd əl-Qayravani hicrətin 310-cu ilində dünyaya gəlmiş və 386-cı ildə vəfat etmişdir. Maliki məzhəbi alimlərindəndir. Maliki məzhəbində elə bir nüfuza, elə bir dəyərə sahib olmuşdur ki, hətta ona məzhəb daxilində "Malik əs-sağir", yəni "kiçik Malik" ləqəbi verilmişdir. Onlarla əsərin müəllifidir. Onun qələmə aldığı "ər-Risalə" əsəri Maliki məzhəbində ən etibarlı fiqhi mətnlərdən biridir. Onu da qeyd edim ki, bu əsər Maliki məzhəbinin ilk müxtəsər fiqhi mətni sayılır. Hətta bəzi alimlərə görə, bu kitab Maliki məzhəbində "əl-Muvatta" və "əl-Mudəvvənə" kitablarından sonra ən məşhur kitabdır. Maliki alimləri bu kitaba o qədər önəm vermişlər ki, hətta bir nüsxəsini qızıl suyu ilə yazmışlar. Kitabın otuza yaxın şərhi mövcuddur. Təbii ki, bir çox müəllif kimi o da qələmə aldığı bu kitabı müqəddimə ilə başlamış və kitabına yazdığı müqəddiməni Əhli-sünnətin etiqad əsaslarının bəyanına sərf etmişdir. Beləcə, fiqhi bir kitab olan "ər-Risalə"nin müqəddiməsi *"İbn Əbu Zeyd əl-Qayravaninin Müqəddiməsi"* adı ilə məşhurlaşmış, alimlər tərəfindən xüsusi bir diqqətə layiq görülmüş, müstəqil əqidə mətni kimi şərh olunmuş və yayılmışdır. Bu "əl-Müqəddimə" Əhli-sünnətin etiqad əsaslarını müxtəsər şəkildə bəyan edən və həcmi kiçik də olsa, faydası çox olan önəmli əqidə mətnlərindən biri sayılır. Elə bu səbəbdən də "əl-

Müqəddimə”ni ana dilimizə tərcümə etmək və onu orta səviyyəli bir şəkildə şərh etmək qərarına gəldim. Şərh zamanı “əl-Müqəddimə”nin mətninə bağlı qalmağa və kənar mövzulara toxunmamağa çalışdım. Əsas məqsədim oxucunun şərh vasitəsilə “əl-Müqəddimə”nin mətnini, yəni müəllifin yazısında nəyi qəsd etdiyini anlaması olmuşdur. Misal olaraq, müəllif “iman” mövzusunu ələ alarkən imanın artıb-azalması, əməlin imandan olması məsələlərinə toxunmuş, lakin “imanda istisna”, “iman və İslam arasındakı fərq” mövzularını qeyd etməmişdir. Mən də mətnin şərhi zamanı müəllifin qeyd etdiyi məsələləri şərh etmiş, qeyd etmədiyi mövzulara isə toxunmamışam. Şərh zamanı, əsasən, Quran ayələrindən, Peyğəmbər ﷺ hədislərindən, sələfin – səhabə və tabiinlərin əsərlərindən və mütəqaddim alimlərin sözlərindən istifadə etmişəm. Bəzi məqamlarda oxucu üçün faydalı olacağı və müasir zamanımızda önəm kəsb etməsi səbəbindən mövzu ilə dolayısı yolla əlaqəli olan bəzi kənar mövzulara toxunmuş, lakin bütün bunları kitabın şərh bölümündə deyil, məhz haşiyədə qeyd etmişəm. Kitabı oxuyacaq olan hər bir oxucudan ricam: həm hər bir bölümü ayrı-ayrılıqda, həm də kitabı bütövlükdə bir neçə dəfə oxumalarıdır. Çünki kitabda qeyd edilən bəzi mövzular son dərəcə diqqət tələb edən etiqadi mövzulardır. Uca Allahdan bu işimizdə bizi haqqa və ixlasa yönəltməsini və bu əməlimizi Öz qatında məqbul olan saleh əməllərdən etməsini diləyirik! Heç şübhəsiz ki, müvəffəqiyyət Allahdandır!

## İbn Əbu Zeyd əl-Qayravaninin “Müqəddiməsi”nin mətni

**Qəlbən etiqad və dil ilə iqrar edilməsi vacib olan dinin əsaslarına dair bölüm:**

**Bu əsaslardan biri, Allahın yeganə haqq ilah olduğuna, Ondan başqa haqq məbudun olmadığına, Onun heç bir bənzərinin və oxşarının, övladının və valideyninin, yoldaşının və şərikinin olmadığına dair qəlbən iman edərək dil ilə iqrar etməkdir.**

**Onun Əvvəl olması bir başlanğıcın olduğu, Axır olması isə bir sonunun olacağı anlamını vermir.**

**Onu vəsf edənlər Onun sifətlərinin həqiqətini dərk edə bilməzlər. Düşünən ağıl sahibləri Onun əmrlərinin sirrini, həqiqətini tam mənası ilə anlaya bilməzlər. Onlar Onun ayələrindən ibrət alar, lakin Onun Zatının mahiyyəti barədə fikirləşməzlər. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları qoruyub hifz etmək Ona çətin gəlməz. O, Ucadır, Əzəmətlidir.**

**O Bilən, hər şeydən Xəbərdar olan, hər şeyi idarə edən, hər şeyə qadir olandır. Hər şeyi Eşidən, Görən, Uca, Böyük olan Odur.**

**O, Zatı ilə əzəmətli Ərşinin fövqündə, elmilə isə hər yerdədir.**

**O, insanı yaratdı və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilir. O ona şah damarından da yaxındır. Onun xəbəri olmadan bir yarpaq belə yerə düşməz. Yerin qaranlıqlarında elə bir toxum, yaş və quru elə bir şey yoxdur ki, aydın bir Kitabda (Lövhi-məhfuzda) olmasın.**

**O, Ərşə yüksəldi və mülkü Öz hökmü altına aldı.**

**Ən gözəl adlar və ən uca sifətlər məhz Ona məxsusdur. Onun bütün ad və sifətləri əzəlidir. O, ad və sifətlərinin sonradan əmələ gəlməsindən və yaradılmasından bəridir və Ucadır.**

**O, Musa ﷷ ilə Özünün zatı sifəti olan və məxluq olmayan kəlamı ilə danışdı. O, dağa təcəlli etdi və dağ Onun Cəlalından parça-parça oldu. Həqiqətən də, Quran Allahın kəlamıdır. O nə məxluq deyil ki, sonu gəlib bitsin, nə də hər hansı bir məxluqun sifəti deyil ki, yox olub tükənsin.**

**Qədərin xeyrinə və şərinə, acısına və şirininə iman etmək vacibdir. Bütün bunları Rəbbimiz olan Allah təqdir etmişdir. Bütün işlərin qədəri – ölçüsü Allahın əlindədir və Onun əzəli hökmünə bağlıdır. O hər şeyi var olmamışdan öncə bilirdi və hər bir şey Onun təqdir etdiyi ölçüdə baş verdi. Bəndələrin dedikləri elə bir söz və ya etdikləri elə bir əməl yoxdur ki, Allah onu əzəldən bilməsin və təqdir etməsin. *“Yaradan Allah Lətif və hər şeydən Xəbərdar olduğu halda, ola bilərmi ki, O, öz yaratdığından bixəbər olsun?”* (əl-Mülk: 14). O, istədiyi kəsi azdırar və Öz ədaləti ilə onu rəzil edər. İstədiyi kimsəni də doğru yola yönəldər və Öz lütfü ilə onu xeyirə müvəffəq edər. Bir sözlə, hər kəs Onun izni və müvəffəqiyyəti ilə xoşbəxt və ya bədbəxt olacağına dair özü üçün öncədən təqdir edilmiş şeyə müyəssər olar. O, mülkündə Onun istəmədiyi bir şeyin baş verməsindən və ya kiminsə Ona ehtiyacsız olmasından bəridir və Ucadır. Hər şeyin Yaradıcısı Odur. O həm bəndələrin, həm də onların əməllərinin Rəbbidir. Onların hərəkətlərini və əcəllərini təqdir edən də Odur.**

**Onlara ilahi dəlillərin çatdırılması üçün peyğəmbərləri göndərən Odur. Daha sonra O Öz peyğəmbəri Muhəmməd ﷺ ilə risaləti, nübüvvəti və insanlara olan son xəbərdarlığını tamamladı. Onu peyğəmbərlərin sonuncusu, insanlara müjdə verən və xəbərdarlıq edən, Öz izni ilə Allaha tərəf çağıran və nur saçan bir çıraq etdi. Ona hikmət dolu Kitabını nazil etdi.**

**Onun vasitəsi ilə haqq olan dinini bəyan etdi və doğru olan yolu göstərdi.**

**Həqiqətən, Qiyamət saatı mütləq gələcəkdir və bunda heç bir şübhə yoxdur. Allah bütün ölənləri yenidən dirildəcək və onlar öz ilkin hallarına qayıdacaqlar.**

**Uca və Nöqsansız olan Allah mömin qullarının əcrlərini dəfələrlə artırmış, onların böyük günahlarını tövbə ilə, kiçik günahlarını isə böyük günahlardan çəkinmək səbəbilə bağışlamışdır. Böyük günahlardan tövbə etməyən kəsləri isə Öz istəyi altına almışdır. *“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar”* (ən-Nisə: 48). Allah, kimi Cəhənnəm odu ilə cəzalandıracaqsa, oradan onu sahib olduğu imanı səbəbilə çıxaracaq və Cənnətinə daxil edəcəkdir. *“Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır”* (əz-Zəlzələ: 7). Həmçinin Allah Peyğəmbərin ﷺ öz ümmətindən böyük günah sahibləri üçün edəcəyi şəfaət səbəbilə də Cəhənnəmdən bəzi insanları çıxaracaqdır.**

**Uca və Nöqsansız olan Allah artıq Cənnəti xəlq etmiş və onu Özünün sevdiyi qulları üçün bir əbədiyyət diyarı olaraq hazırlamışdır. Orada onlara Özünün Kərim olan Camalına baxmağı lütf edəcəkdir. O Cənnət Allahın əzəli elminə əsasən Öz nəbisi və xəlifəsi olan Adəmi içərisindən çıxarıb, yer üzünə göndərdiyi həmin Cənnətdir. Həmçinin O, Cəhənnəmi xəlq etmiş və onu Özünü inkar edən, ayələrinə, göndərdiyi kitablarına və peyğəmbərlərinə inanmayan kəslər üçün bir əbədiyyət diyarı olaraq hazırlamışdır. Həmin kafirləri isə Öz Camalına baxmaqdan məhrum etmişdir.**

**Uca və Mübarək olan Allah Qiyamət günü mələklər səf-səf düzüldüyü halda, insanlara əməllərini ərz etmək, onları hesaba çəkmək, cəzalandırmaq və mükafatlandırmaq üçün gələcəkdir. Bəndələrin əməllərinin çəkilməsi üçün Tərəzilər qurulacaqdır.**

**Tərəzisi ağır gələnlər, məhz onlar nicat tapan kəslərdir. Həmçinin onlara əməl dəftərləri veriləcəkdir. Kimin kitabı sağ tərəfdən veriləcəksə, yüngül bir şəkildə hesaba çəkiləcəkdir. Kimin kitabı arxasından veriləcəksə, həmin kəs yaxıcı oda atılacaqdır.**

**Sirat haqdır. Bəndələr onu əməllərinin miqdarı ölçüsündə keçəcəklər. Bu yolda nicat tapan kəslər belə onları Cəhənnəm odundan qurtaran sürətlərində müxtəlif olacaqlar. Bəzi insanları isə elə öz əməlləri oradaca həlak edəcəkdir.**

**Peyğəmbərin ﷺ hovuzuna iman etmək vacibdir. Ümməti o hovuzun başına gələcəkdir. Onun suyundan içən bir daha susamayacaqdır. Dinini dəyişən və dində dəyişikliklər edən kəslər isə onun ətrafından qovulacaqdır.**

**İman – dil ilə söyləmək, qəlbən ixlaslı olmaq və zahiri əzalar ilə əməl etməkdir. Əməllərin artması ilə iman artar, azalması ilə də azalar. Beləcə, imandakı azalma əməllərdə və artma da əməllərlə olur. İmanın sözü əməl olmadan, söz və əməl niyyət olmadan, söz, əməl və niyyət də sünnətə müvafiqlik olmadan kamil olmaz. Qiblə əhlindən heç kəs günahına görə kafir olmaz.**

**Şəhidlər diridirlər, özlərinin Rəbbi qatında ruzilənirlər. Səadət əhlinin ruhları diriləcəkləri günə qədər nemət içərisindədir. Zillət əhlinin ruhlarına isə Qiyamət gününə qədər əzab olunmaqdadır. Möminlər qəbirlərində imtahana çəkilər və sorğu-sual olunarlar. *“Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar”* (İbrahim: 27).**

**İnsanların üzərində onların əməllərini yazan gözətçi mələklər var. Onların yazdıqlarından heç bir şey Allahın elmindən kənarda qalmaz. Ölüm mələyi də ruhları məhz Rəbbinin izni ilə qəbz edər.**

**Nəsillərin ən xeyirli olanı məhz Peyğəmbəri ﷺ görən və ona iman edən nəsildir. Sonra onların ardınca gələnlər və daha sonra da onlardan sonrakı nəsildir. Səhabələrin ən fəzilətli olanları hidayət sahibi raşidi xəlifələr: Əbu Bəkr, sonra Ömər, sonra Osman və daha sonra Əlidir (Allah onların hamısından razı olsun!) Peyğəmbərin ﷺ bütün səhabələri yalnız və yalnız xeyirlə yad edilməli və onların arasında baş vermiş bəzi hadisələr barədə isə danışılmamalıdır. Çünki onlar özləri barədə üzr gətirilməyə və yaxşı zənn bəslənilməyə ən layiqli kəslərdir.**

**Müsəlmanların imamlarına: rəhbərlərinə və alimlərinə itaət edilməlidir.**

**Saleh sələflərimizə tabe olunmalı, onların iziylə gedilməli və onlar üçün daima Allahdan bağışlanma dilənilməlidir.**

**Cədəl və dini münaqişələr tərk olunmalıdır.**

**Bidət əhlinin sonradan uydurduğu şeylər də tərk olunmalıdır.**

**Allahın ağamız Muhəmmədə, onun ailəsinə, zövcələrinə və zürriyyətinə xeyir-bərəkəti və çoxlu salamı olsun!**

* * *

## 🕮 Qəlbən etiqad və dil ilə iqrar edilməsi vacib olan dinin əsaslarına dair bölüm:

✍ Müəllif kitabını bu bölümlə başlayır. Yuxarıda da qeyd etdiyim kimi onun qələmə aldığı bu kitab, əsasən, fiqhi bir kitabdır. Lakin kitabın əvvəlində əqidəyə dair bu bölümü açmış və kitabın müqəddiməsini etiqad əsaslarına həsr etmişdir. Müəllifin də qeyd etdiyi kimi doğru-düzgün etiqad məhz qəlbin inanıb, dilin iqrar etdiyi etiqaddır. Yəni təkcə qəlbin etiqad etməsi kifayət etmir. Belə ki, kim qəlbi ilə etiqad etdiyi və gücü çatdığı halda şəhadət kəlməsini iqrar etməz və bundan imtina edərsə, o, müsəlman sayılmaz. Çünki Peyğəmbər ﷺ belə demişdir: “*İnsanlar «Lə İləhə İlləllah» deyənə qədər onlarla savaşmaqla əmr olundum. Əgər bu kəlməni deyərlərsə, İslam haqqı müstəsna olmaqla, canlarını və mallarını məndən qorumuş olarlar. Haqq-hesabları isə Allaha aiddir*”.[1] Burada müəllifin sözündən belə başa düşülməməlidir ki, o, əməli imandan saymır və imanı yalnız qəlbin təsdiqi və dilin iqrarından ibarət görür. Əsla! Çünki müəllif özü sonrakı sətirlərdə iman barədə söz açarkən əməlin imandan olduğunu qeyd edir. Sadəcə olaraq, müəllif burada etiqad əsaslarından danışır. Etiqad olunası imanın əsasları isə məhz qəlbin inanması və dilin şəhadəti ilə hasil olur. Yəni *“imanın tərifi”* ilə *“inanılması vacib olan etiqad əsasları”* və ya *“imanın rüknləri”* ayrı-ayrı məfhumlardır. Məsələn: namaz, oruc və s. kimi əməllər imanın tərifinə daxil olsalar da, imanın rüknlərindən və ya etiqad əsaslarından sayılmazlar. Müəllifin də burada söhbət açdığı mövzu məhz etiqad əsasları ətrafında olduğu üçün ***“Qəlbən etiqad və dil ilə iqrar edilməsi vacib olan dinin əsasları…”*** demiş və bu məqamda əməli qeyd etməmişdir.

---

[1] Buxari (2946)

🕮 **Bu əsaslardan biri, Allahın yeganə haqq ilah olduğuna, Ondan başqa haqq məbudun olmadığına, Onun heç bir bənzərinin və oxşarının, övladının və valideyninin, yoldaşının və şərikinin olmadığına dair qəlbən iman edərək dil ilə iqrar etməkdir.**

✍ İlk inanc əsası kimi müəllif Allahın tək və şəriksiz haqq ilah olduğuna iman etməyi və bunu dillə iqrar etməyi qeyd edir. Çünki bu, iman və İslamın birinci rüknü və insandan tələb olunan ilk vacibatdır. Çünki bütün peyğəmbərlərin dəvətlərinin əsası tövhid kəliməsinə çağırış olmuşdur. Uca Allah buyurur: *“Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun!"– deyə elçi göndərdik”*[2]; *“Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa haqq məbud yoxdur, Mənə ibadət edin!"– deyə vəhy etməyək”.*[3]
Lakin kəlam əhli bu məsələdə Əhli-sünnətə müxalif olmuş və insandan tələb olunan ilk vacibatın kainat dəlilləri ilə Allahın varlığını isbat etmək olduğunu iddia etmişlər. Onlardan bəziləri isə ilk vacibatın Allahın varlığı barədə şəkkə düşmək olduğunu demişdir. Yəni insan ilk növbədə, Allahın varlığına şübhə etməli və daha sonra bəzi əqli dəlillər vasitəsilə yenidən iman edərək İslama daxil olmalıdır. Şübhədə olduğu dönəmdə isə o, müsəlman sayılmamaqdadır. Heç şübhəsiz ki, bütün bunlar peyğəmbərlərin dəvət yoluna tamamilə əks olan bir üslubdur. Məgər Peyğəmbər ﷺ və ya digər peyğəmbərlər rəsul olaraq gəldikdə insanlardan tələb etdikləri ilk şey kainat dəlilləri ilə Allahın varlığını isbat etmələri, yaxud şəkk edib sonra iman etmələri oldu? Əlbəttə ki, xeyr. Heç bir peyğəmbər və ya Allah Rəsulunun ﷺ əshabından heç kəs bu cür işlərlə məşğul olmamışdır. O zaman belə çıxır ki, peyğəmbərlər insanlara vacib olan ilk əməli onlardan tələb etməmiş və beləcə, öz ilahi risalətlərinə xəyanət etmişlər. Məgər bu, peyğəmbərlərə tənə etmək deyilmi?! Uca Allah buyurur: *“Ad qövmünə də qardaşları Hudu göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin*

---

[2] Ən-Nəhl: 36
[3] Əl-Ənbiya: 25

*Ondan başqa ibadətə layiq olan məbudunuz yoxdur.”*[4]; *“Səmud qövmünə də qardaşları Salehi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa ibadətə layiq olan məbudunuz yoxdur.”*[5] Peyğəmbər ﷺ Muaz ibn Cəbəli ﷺ Yəmənə göndərdikdə ona belə demişdir: *“Sən kitab əhlindən olan bir qövmün yanına gedirsən. Elə isə ilk əvvəl, onları Allaha ibadətə dəvət et!”*[6]

● ***“...Allahın yeganə haqq ilah olduğuna, Ondan başqa haqq məbudun olmadığına...”***

Tövhid kəliməsinin – “lə iləhə illallah”ın həqiqi və düzgün mənası budur. Yəni “Allahdan başqa haqq məbud yoxdur” və ya “Allahdan başqa ibadətə layiq olan məbud yoxdur”. Uca Allah buyurur: *“Bu belədir. Çünki Allah Haqdır. Kafirlərin Ondan başqa yalvardıqları isə batildir.”*[7] Bəzilərinin tövhid kəlməsinə “Allahdan başqa Allah yoxdur”, “Allahdan başqa yaradan yoxdur” kimi mənalar verməsi tamamilə əsassız və batildir. Çünki əgər bu kəlmənin mənası iddia edildiyi kimi olsaydı, o zaman Məkkənin müşrikləri bu kəlməni deməkdən imtina etməzdilər. Belə ki, onlar da Allahdan qeyri başqa bir yaradanın olmadığını bilir və buna etiqad edirdilər. Yəni Peyğəmbər ﷺ Allahın varlığına inanmayan və ya Allahla yanaşı digər bir yaradanın varlığına inanan bir qövmə göndərilməmişdir. Uca Allah Məkkə müşriklərinin halını xəbər verərək buyurur: *“Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər”*[8]; *“Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra canlandıran kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər”.*[9] Lakin bütün bunlarla yanaşı onlar tək Allahın haqqı olan ibadəti Allahdan qeyrilərinə yönəltmiş, Allahla özləri arasında batil və əsassız

---

[4] Hud: 50
[5] Hud: 61
[6] Buxari (1458) və Müslim (31)
[7] Həcc: 62
[8] Əz-Zumər: 38
[9] Əl-Ənkəbut: 63

vasitələr təyin etmiş və ibadətdə Allaha çoxsaylı şəriklər qoşmuşlar. Uca Allah onların bu halı barədə belə buyurur: *"Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz"*[10]; *"Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilənlərə ibadət edir və: "Onlar Allah yanında bizim şəfaətçilərimizdir!"– deyirlər. De: "Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?" Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır."*[11] Deməli, Allahın varlığına, Onun tək və yeganə Yaradan olmasına iman etmək kifayət etmir. Bütün bunlarla yanaşı, Allahın ibadətə layiq olan yeganə haqq məbud olduğuna şəhadət vermək və digər batil ilahları inkar edib yalnız Allaha ibadət etmək bu dinin əsas qayəsidir. Çünki digər batil ilahlar inkar edilmədikcə haqq olan məbudun isbatının bir faydası yoxdur. Elə bu səbəbdəndir ki, tövhid kəlməsi də haqq olan məbudun isbatından öncə, məhz batil ilahların inkar edilməsilə başlayır. Deməli, tövhid kəlməsinin iki əsas rüknü – dirəyi var: *"inkar"* və *"isbat"*

- İnkar: Lə iləhə (heç bir haqq məbud yoxdur);
- İsbat: İlləllah (Allahdan başqa).

Uca Allah buyurur: *"Kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar."*[12]

• ***"...Onun heç bir bənzərinin və oxşarının olmadığına..."***

Müəllifin bu sözləri Xaliqi məxluqa bənzədən Müşəbbihə məzhəbinə bir cavabdır. Əhli-sünnətə görə, heç kəs nə zatında, nə vəsflərində, nə də feillərində Uca Allaha bənzəməz. Rəbbimiz belə buyurur: *"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir,*

[10] Əz-Zumər: 3
[11] Yunus: 18
[12] Əl-Bəqərə: 256

*Görəndir”.* [13] Əhli-sünnət imamlarından İshaq ibn Rahaveyh [14] demişdir: “Kim Allahın sifətlərini məxluqun sifətlərinə bənzədərsə, o, Əzəmətli Allaha qarşı kafir olmuş olar”.[15] Xaliq ilə məxluq arasındakı bənzərliyin inkarı Allahın kamil sifətlərinin isbatını tələb edir. Əgər O, kamil sifətlərlə vəsflənməsəydi, o zaman bənzərliyin nəfy edilməsi də düzgün olmazdı. Belə ki, mövcud olmayan bir şeyin bənzərinin nəfyində nə fayda ola bilər ki?! Məsələn, sən bir kəsə “sənin bənzərin yoxdur”, – desən, bununla sən onun, ümumiyyətlə, heç bir vəsfə sahib olmadığını deyil, əksinə, onun vəsfində heç bir bənzəri olmayan müəyyən sifətlərlə vəsfləndiyini demiş və məhz bu mənanı qəsd etmiş olarsan. Deməli, biz – Əhli-sünnət “Allahın heç bir bənzəri yoxdur”, – dedikdə Onun heç bir vəsfə sahib olmadığını deyil, əksinə, vəsfində heç bir bənzəri olmadığını nəzərdə tuturuq. Necə ki Əbu Hənifə demişdir: “Allahın sifətlərinin heç biri məxluqun sifətlərinə bənzəməz. Allah bilir, lakin bizim bilməmiz kimi deyil. Allahın qüdrəti var, lakin bizim qüdrətimiz kimi deyil. Allah görür, lakin bizim görməmiz kimi deyil”. [16] Uca Allah Özünü adlandırdığı bəzi adlarla bəndələrini də adlandırmış, Özünü vəsf etdiyi bəzi vəsflərlə də onları vəsfləndirmişdir:

- ﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَ ٱلۡحَيُّ ٱلۡقَيُّومُۚ﴾ *“Allah, Ondan başqa haqq məbud yoxdur, Diridir, bütün yaradılanların Qəyyumudur”.*[17]

﴿يُخۡرِجُ ٱلۡحَيَّ مِنَ ٱلۡمَيِّتِ﴾ *“O, ölüdən diri çıxarır”.*[18]

---

[13] Əş-Şura: 11

[14] Öz zamanında Xorasan diyarının imamı idi. Nuaym ibn Həmmad onun barədə demişdir: “Xorasan əhlindən kimisə İshaq ibn Rahaveyh haqda pis danışan görsən, onu dinində ittiham et!” Nəsai demişdir: “O, güvənilən, etibarlı bir imam idi”. Xatib əl-Bağdadi demişdir: “O, özündə fiqh və hədis elmlərini, doğruluğu, zühdü və Allah qorxusunu cəm etmişdir”. İmam Buxarinin səhih hədisləri bir kitab halında toplamasına səbəb də məhz imam ibn Rahaveyhin sözü olmuşdur. Hicrətin 238-ci ilində vəfat etmişdir (Bax! “Siyər əlamin-nubələ” 11/358-383).

[15] Lələkəi “Şərh usuli etiqadi Əhlis-sünnə” (937)

[16] “Əl-Fiqhul-əkbər” Əli əl-Qarinin şərhi ilə, səh. 15, 31-32.

[17] Ali-İmran: 2

[18] Əl-Ənam: 95

- ﴿وَٱللَّهُ شَكُورٌ حَلِيمٌ﴾ *"Allah şükürün əvəzini verəndir, Həlimdir".*[19]

﴿فَبَشَّرْنَٰهُ بِغُلَٰمٍ حَلِيمٍ﴾ *"Biz də onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik".*[20]

- ﴿إِنَّ ٱللَّهَ سَمِيعٌۢ بَصِيرٌ﴾ *"Həqiqətən, Allah Eşidəndir, Görəndir".*[21]

﴿فَجَعَلْنَٰهُ سَمِيعًۢا بَصِيرًا﴾ *"Biz insanı eşidən və görən etdik".*[22]

- ﴿وَجَآءَ رَبُّكَ وَٱلْمَلَكُ صَفًّا صَفًّا﴾ *"Rəbbin və səf-səf düzülmüş mələklər gələcək".*[23]

﴿وَلَمَّا جَآءَ مُوسَىٰ لِمِيقَٰتِنَا﴾ *"Musa təyin etdiyimiz vaxtda gəldikdə..."*[24]

Şübhəsiz ki, Uca Allahın varlığı ilə məxluqatının varlığı bir olmadığı kimi, Onun görməsi, eşitməsi, gəlməsi və s. sifətləri də məxluqatın sifətlərinə bənzəməz. Bu isimlər və vəsflər Xaliq və məxluq arasında müştərək isim və vəsflər olsa da, bu müştərəklik həqiqətdə deyil, məhz zehinlərdə olan müştərəklik və isimlərdə olan ortaqlıqdır. Məsələn, *"vücud"* kəlməsi müştərək bir kəlmədir. Xaliq və məxluq barədə işlənir. Lakin bu kəlmə Uca Allahda Ona xas, insanda isə özünə xas olar. Necə ki Allaha *"vacibul-vücud"*[25], insana isə *"mümkünül-vücud"*[26] deyilər. Yəni *"vücud"* isminin bir-birindən ayrı olan iki varlığa vəsf olaraq verilməsi hər iki varlığın da eyni olması anlamına gəlmir. Yuxarıda qeyd etdiyimiz həqiqətləri Uca Allahın bu kəlamında da görürük: *"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".*[27]

---

[19] Ət-Təğabun: 17
[20] Əs-Saffat: 101
[21] Loğman: 28
[22] Əl-İnsan: 2
[23] Əl-Fəcr: 22
[24] Əl-Əraf: 143
[25] Yəni varlığı əzəli, əbədi və zəruri olan, başqası tərəfindən yaradılmayan, varlığı başqasının varlığından aslı olmayan.
[26] Yəni varlığı əzəli olmayan, başqası tərəfindən yaradılan.
[27] Əş-Şura: 11

- *“Onun heç bir bənzəri yoxdur”*: ayənin bu qismi Xaliqi məxluqatına bənzədən Müşəbbihə firqəsinə gözəl bir cavabdır. Çünki burada bənzərlik nəfy edilməkdədir.
- *“O Eşidəndir, Görəndir”*: ayənin bu qismi isə Allahın ad və sifətlərini inkar edən Muattilə firqəsinə gözəl bir cavabdır. Çünki burada Uca Allahın Eşitmək və Görmək sifətləri isbat olunur.

Muattilə firqəsi[28] Allahın sifətlərinin isbatını təşbih (bənzətmə) saymış, isbat edənləri isə “müşəbbihə”[29] adlandırmışdır. Hətta onlardan bəziləri, məsələn, batinilər daha da həddi aşaraq Allahı gözəl isimlərilə isimləndirən hər kəsi müşəbbihə sayaraq belə demişlər: “Kim Allaha əl-Həyy (əbədi Yaşayan), əl-Əlim (hər şeyi Bilən) deyərsə, Onu canlı və alim olan varlıqlara, kim Ona əs-Səmi (Eşidən), əl-Basir (Görən) deyərsə, Onu görən və eşidən insana bənzətmiş olar”. Onlardan bəziləri bir az da “cürət” tapmış və “biz Allah barədə «O, mövcuddur», – deyə bilmərik, əgər bunu desək, Onu var olmaq yönülə digər varlıqlara bənzətmiş olarıq”, – demişdir. Beləliklə, onlar Allahın bütün ad və sifətlərini inkar edərək, Onu varlığı mümkün olmayan bir şeyə bənzətmişlər ki, bu da əslində Onun varlığını deyil, yoxluğunu dilə gətirmək deməkdir. Əslində, Allahın ad və sifətlərinin isbatını təşbih adlandırmaq qədim cəhmilərin əlamətlərindəndir. Bu barədə imam İshaq ibn Rahaveyh belə demişdir: “Cəhm ibn Səfvanın və onun həmfikirlərinin əlaməti böhtan ataraq Əhli-sünnətə “müşəbbihə” demələridir. Əksinə, elə onların özləri Allahın ad və sifətlərini inkar edən muattilədir”.[30] İmam Əhməd ibn Hənbəl isə belə demişdir: “(Cəhm ibn Safvan) iddia etmişdir ki, kim Allahı Özünü Kitabında və Peyğəmbəri ﷺ də Rəbbini hədislərində vəsf etdiyi kimi vəsf etsə, o, kafirdir və Müşəbbihə məzhəbindəndir. Beləcə, o bu sözü ilə bir çox insanı azdırdı”.[31] İmam Bərbəhəri belə

---

[28] Allahın ad və sifətlərinin hamısını, yaxud bir qismini inkar və ya təvil edən hər bir firqə muattilə adlanır.
[29] Yəni Xaliqi məxluqa bənzədənlər.
[30] Ləlakəi “Şərh usuli etiqadi Əhlis-sünnə” (937)
[31] Əhməd “ər-Raddu aləl-Cəhmiyyə” səh. 104

demişdir: "Bir kimsəni "filankəs müşəbbihədir", "filankəs təşbihlə danışır" dediyini eşitsən, onu dinində ittiham et və bil ki, o, cəhmidir".[32] Həmçinin imam Tirmizi Uca Allahın əl, nüzul (enmək) və s. sifətlərindən danışarkən belə demişdir: "Cəhmiyyə firqəsinə gəldikdə onlar Allahın sifətləri ilə əlaqəli olan bu hədisləri inkar etmiş və bunların təşbih olduğunu demişlər. Uca Allah Öz Kitabında bir çox yerdə əl, eşitmək, görmək sifətlərini zikr etmişdir. Cəhmiyyə firqəsi bu ayələri təvil etmiş və elm əhlinin izahından fərqli bir üslubda təfsir etmişlər. Demişlər ki, Uca Allah Adəmi Öz əli ilə xəlq etməyib. Burada "əl"dən məqsəd güc və qüdrətdir".[33]

• ***"...Onun heç bir bənzərinin və oxşarının, övladının və valideyninin, yoldaşının və şərikinin olmadığına..."***

Bütün bunlar Uca Allahın Kitabında Özü barədə nəfy etdiyi xüsuslardır. Belə ki, Uca Allah buyurur: *"De: «O Allah Təkdir. Allah ehtiyacsızdır. O, nə doğub, nə doğulub, Onun heç bir bənzəri də yoxdur»"*[34]; *"O, göyləri və yeri icad edəndir. Onun zövcəsi olmadığı halda övladı necə ola bilər? Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir".*[35]; *"Doğrudan da, Rəbbimizin şanı çox ucadır! O, nə zövcə, nə də övlad sahibi olmamışdır".*[36] Əhli-sünnətin Uca Allah haqqında naqis sifətləri nəfy etmək yolundakı üslubu əsas olaraq üç qaydaya söykənir:

***Birinci qayda:*** Əhli-sünnət Uca Allahın Özü barədə və Peyğəmbərinin ﷺ də Rəbbi barədə isbat etdiyi sifətləri isbat, inkar (nəfy) etdiklərini isə inkar edirlər. Quran və sünnətdə nə isbat, nə də inkar yönündən varid olmayan ibarələr barədə isə susurlar, yəni nə isbat, nə də inkar edirlər. Misal olaraq, Əhli-sünnət *"Allah Musa ilə sözlə danışdı"*[37] ayəsinə əsasən, Allahın kəlam sifətini

---

[32] Bərbəhəri "Şərh əs-Sünnə" səh. 115
[33] Tirmizi "əs-Sünən" 662-ci hədisdən sonrakı qeydə bax!
[34] Əl-İxlas: 1-4
[35] Əl-Ənam: 101
[36] Əl-Cinn: 3
[37] Ən-Nisə: 164

isbat edir, *"Onu nə mürgü, nə də yuxu tutar"*[38] ayəsinə əsasən, Allah barədə yatmaq və mürgüləmək kimi naqis sifətləri inkar (nəfy) edirlər. Lakin "Allah cismdir ya yox?" kimi suallar qarşısında isə susur, Quran və sünnətdə varid olmayan bu cür ibarələri təfsilata getmədən və bu sualı verənin muradını bilmədən Allah barədə nə isbat, nə də inkar edirlər. Çünki bu cür ibarələr onu dilə gətirənin qəsdindən asılı olaraq mənfi ya da müsbət mənaya gələ bilər. Sual verən kəsdən qəsdini dəqiqləşdirdikdən sonra bu məna ya isbat edilir, ya da inkar, lakin ləfz barədə yenə susulur. Çünki Uca Allah barədə Quran və sünnətdə varid olmayan bu cür ləfz və ibarələr kəlam əhli tərəfindən sonradan ortaya çıxarılmış və Uca Allahın ad və sifətlərinin inkarı üçün bir alətə çevrilmişdir.[39]

---

[38] Əl-Bəqərə: 255

[39] İmam Şafi belə demişdir: "Əgər bir kəsi «ad elə adlandırılanın özüdür, yaxud ondan ayrıdır» kimi ifadələr işlədən görsən, bil ki, o kəlam əhlindəndir və onun dini yoxdur" ("Cəmiu bəyənil-ilmi və fadlihi": 1106, Həravi "Zəmmul-kəlam": 1147). İshaq ibn Rahaveyhə "Allah ən aşağı qat səmaya endikdə Ərşini tərk edirmi?" – deyə sual verildikdə, o da: "Allah, Ərşi Ondan xali olmadan enməyə qadirdirmi?" – deyərək suala sualla cavab vermiş, sual verən "bəli, qadirdir", – dedikdə, imam ona belə demişdir: "Elə isə nə üçün bu barədə (boş və mənasız) danışırsan?!" (Zəhəbi "əl-Ülüvv": 448) İmam Şafinin əshabından olan Əbul-Abbas ibn Sureycə (vəfatı h. 306) tövhidin nə olduğu barədə sual verildi. O da cavabında belə dedi: "Elm əhlinin və müsəlman toplumunun tövhidi: Allahdan başqa haqq məbudun olmadığına və Muhəmmədin də Onun rəsulu olduğuna şəhadət verməkdir. Batil əhlinin tövhidi isə «arazlar» və «cisimlər» mövzusuna girişməkdir" (Əl-Həkkəri "Etiqad əş-Şəfii": 20). Əbul-Müzəffər əs-Səmani (v. h. 489) demişdir: "Biz dəqiq bir şəkildə bilirik ki, Peyğəmbər ﷺ onları (müsəlman ümmətini) bu cür məsələlərdə «arazlar», «cövhərlər» kimi istilahlarla dəlil irəli sürməyə və bu kimi şeylərin mahiyyətini zikr etməyə dəvət etməmişdir. Heç kəs bu barədə nə ondan, nə də səhabələrdən istər mütəvatir, istərsə də əhəd yolla bir kəlmə belə nəql (hədis, yaxud əsər) gətirə bilməz. Beləcə, bizə aydın olur ki, bunlar (yəni kəlam əhli) onların yoluna tam əks bir yol tutmuşdur. Bu yol (yəni kəlam əhlinin yolu) uydurulmuş və sonradan ortaya çıxmış bir yoldur. Nə Peyğəmbər ﷺ, nə də səhabələr bu yol üzərində olmamışdır" ("Əl-İntisar li-əshabil-hədis" səh. 70).

***İkinci qayda:*** Əhli-sünnət Allahın Özü barədə və Peyğəmbərinin ﷺ də Rəbbi barədə isbat etdiyi sifətləri isbat edərkən bunu təfsilatlı bir şəkildə edərlər. Lakin Onun barədə naqis sifətlərin inkarı istiqamətində isə mücməl danışarlar. Çünki bu, Quran və sünnətin üslubudur. Quran və sünnət Uca Allahın ad və sifətlərinin isbatında təfsilatlı, nəfy istiqamətində isə mücməl bir üslub ortaya qoymuşdur. Kəlam əhlinin metodu isə bunun tam ziddinədir. Onlar nəfy edərkən müfəssəl, isbat edərkən mücməl şəkildə danışarlar. Deyərlər ki, Allah cism deyil, cüssə deyil, ətdən, sümükdən ibarət deyil, rəngi, qoxusu, dadı, soyuqluğu, hərarəti, eni və uzunluğu yoxdur, hərəkət etməz, parçalara ayrılmaz, birləşməz, cüzləri, orqan və əzaları yoxdur, sağda və ya solda, öndə və ya arxada, üstdə və ya altda deyil, nə varlıq aləminin daxilində, nə də xaricindədir və s. bu kimi ifadələr. Allahın ad və sifətlərinin isbatına gəldikdə isə bu barədə mücməl danışar, bəzi sifətləri isbat və əksər sifətləri isə inkar edərlər. Yuxarıda qeyd edilən nəfy ibarələri içərisində haqq olan mənalar ola bilər, lakin bilmək lazımdır ki, özündə mədh və tərif ehtiva etməyən hər mücərrəd nəfy öz-özlüyündə həm də ədəbsizlik ifadə edir. Necə ki bir kölə öz ağasına: "Sən oğru deyilsən", "sən quldur deyilsən", "sən hanbal deyilsən" desə, onun tərif zənn etdiyi bu sözlər heç də ağası üçün tərif olmaz. Əksinə, bu cür ifadələr ağasının qəzəbinə səbəb olar. Bəs Uca Allahı bu üsluba oxşar bir "tərif"lə tərifl ədiklərini zənn edənlər Onun qəzəbindən qorxmurlar?

***Üçüncü qayda:*** Quran və sünnətdə Uca Allah barədə nəfy edilən hər bir xüsus özündə nəfy edilən şeyin əksini təşkil edən kamilliyin isbatını da tələb edir. Misal üçün, Onun şərikinin, bənzərinin olmadığını söyləmək Əzəmətinin kamilliyini, zalım olmadığını demək isə Adilliyinin kamilliyini isbat etmək üçündür. Uca Allah buyurur: *"Onu nə mürgü, nə də yuxu tutar."*[40] Deməli, Uca Allah barədə yatmaq və mürgüləmək kimi naqis sifətləri nəfy – inkar etmək, bunun əksini təşkil edən kamilliyi, yəni həyat və qəyyumluğunun kamilliyini isbat etmək deməkdir: *"Allah, Ondan*

---

[40] Əl-Bəqərə: 255

*başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar.'*[41]
Deməli, Uca Allah barədə əksi kamillik olmayan mücərrəd – yalın nəfy batildir.

[41] Əl-Bəqərə: 255

🕮 **Onun Əvvəl olması bir başlanğıcının olduğu, Axır olması isə bir sonunun olacağı anlamını vermir.**

✍ Burada müəllif yuxarıda söz açdığı mövzuların bir davamı olaraq Uca Allahın Əvvəl və Axır olmasını qeyd edir. Həmçinin onu da vurğulayır ki, Onun Əvvəl və Axır isimlərilə adlanması Özünə xas və məxluqatına bənzəməyən bir şəkildədir. Çünki *"Onun heç bir bənzəri yoxdur".*[42] Ona görə də Onun Əvvəl olması bir başlanğıcının olduğu, Axır olması isə bir sonunun olacağı anlamını vermir. Məxluqatında isə bu tam əksinədir. Belə ki, onların "əvvəl"i yoxluqdan var olmaları, "axır"ları isə sonlarının gəlməsi anlamındadır. Deməli, bu iki vəsfin bir-birindən ayrı olan iki varlığa aid edilməsi hər iki varlığın da eyni olması anlamına gəlmir. Allah Təalanın bu isimlərinin əsas etibarilə iki mənası vardır:

- Allah Əvvəldir, çünki O, Əzəlidir və Ondan öncə heç nə yoxdur. O, Axırdır, çünki O, Əbədidir və Onun sonu yoxdur;
- Allah Əvvəldir, çünki hər şeyin başlanğıcı, varlığı Ona bağlıdır. O, Axırdır, çünki hər şey sonda Ona qayıdacaqdır. Dönüş yerimiz yalnız Onadır.

Uca Allah buyurur: *"Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilir".*[43] Peyğəmbər ﷺ demişdir: *"Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur".*[44]

---

[42] Əş-Şura: 11
[43] Əl-Hədid: 3
[44] Müslim (2713)

📖 **Onu vəsf edənlər Onun sifətlərinin həqiqətini dərk edə bilməzlər. Düşünən ağıl sahibləri Onun əmrlərinin sirrini, həqiqətini tam mənası ilə anlaya bilməzlər. Onlar Onun ayələrindən ibrət alar, lakin Onun Zatının mahiyyəti barədə fikirləşməzlər. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları qoruyub hifz etmək Ona çətin gəlməz. O, Ucadır, Əzəmətlidir.**

✍ Uca Allahı tanımaq biz qulları üzərində olan vacibatlardandır. Bu səbəbdən də Allahu Təala Özünü ad və sifətlərilə bizə tanıtmışdır. Lakin Allahın ad və sifətlərinin keyfiyyəti, həqiqəti bizə bəlli deyildir. Müəllif də məhz bu mənaya eyham vuraraq: ***"Onu vəsf edənlər Onun sifətlərinin həqiqətini dərk edə bilməzlər"***, – deyir. Çünki Allah Azzə və Cəllə bizim üçün qeybdir. Qeyb olan bir şeyin etibarlı xəbərlərdən, yəni Quran və sünnətdən başqa bir yolla bilinməsi də qeyri-mümkündür. Çünki bir şeyin keyfiyyəti ancaq üç yoldan biri ilə bilinə bilər:

- Ya həmin şeyin özünü görmək;
- Ya onun bənzərini görmək;
- Ya da doğru və etibarlı bir mənbədən məlumat almaq.

Uca Allahı gözlə görməmişik, Onun bir bənzəri də yoxdur, xəbərlərdə, yəni Quran və sünnətdə də bu barədə heç bir şey varid olmamışdır. Nəticə etibarilə hər üç halda belə Allahın sifətlərinin keyfiyyətini bilmək mümkünsüzdür. Burada kiçik bir haşiyəyə çıxaraq söyləyək ki, Allahın Zatının və sifətlərinin keyfiyyətinin bilinməsi insan üçün əsli etibarilə qeyri-mümkünsüz bir şeydir, hətta Uca Allahı öz gözlərimiz ilə görsək belə. *"Gözlər Onu dərk etməz. O, gözləri dərk edər".*[45] Yəni Qiyamət günü Onu görən gözlərin Onun Zatının həqiqətini dərk edib anlamaları mümkünsüz olacaqdır. Xülasə, Uca Allahı tanımaq iki qismə bölünür:

- Allahın ad və sifətlərinin mənasını bilmək. Bizdən tələb olunan məhz budur;

[45] Əl-Ənam: 103

- Allahın ad və sifətlərinin həqiqətini dərk etmək. Bu bizdən tələb olunmur, çünki əlçatmazdır.

Uca Allah buyurur: *“Onların elmi Onu ehtiva edə bilməz”.*[46] Bu, o mənaya gəlmir ki, Allahın sifətlərinin keyfiyyəti yoxdur. Əsla! Onun sifətlərinin keyfiyyəti var, lakin biz onu bilmirik. Deməli, Əhli-sünnətin etiqadına görə, Uca Allahın sifətlərinin mənası məlum, bu sifətlərin keyfiyyəti isə məchuldur. Bu etiqad “Allahın sifətlərinin mənası məchuldur” deyən Muattilə firqəsi ilə sifətlərin keyfiyyətini dilə gətirən Müşəbbihə məzhəbi arasında tam orta bir mövqedir. İmam Malikdən və onun şeyxi Rabiə ibn Əbu Əbdürrəhmandan belə dedikləri nəql olunmuşdur: “Allahın Ərşə ucalması məlum, bu ucalmanın necəliyi məchul, ona iman etmək vacib və bu haqda sual vermək isə bidətdir”.[47] Əbu Cəfər ət-Tirmizi (vəfatı h. 295) də Uca Allahın “nüzul” sifəti barədə bu cavabın eynisini vermişdir: “Allahın ən aşağı qat səmaya enməsi

---

[46] Taha: 110

[47] Dərimi “Ər-rəddu aləl-cəhmiyyə” səh. 280, Sabuni “Əqidətus-sələf” səh. 39, Lələkəi “Şərh usuli etiqadi Əhlis-sünnə” 3/398-442, Zəhəbi “əl-Ərş” 2/167

*Qeyd:* Maliki və əşari alimlərindən olan Əbu Bəkr ibn əl-Arabi etiraf edərək belə demişdir: “İmam Malik bu rəydə idi ki, bu hədislərin (yəni sifət hədislərinin) hamısının mənası məlumdur. Elə bu səbəbdən də ona sual verənə belə cavab vermişdir: Allahın Ərşə ucalması məlum, bu ucalmanın necəliyi isə məchuldur” (“Arizətul-əhvəzi” 3/166).

Digər maliki alimi təfsirçilərin imamı Qurtubi belə demişdir: “İlkin sələflər (yəni səhabə, tabiin nəsli) Allah barədə ucalıq yönünü inkar etmirdilər. Onlar belə bir şeyi dilə gətirməzdilər. Əksinə, onların hamısı Quranın dilə gətirdiyi və peyğəmbərlərin də xəbər verdiyi kimi, Allah barədə bunu (yəni ucalıq yönünü) isbat edirdilər. Sələfdən heç kəs Allahın həqiqi mənada Ərşin fövqünə ucaldığını inkar etməmişdir. Allah Ərşi elə məhz bunun üçün xüsusiləşdirmişdir. Çünki o (yəni Ərş), məxluqatın ən əzəmətlisidir. Sadəcə olaraq, onlar (yəni sələf) bu istəvanın necəliyini bilmirdilər. Çünki onun həqiqəti bilinmir. İmam Malik belə demişdir: Allahın Ərşə ucalması məlumdur, yəni dildə bilinən bir şeydir, lakin bu ucalmanın necəliyi məchuldur və bu haqda sual vermək isə bidətdir” (Qurtubi “əl-Cəmiu li-əhkəmil-Quran” 9/239).

Maliki alimlərindən İbn Əbdülbər demişdir: “Əhli-sünnət Uca Allahın Quran və sünnətdə varid olan bütün sifətlərini iqrar etmək, onlara iman etmək və bütün bunları məcaz olaraq deyil, həqiqət olaraq qəbul etmək üzərində icma etmişdir. Sadəcə olaraq, onlar (yəni Əhli-sünnət) bu sifətlərin heç birinə keyfiyyət vermirlər” (“Ət-Təmhid” 7/145).

məlum, bu enmənin necəliyi məchul, ona iman etmək vacib və bu haqda sual vermək isə bidətdir”.[48]

• ***“Düşünən ağıl sahibləri Onun əmrlərinin sirrini, həqiqətini tam mənası ilə anlaya bilməzlər”.***

Allahın əmrləri iki qisimdir:

- Kövni yaxud qədəri əmrlər: *“Bir şeyi yaratmaq istədikdə ona əmri təkcə "ol!" deməkdir, o da həmən olar”*[49];
- Şəri və ya dini əmrlər: *“Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumların haqqını verməyi əmr edir”.*[50]

Uca Allahın kövni və şəri hər bir əmri özündə bir çox hikmətləri ehtiva edir. Çünki Allah Təala sonsuz hikmət sahibidir, nəyisə əbəs yerə xəlq etməkdən və ya nəyisə əbəs yerə qullarına əmr etməkdən bəri və Ucadır. *“Elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq?”*[51] Ola bilsin ki, Allahın kövni və ya şəri əmrlərinin hikmətindən nə isə bilək, lakin bizim bu bilgimiz Onun kövni və şəri əmrindəki hikmətini tam mənası ilə qavramağımız anlamına gəlməz. Bəndəyə vacib olan Rəbbinin kövni əmrlərinə boyun əyib qədərinə qarşı razılıq göstərməsi, şəri əmrlərinə boyun əyib onları gücü çatdığı qədərincə yerinə yetirməsi və “nə üçün Allah filan şeyi bu cür yaradıb, nə üçün filan şeyi əmr və ya qadağan edib?” – kimi küfrə səbəb ola biləcək ifadələrdən uzaq durmasıdır. Uca Allah buyurur: *“Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz”.*[52]

• ***“Onlar Onun ayələrindən ibrət alar, lakin Onun Zatının mahiyyəti barədə fikirləşməzlər”.***

Allahın Zatı və Zatının mahiyyəti barədə düşünmək əbəs, mənasız və faydasız bir şeydir. Çünki Allah sənin Özü barədə düşündüyün

---

[48] Xatib əl-Bağdadi “Tarix mədinətis-Sələm” 2/234
[49] Yasin: 82
[50] Ən-Nəhl: 90
[51] Əl-Muminun: 115
[52] Əl-Bəqərə: 216

hər şeydən bəri və Ucadır. Yuxarıda da qeyd etdiyim kimi, Qiyamət günü Onu görən gözlərin Onun Zatının həqiqətini dərk edib anlamaları mümkünsüz olacaqsa, Onu görmədiyimiz halda, Zatı barədə düşünməyimizin nə faydası ola bilər ki? Üzərində düşünülməsi tələb olunan şey Allahın Zatı deyil, Onun ayələridir. Onun ayələri isə iki növdür:

- Şəri ayələr, yəni Qurani-Kərim;
- Kövni ayələr, yəni yaratdığı məxluqat.

Deməli, bəndələrə vacib olan Uca Allahın kövni və şəri ayələri üzərində təfəkkür etmələridir. Rəbbimizin bizə əmr etdiyi və bizdən istədiyi də məhz budur. Uca Allah buyurur: *“Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.”*[53]; *“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılışı barədə düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm odunun əzabından qoru!”* [54] ; *“Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün canlıları yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır”.*[55] Allahın şəri ayələri və yaratdığı məxluqatı üzərində düşünmək, təfəkkür etmək insanın Rəbbinə qarşı bağlılığının möhkəmlənməsinə və imanının artmasına səbəbdir. Misal olaraq, insanın ana bətnində bir damla sudan necə yaradıldığını bir düşün! *“Qoy insan nədən yaradıldığına bir baxsın!”*[56] İndi isə özünə bax və bir anlıq həmin nütfə ilə indiki

---

[53] Sad: 29
[54] Ali-İmran: 190-191
[55] Əl-Bəqərə: 164
[56] Ət-Tariq: 5

halını müqayisə et, aradakı fərqi və bütün bu illər ərzində necə formalaşdığını bir düşün! *"Sonra insanı nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan, daha sonra o qandan bir parça ət yaratdıq, sonra isə o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Daha sonra onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah necə də mübarəkdir!"*[57] Sənə görən gözləri, eşidən qulaqları, yürüyən ayaqları, tutan əlləri, danışan dili, döyünən qəlbi bəxş edən, səni insan olaraq gözəl və mükəmməl bir şəkildə yaradan Rəbbini, Onun qüdrətini və sənə qarşı olan mərhəmətini bir xatırla! *"Məgər ona iki gözü, bir dillə iki dodağı Biz verməmişikmi?"*[58] "Sənə qarşı olan mərhəmətini bir xatırla", – dedim, çünki ana bətnindən dünyaya hələ təzə qədəm qoymuşdun, nə yeyəcəkdin, nə içəcəkdin? – deyə bir problemin də yox idi. Belə ki, hələ sən dünyaya gəlməmişdən öncə artıq ruzun hazır vəziyyətdə səni gözləyirdi: ana südü! Bütün həyatı boyunca bir damla belə südü olmayan ananın sinəsi indi səni gözləyən süd ilə dolmuşdu. Nə "təsadüf", elə deyilmi?! İstəsən, sənə başqa bir "təsadüf" də göstərim: qida və nəfəs borusu! Belə ki, qidanın ötürüldüyü yemək borusunun yanında havanın ciyərlərə çəkildiyi başqa bir boru – nəfəs borusu var. Lakin burada mühüm bir məqam var. Əgər çeynənmiş qida hər hansı bir səhv nəticəsində yemək borusuna deyil, nəfəs borusuna düşərsə, bu hal insanın ölümünə belə səbəb ola bilər. Hər şeyi ən gözəl və mükəmməl bir şəkildə yaradan Rabbimiz nəfəs borusunun üzərində kiçik bir toxumadan ibarət olan bir maneə (qapaqcıq) yaratmışdır ki, nəticədə də insan udqunarkən həmin nəfəs borusu öz-özlüyündə bağlanır. Məhz bunun sayəsində yemək yeyərkən, su içərkən, udqunarkən nəfəs borusuna nəyinsə keçməsinin qarşısı alınmış olur. Udqunmadan dərhal sonra isə bu qapaqcıq yenidən əvvəlki halına qayıdır və beləliklə, nəfəs borusundan hava keçir. İstəsən, bunu özün də təcrübədən keçirə bilərsən. Udqun və udqunduğun anda nəfəs almağa çalış, gör heç nəfəs ala bilirsənmi? Gündəlik

[57] Əl-Muminun: 13-14
[58] Əl-Bələd: 8-9

həyatda heç bir insanın yemək yeyərkən onu belə bir təhlükənin gözlədiyindən xəbəri belə yoxdur. Heç bir insan "əgər yediklərim nəfəs borusuna keçərsə...", yaxud da "görəsən qapaqcığım fəaliyyət göstərirmi, məni boğulmaqdan qoruya biləcəkmi?" – deyə bir narahatçılıq keçirmir. Ehtimal ki, bir çox insanın da bu yazını oxuyana qədər boğazındakı qapaqcığın varlığından və ya əhəmiyyətindən xəbəri belə yox idi. Lakin qapaqcıq var və elə bir neçə saniyə əvvəl sən udqunarkən də həyatının qorunmasına vəsilə oldu. Burada başqa bir "təsadüf" də var. Körpələrdəki qapaqcıq sistemi yetkin insanlarda olduğundan fərqli şəkildə fəaliyyət göstərir. Körpələrdəki bu qapaqcıq yetkin insanlara nisbətdə daha yuxarıda yerləşir və beləcə udqunarkən nəfəs borusunun bağlanmağına da ehtiyac olmur. Bunun sayəsində körpə nəfəs alıb-verərkən rahatlıqla ana südü əmə bilir. Həmçinin bu zaman körpələr həm ana südü əmir, həm nəfəs alır, həm də ağlayır, üstəlik boğulmaq təhlükələri də olmur. Bir sözlə, mövzunu çox uzatmaq və insanın qida sistemi, görmə və eşitmə sistemi, digər daxili və xarici orqanları barədə də danışmaq olar. Lakin düşünürəm ki, aqil və arif adamlar üçün bir işarə də kifayətdir. Uca Allah buyurur: *"Sizin öz varlığınızda da dəlillər vardır. Məgər görmürsünüz?"*[59] Uca Rəbbimiz insanın xilqətində nəinki zəruri olan ehtiyaclarını, hətta insanın həyatı üçün zəruri bir əhəmiyyət kəsb etməsə də, onun gözəlliyi üçün olan xüsusları belə hesablamışdır. Bir anlıq insanın qaşsız, kirpiksiz və ya saçsız halını düşün. Yaxud sahib olduğun burnun üçün üzündə olduğu indiki yerindən başqa bir yer axtar. Əlini aç və ovucunun içi sənə tərəf olduğu halda barmaqlarına və aralarındakı uzunluq-qısalıq fərqinə bax, sonra isə barmaqlarını ovuc içinə doğru qatla və hamısının necə bərabər səviyyəyə gəldiklərinə fikir ver. *"Biz insanı ən gözəl şəkildə yaratdıq!"*[60] Bütün bunlar təkcə "insan" adlı ilahi bir möcüzənin ətrafında danışılan həqiqətlərin az bir qismidir. Digər varlıqlar, nəbatat və heyvanat aləmi, göylərin və yerin dərinlikləri, bizə bəlli olan və olmayan digər məxluqlar...

---

[59] Əz-Zəriyat: 21
[60] Ət-Tin: 4

Düşündükcə insanı sanki bir vahimə və dəhşət bürüyür. *"Məgər onlar dəvənin necə yaradıldığını, göyün necə yüksəldiyini, dağların necə sancıldığını və yerin necə döşədildiyini görmürlər?"*[61] Suda yaşayan, havada süzən, quruda gəzən: iki və dörd ayaqlı, yaxud ayaqsız olub sürünən bu qədər müxtəlif şəkillərdə canlılar xəlq edən Allah nə qədər mübarəkdir! Uca Allah buyurur: *"Qoy insan öz qidasına bir baxsın!"*[62] Gəlin bütün qidaların anası sayılan çörəyin özül mayası olan buğdanı, taxıl zəmilərini xatırlayaq. Sünbül üzərindəki uzun tikanları hər birimiz görmüşük. Bax elə bu tikanların sayəsində sən və mən çörək tapa bilirik. Əkinçi öz üzərinə düşəni edib, evində dincəlir, heç xəbəri də yoxdur ki, taxıl zəmilərində olan buğdanı, onu yemək istəyən quşların hücumundan qoruyan, quşun gözünə, bədəninə batan həmin sünbül tikanlarıdır. Fikir ver, ey nankor və cahil insan! Bu qidanı sənə nemət olaraq bəxş edən və üstəlik verdiyi nemətini sənin üçün qoruyan da Allahdır. Sən isə...*"Həqiqətən, insan Rəbbinə qarşı çox nankordur"*.[63]

• ***"Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları qoruyub hifz etmək Ona çətin gəlməz. O, Ucadır, Əzəmətlidir".***

Müəllifin bu sözləri əl-Bəqərə surəsi 255-ci ayədən iqtibas edilmişdir. İlk növbədə, burada bəndələrin Allahın elmindən nəyi kəsb edib-etmədikləri barədə söz açılmaqdadır. Belə ki, onlar Allahın elmindən, yəni qeyb xəbərlərindən yalnız və yalnız Onun Özünün istədiyi qədər məlumat əldə edə bilərlər. Uca Allah buyurur: *"O, qeybi Biləndir və Öz qeybini razı qaldığı elçidən başqa heç kəsə açmaz"*.[64] Bu, ayənin **"onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər"** – hissəsinin birinci mənasıdır. İkinci mənası isə, yəni onlar Allahın

[61] Əl-Ğaşiyə: 17-20
[62] Əbəsə: 24
[63] Əl-Adiyat: 6
[64] Əl-Cinn: 26-27

Zatı və sifətləri barədə Onun Özünün xəbər verdiklərindən savayı heç bir şey bilə bilməzlər. Üçüncü mənası, ümumən insanlar Allahın onlara öyrətdiklərindən başqa heç bir şey öyrənə bilməzlər. Yəni insanların elm adına əldə etdikləri hər şey Allahın onlara öyrətməsi və onları o bilgiyə müvəffəq etməsi ilə olur. *"Mərhəmətli Allah Quranı öyrətdi. İnsanı yaratdı, ona danışmağı öyrətdi".* [65] ; *"Yaradan Rəbbinin adı ilə oxu! O, insanı qan laxtasından yaratdı. Oxu! Sənin Rəbbin çox səxavətlidir. O, qələmlə yazmağı öyrətdi. İnsana bilmədiklərini öyrətdi".*[66]

Daha sonra Allahın yaratdığı əzəmətli varlıqlardan biri olan Kürsü barədə söz açılmaqdadır. Kürsünün nə olduğu barədə, əsasən, üç rəy mövcuddur:

1. Kürsü elə Ərşin özüdür, yəni Kürsü və Ərş sinonim sözlərdir;[67]
2. Kürsü elm deməkdir. "*Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir"*, yəni Onun elmi göyləri və yeri əhatə etmişdir;[68]

---

[65] Ər-Rahmən: 1-4

[66] Əl-Ələq: 1-5

[67] Bu, zəif bir sənədlə Həsən əl-Bəsridən nəql olunmuşdur. Bax! "Təfsir ət-Təbəri" 5/399 (5795), İbn Kəsir "əl-Bidəyə vən-nihəyə" 1/13.

[68] Bu, zəif bir sənədlə Abdullah ibn Abbasdan ﷺ nəql olunmuşdur. Bax! "Təfsir ət-Təbəri" 5/401-402 (5787 və 5788). Əsəri İbn Abbasdan Səid ibn Cubeyr vasitəsilə rəvayət edən Cəfər ibn Əbil-Muğira əsli etibarilə güvənilən bir ravi olsa da, Səid ibn Cubeyrdən etdiyi nəqillərində və özündən daha etibarlı ravilərə müxalif olan rəvayətlərində etibarsızdır. Bunu İbn Məndə və Dərimi kimi hədis imamları qeyd etmişdir (Bax! İbn Həcər "Təhzibut-təhzib" 2/108). Onun bu nəqli də Səid ibn Cubeyrdəndir və üstəlik bu rəvayəti ondan daha etibarlı olan ravilərin Səid ibn Cubeyr vasitəsilə İbn Abbasdan nəql etdikləri bu əsərə də müxalifdir: *"Kürsü iki ayağın qoyulduğu yerdir".* Həmçinin Kürsünün "elm" mənasında təvil edilməsi "التأسيس أولى من التأكيد", yəni *"ayəyə yeni məna gətirmək öncəki mənanı təkrar etməkdən daha üstündür"*, – qaydasına da müxalifdir. Çünki ayənin əvvəlində Allahın elmindən söz açılır: *"O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər".* Ayənin davamını "*Onun Elmi göyləri və yeri əhatə etmişdir"* kimi anlasaq, o zaman ayədə təkrarçılıq hasil olmuş olacaqdır. Yox, əgər ayənin davamını "*Onun Kürsüsü göyləri və yeri əhatə etmişdir"* kimi anlasaq, o zaman ayədə təkrarçılıq deyil, əksinə, yeni məna hasil olmuş olacaq ki, bu da yuxarda qeyd etdiyim qaydaya müvafiqdir.

3. Kürsü göyləri və yeri əhatə edən, Ərşdən daha aşağı və iki ayağın qoyulduğu əzəmətli bir varlıqdır. Bu, Abdullah ibn Abbas ﵄ başda olmaqla bir çox sələfdən – səhabə və tabiindən nəql olunmuş etibarlı bir mənadır. İbn Abbas ﵄ demişdir: *"Kürsü iki ayağın qoyulduğu yerdir. Ərşin böyüklüyünü isə heç kəs təxmin edə bilməz".*[69] İbn Abbasın bu sözü Kürsü və Ərşi eyni görənlərin, həm də Kürsünü "elm" mənasında təvil edənlərin sözünü rədd edir. Əbu Zər ﵁ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: *"Yeddi qat səmanın Kürsüyə nisbəti geniş bir səhra önünə atılmış həlqə kimidir. Ərşin Kürsüyə nisbətdə böyüklüyü isə həmin səhranın həlqəyə nisbətdə olan böyüklüyü kimidir".*[70] İbn Məsud ﵁ isə Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: *"Qiyamət günü Uca Allah bütün insanları qırx il ayaq üstə, gözləri səmaya dikəlmiş vəziyyətdə, hesab anını gözlədikləri halda, məhşər yerində toplayacaqdır. Daha sonra Uca Allah bulud kölgələri içərisində Ərşdən Kürsüyə enəcəkdir..."*[71]

***"Bunları qoruyub hifz etmək Ona çətin gəlməz"***, yəni göyləri, yeri, onların içində olan hər şeyi qorumaq, hifz etmək Allah üçün çətin və ağır deyil.

"***O, Ucadır, Əzəmətlidir".*** Bu, Allahın ucalıq və əzəmətlilik sifətlərinə dəlalət edən iki gözəl addır:

- العلي *əl-Əli (Uca):* Yəni Rəbbimiz Zatı, şanı və qəhri – gücü, hökmü uca olandır.
- العظيم *əl-Əzim (Əzəmətli):* Rəbbimiz Zatında, sifətlərində, həm də feillərində əzəmət sahibidir.

---

[69] Təbərani "əl-Mucəmul-kəbir" (12404), Hakim "əl-Müstədrək" 2/282, Təbəri (5792). Hakim, Zəhəbi, Heysəmi, Əlbani və digər imamlar əsərin səhih olduğunu qeyd etmişdir. Bax! Əlbani "Müxtəsərul-Ülüvv" səh. 75. Şueyb əl-Arnaut "Təxricu şərhil-əqidətit-Təhaviyyə" 2/427, haşiyə: 3.

[70] Beyhəqi "əl-Əsma vəs-sifət" (861), İbn Batta "əl-İbənətul-kubra" (136), Əlbani "əs-Silsilətus-sahiha" (109)

[71] Təbərani "əl-Mucəmul-kəbir" (9763), Dəraqutni "Ruyətullah" (163), Əlbani "Səhihut-tərğib" (3591)-də hədisin səhih olduğunu qeyd edir.

📖 **O Bilən, hər şeydən Xəbərdar olan, hər şeyi idarə edən, hər şeyə qadir olandır. Hər şeyi Eşidən, Görən, Uca, Böyük olan Odur.**

✍ Burada müəllifin qeyd etdiyi bəzi adlar Allahın adlarından deyildir. Yəni həmin adlar Quran və sünnətdə Allah Təala barədə ad olaraq varid olmamışdır. Bu səbəbdən də onları Allah barədə ad olaraq qeyd etmək düzgün deyildir. Lakin ola bilsin ki, müəllif həmin adları Allah Təala barədə ad olaraq deyil, vəsf olaraq, yaxud ixbar – xəbər vermə yönü ilə qeyd etmişdir.[72]

**العالم *əl-Alim (Bilən):*** Uca Allahın əl-Alim adı yoxdur, العليم əl-Əlim (hər şeyi Bilən) adı var. Uca Allah buyurur: *"Həqiqətən, Allah hər şeyi Biləndir, hər şeydən Xəbərdardır".*[73] Bu ad Allahın elm sifətinə dəlalət edən bir addır. Yəni Allah Təalanın elmi əzəlidir, Onun elmi hər şeyi əhatə etmişdir və Onun elmindən kənar heç bir şey baş verə bilməz. *"O, yerə girəni, yerdən çıxanı, göydən enəni və göyə qalxanı da bilir"*[74]; *"Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz"*[75]; *"Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur".*[76]

**الخبير *əl-Xabir (hər şeydən Xəbərdar olan):*** Uca Allah buyurur: *"...Peyğəmbər bunu ona bildirdikdə zövcəsi dedi: "Bunu sənə kim xəbər verdi?" O dedi: "Bunu mənə hər şeyi Bilən, hər şeydən Xəbərdar olan Allah xəbər verdi!"*[77] Rəbbimiz biz qullarının gizlində və aşkarda olan hər halından xəbərdardır. Ona görə, insan

---

[72] Bu barədə, yəni Allahın adları, vəsf və sifətləri, həmçinin Onun barədə xəbər vermək yönü ilə deyilən sözlər və bunların arasında olan fərqlər haqqında irəlidəki səhifələrdə ətraflı danışılacaqdır.
[73] Əl-Hucurat: 13
[74] Əl-Hədid: 4
[75] Yunus: 61
[76] Əl-Ənam: 59
[77] Ət-Təhrim: 3

asilik etməkdən çəkinməli və Rəbbindən həya etməlidir. Məgər həya edilməyə Allahdan daha çox kim layiqdir?! Fikir verin, bir çox ayədə Rəbbimiz bizə dilimizi, gözümüzü, övrətimizi qorumağı, ədalətli və təqvalı olmağı, Özünə və Rəsuluna itaəti əmr edərkən, həmən Özünün əl-Xabir ismini zikr edərək biz qullarına bir xatırlatma edir ki, bəlkə buna əsasən insan öz məsuliyyətini dərk edər. *"Mömin kişilərə de ki, gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır"*[78]; *"Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır"*[79]; *"Allaha və Rəsuluna itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır"*.[80]

**المدبر əl-Müdəbbir (hər şeyi idarə edən):** Uca Allahın əl-Müdəbbir adı yoxdur, lakin "hər şeyi idarə etmək" vəsfi var. Uca Allah buyurur: *"O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da bu işlər sizin saydığınız illərdən min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir"*.[81]

**القدير əl-Qadir (hər şeyə qadir olan):** Bu ad Allahın qüdrət sifətinə dəlalət edən bir addır. Uca Allah buyurur: *"Göylərin, yerin və onların arasında olanların hökmranlığı Allaha məxsusdur və O, hər şeyə qadirdir"*.[82]

**السميع البصير əs-Səmi (Eşidən), əl-Basir (Görən):** Bu, Allahın eşitmə və görmə sifətlərinə dəlalət edən iki gözəl addır. Yəni Allah Təala hər şeyi eşidən və görəndir. Lakin Onun eşitməsi və görməsi bəndələrin eşitməsi və görməsilə müqayisə oluna bilməz. Çünki

---

[78] Ən-Nur: 30
[79] Əl-Maidə: 8
[80] Əl-Mucədələ: 13
[81] Əl-Səcdə: 5
[82] Əl-Maidə: 120

*“Onun heç bir bənzəri yoxdur. O Eşidəndir, Görəndir”.*[83] Əhli-sünnətə görə, Allahın eşitmə və görmə sifətləri əsli etibarilə zatı, görülən cism və eşidilən səslərə nisbətdə isə feili sifətlər sayılır. Yəni Uca Allah əzəli olaraq eşitmə və görmə sifətləri ilə vəsflidir. Lakin sonradan var olan varlıqları və səsləri əzəli görmə və eşitməsilə deyil, Öz istəyinə bağlı olaraq eşidir və görür ki, bu da Onun feili sifəti sayılır. Misal olaraq, bu ayəni qeyd etmək olar: *“Əri barədə səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir”.*[84] Allah Azzə və Cəllə həmin qadının[85] Peyğəmbərlə ﷺ olan söhbətini və şikayətini eşitdiyini bildirir. Məlumdur ki, bu eşitmə həmin ana məxsusdur. Çünki o qadın bu söhbəti əzəli olaraq deyil, məhz həmin vaxtda etmişdir. Bu da “Allahın görmə və eşitmə sifətləri yalnız əzəli sifətlərdir”, – deyən əşarilərə bir cavabdır.

**العلي الكبير *əl-Əli (Uca), əl-Kəbir (Böyük):*** Bu, Allahın ucalıq və böyüklük sifətlərinə dəlalət edən iki gözəl addır. Uca Allah buyurur: *“Nəhayət, mələklərin qəlbindən qorxu keçib getdikdə onlar: "Rəbbiniz nə buyurdu?"– deyə soruşarlar, digərləri isə: "Haqqı buyurdu! O, Ucadır, Böyükdür!"– deyə cavab verərlər”.*[86]

[83] Əş-Şura: 11
[84] Əl-Mucədələ: 1
[85] Xovlə binti Sələbə.
[86] Səba: 23

📖 **O, Zatı ilə əzəmətli Ərşinin fövqündə, elmilə isə hər yerdədir.**

✍ Ərş Allahın bu aləmdə yaratdığı ilk və ən əzəmətli məxluqdur. O, aləmin fövqündə, su üzərində və qübbə şəklində olan bir varlıqdır. Uca Allah buyurur: *"Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün, Ərşi su üzərində ikən, göyləri və yeri altı gündə yaradan Odur".*[87] Yəmən əhli Peyğəmbərdən ﷺ yaradılışın başlanğıcı barədə soruşduqda o belə cavab verdi: *"Allah var idi və Onunla birgə (Ondan öncə)*[88] *heç nə yox idi. Ərşi isə suyun üzərində idi. Zikrdə (Lövhi-Məhfuzda) hər şeyi yazdı, sonra isə göyləri və yeri yaratdı".*[89] Abdullah ibn Məsud ؓ demişdir: *"Aşağı qat səma ilə ondan sonrakı səma arasında beş yüz illik məsafə var. Hər səma qatı arasındakı məsafə, yeddinci qat səma ilə Kürsü və Kürsi ilə su arasındakı məsafə də beş yüz ilə bərabərdir. Ərş də suyun üzərindədir. Allah isə Ərşin fövqündədir və sizin əməllərinizdən heç bir şey Ona gizli qalmaz".*[90] Uca Allah buyurur: *"O gün sənin Rəbbinin Ərşini səkkiz mələk daşıyacaqdır".*[91] Peyğəmbər ﷺ demişdir: *"Mənə Ərşi daşıyan mələklərdən biri barədə danışmağa izn verildi. Belə ki, onun qulaq məməsi ilə çiyni arası yeddi yüz illik məsafəyə bərabərdir".*[92]

• Müəllif *"**O, Zatı ilə əzəmətli Ərşinin fövqündədir**"* deməklə Allahın "əl-Ülüvv", yəni ucalıq sifətini isbat edir. Allahın ucalıq sifəti Quran və sünnətlə, sələfin icması ilə, ağıl və fitrət dəlillərilə sabitdir.

***Quran dəlillərindən:*** *"O, Ucadır, Əzəmətlidir"*[93]; *"Göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Odur"*[94]; *"Göydə olanın*

---

[87] Hud: 7
[88] Hədisin bəzi rəvayətlərində bu cür qeyd olunmuşdur. Bax! Buxari (7418)
[89] Buxari (3191)
[90] Beyhəqi "əl-Əsma vəs-sifət" (851), Təbərani "əl-Mucəmul-kəbir" (8987)
[91] Əl-Həqqa: 17
[92] Əbu Davud (4724), hədis səhihdir. Bax! İbn Həcər "Fəthul-Bəri" 8/665, Suyuti "əd-Durrul-mənsur" 7/274, Əlbani "Səhihul-cəmi" (1714)
[93] Əl-Bəqərə: 255

*sizi yerə batırmayacağına əminsinizmi?...Ya da ki, göydə Olanın üstünüzə daşlar yağdırmayacağına əminsinizmi?"* [95] *;"Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur və onlara əmr olunanları yerinə yetirirlər"*[96]*; "Mələklər və Ruh (Cəbrail) Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar"*[97]*; "Gözəl söz Ona tərəf yüksəlir"*[98]*; "Ey İsa! Mən səni Özümə tərəf qaldıracağam";*[99] *"Firon dedi: Ey Haman! Mənim üçün bir uca qala tik ki, bəlkə yollara – göylərin yollarına çatım və Musanın məbudunu görüm. Həqiqətən, mən onu yalançı sayıram!"*[100]

***Sünnət dəlillərindən:*** *Peyğəmbər ﷺ cariyəyə: "Allah haradadır?" – deyə sual vermiş, o da "səmadadır", – dedikdə Peyğəmbər ﷺ bu dəfə "bəs mən kiməm?" – deyə soruşmuşdur. O da: "Sən Allahın Rəsulusan", – dedikdə Peyğəmbər ﷺ həmin cariyənin ağasına: "onu azad et, çünki o, mömінədir", – demişdir*[101]*; "Yer üzündə olanlara rəhm edin ki, göydə Olan da sizə rəhm eləsin".*[102]

---

[94] Əl-Hədid: 4
[95] Əl-Mülk: 16-17.
*Qeyd:* Bu ayədə "göydə Olan" dedikdə "göyün içində" deyil, "fövqündə olan" mənası nəzərdə tutulur ki, bu da ərəb-dilində bilinən bir məsələdir. Belə ki, Uca Alah buyurur: ﴿ سِيرُوا فِي الْأَرْضِ ﴾*"Yür üzündə gəzib dolaşın"* (Əl-Ənam: 11).

[96] Ən-Nəhl: 50
[97] Əl-Məaric: 4
[98] Fatir: 10
[99] Ali-İmran: 55
[100] Ğafir: 36-37.
*Qeyd:* Bu ayənin şərhində Haris əl-Muhasibi demişdir: "*«Həqiqətən, mən onu yalançı sayıram!»* Yəni mənə Rəbbinin səmada (səmanın fövqündə) olduğunu dediyi məsələdə mən onu yalançı sayıram" ("Fəhmul-Quran" səh. 352). İmam Təbəri bu ayənin şərhində demişdir: "*«Həqiqətən, mən onu yalançı sayıram!»* Yəni mən Musanı səmada bir Rəbbinin olduğunu deməsində və bu iddiasında yalançı sayıram" (Bax! İmam Təbərinin təfsiri, Ğafir 37-ci ayənin şərhi). İbn Əbdülbər demişdir: "*«Həqiqətən, mən onu yalançı sayıram!»* Bu ayə dəlalət edir ki, Musa عليه السلام Firona deyirdi ki, mənim İlahım səmadadır və Fironda bu məsələ də onu təkzib edirdi" ("Ət-Təmhid" 7/133).
[101] Müslim (537)
*Qeyd:* İmam Zəhəbi demişdir: "Bu hədisdə iki önəmli nöqtə var. Birincisi, müsəlmanın "Allah haradadır?" sualını, ikincisi isə soruşulanın "Allah

***İcma dəlili:*** Allahın Ərşin fövqündə olduğuna dair bir çox alim Əhli-sünnətin icmasını nəql etmişdir. Buna misal olaraq, imam İshaq ibn Rahaveyhin (vəfatı hicri 238)[103], Quteybə ibn Səidin (v.h. 240)[104], imam Əbu Zura (v.h. 264) və Əbu Hatimin (v.h. 277)[105], imam Dəriminin (v.h. 280)[106] nəql etdikləri icmaları qeyd etmək olar. Tabiinlərdən olan imam Əuzai demişdir: "Tabiinlərin çoxu hələ həyatda ikən biz belə deyərdik: Uca Allah Ərşinin fövqündədir".[107]

***Ağıl dəlili:*** Var olan iki şey ya bir-birindən ayrı, ya da bir-birilə iç-içə olur. Bu ağlın tələb etdiyi bir həqiqətdir. Əgər onların bir-birilə iç-içə olduqlarını təsdiqləsən, gərək bir-birindən ayrı olduqlarını inkar edəsən. Yox, əgər onların bir-birilə iç-içə olduqlarını inkar etsən, o zaman bir-birindən ayrı olduqlarını təsdiqləməlisən. Çünki bu iki vəsf bir-birinə əks olan vəsflərdir. Heç şübhəsiz ki, Allah Təala məxluqatından ayrıdır. Onun məxluqatı ilə iç-içə olduğunu iddia etmək isə müsəlmanların icması ilə küfrdür. İndi isə sual olunur: bir-birindən ayrı olan bu iki varlığın, yəni Xaliqin və məxluqatın hansı daha ucadır və ucadadır? Əgər deyilsə ki, Allah nə varlıq aləminin daxilində, nə də xaricindədir, bizim cavabımız belə olar: bir-birinə əks olan iki vəsfin eyni anda bir fərddə cəm

---

səmadadır" cavabını verməsinin icazəli olması. Bu iki məsələni inkar edən kəs yalnız və yalnız Peyğəmbərə ﷺ etiraz etmişdir" ("Əl-Ülüvv" (50) səh. 28).

Əbdülğani əl-Məqdisi bu hədis barədə belə demişdir: "Peyğəmbər ﷺ açıq bir şəkildə "Allah hardadır?"- deyə sual verdikdən sonra, "Allah hardadır?" sualını icazəli görməyəndən daha cahil, daha ağılsız və daha azğın kim ola bilər?" ("Əl-İqtisad fil-etiqad" səh. 89)

[102] Tirmizi (1924), hədis səhihdir. Bax! Əlbani "Səhihul-cəmi" (3522). İmam Zəhəbi "əl-Ərş" və "əl-Ülüvv" adlı kitablarında Allah Təalanın ucalıq sifətinə dəlalət edən yüzə yaxın hədis zikr etmişdir. İstəyən o kitablara müraciət edə bilər.

[103] Zəhəbi "Əl-Ülüvv" (487), Əlbani "Müxtəsərul-Ülüv"də nəqlin səhih olduğunu vurğulayır.

[104] Zəhəbi "Əl-Ülüvv" (470), Əlbani "Müxtəsərul-Ülüv"də nəqlin səhih olduğunu vurğulayır.

[105] Ləlakəi "Şərh usuli etiqadi Əhlis-sünnə" (321)

[106] "Ən-Naqdu alə əl-Mərisi" səh.154

[107] Beyhəqi "əl-Əsma vəs-Sifət" (865), İbn Həcər sənədinin həsən – yaxşı olduğunu qeyd etmişdir ("Fəthul-Bəri" 13/406).

olması və ya hər ikisinin də eyni vaxtda aradan qalxması mümkün deyil. Məsələn, bir kəs barədə "həm diridir, həm də ölü" deyilmədiyi kimi, "nə diri deyil, nə də ölü" deyilə bilməz. Yaxud "həm sakitdir, həm də hərəkətdə" deyilmədiyi kimi, "nə sakitdir, nə də hərəkətdə" deyilə bilməz. Çünki bu, bir-birinə əks olan iki vəsfin eyni anda bir yerdə olması və ya eyni anda aradan qalxmasıdır ki, bu da əqlən mümkünsüzdür. Belə olduğu təqdirdə, "Allah nə varlıq aləminin daxilində, nə də xaricindədir" deyilə bilməz. Üstəlik bu, Allahın varlığını yox hesab etməyə bərabərdir. Çünki varlıq aləminin daxilində və xaricində var olmayan bir "varlıq", əslində, yoxluq deməkdir. Biz əşari və maturidilərin bu kimi sözləri və iradları ilə tanış olduqda görürük ki, onlar əslində Uca Allahı zatı, yəni həqiqi bir varlıq kimi yox, sadəcə olaraq zehni bir valıq kimi qəbul edirlər.[108]

---

[108] Əşari alimlərindən İbn Furak fikir ataları olan İbn Kulləbin sözünü nəql edərək demişdir: "Eləcə də (İbn Kulləb) "Allah nə aləmin daxilində, nə də xaricindədir" deyənin və beləcə, Onun varlığını tamamilə inkar edənin iddiasının şəriətə və məntiqə zidd olduğunu qeyd etdi. Çünki (həmin iddianı edənə) "Allahı yoxluqla vəsf et!" deyilsə, bu iddiasından artığını söyləyə bilməyəcəkdir. Beləliklə, Allahın açıq-aydın ayələrini rədd etmiş, üstəlik şəriətə və məntiqə zidd olan bir şeyi söyləmişdir. Onlar iddia etmişdir ki, həqiqi tövhid yalnız belə olmalıdır. Onlar (cəhmilər) üçün Onu tamamilə inkar etmək əsl, həqiqi tövhid sayılır. Buna baxmayaraq, özlərini qiyas əhli (fəqih, həqiqi alim) hesab edirlər" ("Bəyənu təlbisil-Cəhmiyyə" 1/44).
*Qeyd:* İbn Kulləb "Allah nə aləmin daxilində, nə də xaricindədir" sözünün həm şəriətə, həm də əqlə və məntiqə zidd olduğunu vurğulayır. Həmçinin qeyd edir ki, bu cür etiqad etmək, ümumiyyətlə, Uca Allahı "yoxluq" ilə vəsf etmək deməkdir. Bu etiqad isə Cəhmiyyə məzhəbinin "tövhidi"dir. Çünki onlara görə, Allahın bütün ad və sifətlərini inkar etmək (əslində, bu elə Allahın Özünü inkar etməyə bərabərdir) əsl tövhid sayılır. İbn Kulləbin bu sözü açıq bir dəlildir ki, hətta indiki əşari və maturidilərin fikir ataları və ilkin əşarilər belə "Allah nə aləmin daxilində, nə də xaricindədir" etiqadında olmamışdır. Buna dəlil olaraq, Haris əl-Muhasibinin və Əbul-Həsən əl-Əşarinin sözlərini də qeyd etmək olar. Belə ki, əl-Muhasibi Allahın ucalıq sifətinə və Ərşinin fövqündə olduğuna dair bir çox Quran dəlilini zikr etdikdən sonra demişdir: "Bütün bunlar qəti bir şəkildə ona dəlalət edir ki, O, Ərşin və hər şeyin fövqündədir. Məxluqatına daxil olmaqdan münəzzəhdir və onlardan heç bir şey Ona gizli qalmaz. Çünki O bütün bu ayələrdə açıq bir şəkildə bəyan etmişdir ki, Onun Öz Zatı bəndələrinin fövqündədir... Uca Allah buyurur: *"Mələklər və Ruh (Cəbrail) Ona doğru sayı*

*əlli min ilə bərabər bir gün ərzində qalxırlar”* (Əl-Məaric: 4); *“Gözəl söz Ona tərəf yüksəlir”* (Fatir: 10)... Onlar Ərşə tərəf qalxdıqda Allaha tərəf qalxmış olurlar, hətta Onu görməsələr belə...” (Haris əl-Muhasibi “Fəhmul-Quran” səh. 349-351). Fikir verin, əl-Muhasibi Uca Allahın məxluqata daxil olmaqdan münəzzəh olduğunu dediyi halda, məxluqatından ayrı və onların xaricində olduğunu inkar etməmiş, əksinə, bunu iqrar edərək Quran və sünnətin də buna dəlalət etdiyini qeyd etmişdir. Həmçinin Əbul-Həsən əl-Əşari də özünün “əl-İbanə”, “Risalətun ilə əhlis-sağr” və “Məqalətül-isləmiyyin” adlı əsərlərində bir çox yerdə Uca Allahın məxluqatından ayrı və Ərşinin fövqündə olduğunu iqrar etmişdir.

İmam Zəhəbi demişdir: “Allahın göylərin üstündə olan Ərşin fövqündə olduğunu demək, Onun hansısa bir məkanda, yaxud yöndə olduğuna etiqad etmək sayılmaz. Belə ki, Ərşin altında olanlara məkan, yaxud yön nisbət etmək olar. Lakin Ərşin fövqü belə deyildir. Uca Allah da ilk dönəm nəslin üzərində icma etdiyi və Əhli-sünnət imamlarının da onlardan nəql etdiyi kimi, Ərşinin fövqündədir. Onlar bunu *“siz harada olsanız belə, O sizinlədir”* (əl-Hədid: 4) ayəsini dəlil gətirərək Uca Allahın hər yerdə olduğunu deyən Cəhmiyyə firqəsinə cavab olaraq demişlər. Tabiin və ətbəut-tabiin zamanında olan rəy məhz bu iki rəy (yəni Allahın Ərşin fövqündə: məxluqatından ayrı olması və Allahın məxluqatına hülul edib hər yerdə olması rəyləri) idi. Ümumilikdə isə bu iki rəy ağlabatan rəylər idi (yəni haqq, yaxud batil olmasından asılı olmayaraq bu iki rəyi ağıl və məntiq qəbul edə bilirdi). Lakin son dönəmlərdə ortaya çıxan “Allah nə varlıq aləminin içində, nə də onun xaricindədir, nə Ərşin fövqündə, nə məxluqata bitişik, nə də onlardan ayrıdır, Onun müqəddəs Zatı nə bir yerdədir, nə də məxluqatından ayrıdır, nə hansısa bir yöndə deyil, nə də yönlərin xaricində deyil, nə belə deyil, nə də elə deyil və s.” üçüncü rəyə gəldikdə isə Quran və sünnətə müxalif olması ilə yanaşı, həm də ağla və məntiqə ziddir” (“Əl-Ülüvv” səh. 267-268).

İbn Rüşd demişdir: “Şəriət əhli bu sifəti (yəni Allahın ucalıq yönündə olmasını) dinin ilk günündən bəri ta ki Mötəzilə firqəsi gəlib inkar edənəcən daima Uca Allah barədə isbat edirdi. Daha sonra onların (Mötəzilənin) bu inkarına Əbul-Məali və onun izi ilə gedən mütəəxxir, yəni son dönəm əşarilər tabe oldular. Şəriətin bütün aydın dəlilləri Allah barədə (ucalıq) yönünü isbat etməyi tələb edir... (Daha sonra İbn Rüşd həmin dəlillərdən bəzilərini qeyd edir) Bütün bunlar təvil edilsə, o zaman gərək bütün şəriət təvil edilsin. Əgər deyilsə ki, bütün bunlar mütəşabihdir, o zaman gərək bütün şəriət mütəşabih olsun. Çünki bütün dinlər Allahın səmada olduğu fikri – etiqadı üzərində qurulmuşdur. (yəni Allahın ucalıq sifətinə dəlalət edən dəlillər o qədər açıq və çoxsaylıdır ki, bütün bunların hamısına mütəşabih demək, yaxud bütün bunları təvil etməyə səy göstərmək, şəriətin özünü tamamilə təvil etməyə və şəriətin özünü bütövlükdə mütəşabih görməyə bərabərdir) (İbn Rüşd “Mənəhicul-ədillə” səh. 176).

***Fitrət dəlili:*** Fəlsəfədən uzaq – kəlam elmilə korlanmamış təmiz fitrət sahibinə sual versək ki, "Allah haradadır?" rahat və arxayın bir şəkildə heç tərəddüd etmədən ya dili ilə "göydədir" deyəcək, ya da gözü, yaxud əli ilə səmaya işarə edəcəkdir. Həmçinin dua edən bəndə qəlbilə ucalardan nə isə ummurmu?! Yaxud içdən "Allah" deyən qəlbilə ucalığa yönəlmirmi?! Məgər Rəbbindən istəyən əllərini göyə qaldırıb istəmirmi?! Bütün bunlar onu göstərir ki, Uca Allah biz qullarının fitrətinə Öz ucalığına imanı nəqş etmişdir. Hər doğulan bu fitrət üzrə doğular. *"Allah insanları hansı fitrət üzrə yaradıbsa, sən o dinə tərəf yönəl! Allahın yaratdığını heç cür dəyişdirmək olmaz".*[109]

***"Allah <u>Zatı ilə</u> Ərşinin fövqündədir", – demək düzgündürmü?***
Əslində, *"Zatı ilə"* ibarəsi ilk sələfilər: səhabə və tabiin zamanında işlənməyən bir kəlmə idi. Çünki işlənməsinə heç ehtiyac da yox idi. Belə ki, *"Allah Ərşin fövqündədir"*, – dedikdə hər kəsin anladığı bir məna var idi: *"Allah Öz Zatı ilə Ərşinin fövqündədir və məxluqatından ayrıdır"* – mənası. Zaman keçdikcə bəzi hiyləgər bidət əhli insanların əqidələrini qarışdırmaqdan ötrü "biz də «Allah Ərşin fövqündədir» deyirik", – deməyə başladılar, lakin bu ibarə ilə nəzərdə tutduqları məna "Allah qüdrəti, güc və hökmranlığı ilə Ərşin fövqündədir, Zatı ilə deyil" – mənası idi. Bunu bilən Əhli-sünnət alimləri onların qəsd etdikləri bu batil mənanı rədd etməkdən ötrü *"Allah <u>Zatı ilə</u> Ərşinin fövqündədir"*, yaxud *"Allah Ərşinin fövqündədir və <u>məxluqatından ayrıdır</u>"* və ya *"Allah məcazi olaraq deyil, <u>həqiqi olaraq</u> Ərşinin fövqündədir"* – kimi ifadələr işlətməyə başladılar. Allah barədə Quran və sünnətdə varid olmayan bu cür ibarələri ehtiyac olduğu təqdirdə, ixbar – xəbər vermə yönü ilə qeyd etmək olar.[110] Necə ki müəllif də bu cür qeyd etmişdir. Əhli-sünnət alimlərindən Əbdülqadir əl-Ceyləni demişdir: "O, Öz Zatı ilə Ərşə yüksəldi. Onun Ərşin fövqündə olması bütün peyğəmbərlərə endirilmiş ilahi kitablarda zikr

---

[109] Ər-Rum: 30
[110] Bu barədə irəlidəki səhifələrdə geniş məlumat veriləcəkdir.

olunmuşdur”.[111] Yəhya ibn Əbul-Xeyr əl-İmrani[112] demişdir: “Hədis və sünnət əhlinin etiqadına görə, Allah Təala Öz Zatı ilə göylərin fövqündə olan Ərşinin üzərinə ucalmışdır və O, məxluqatından ayrıdır”.[113] İbn Əbdülbər demişdir: “Əhli-sünnət Uca Allahın Quran və sünnətdə varid olan bütün sifətlərini iqrar etmək, onlara iman etmək və bütün bunları məcaz olaraq deyil, həqiqət olaraq qəbul etmək üzərində icma etmişdir. Sadəcə olaraq, onlar (yəni Əhli-sünnət) bu sifətlərin heç birinə keyfiyyət vermirlər”.[114]

***Allahın Ərşin fövqündə olduğunu demək, Ona məkan nisbət etməkdirmi?*** – Əsla! Çünki hər kəs bilir ki, bu aləmin bir hüdudu var. Varlıq aləminin son nöqtəsi isə Ərşdir. Yəni varlıq aləmi – zaman və məkan məfhumu Ərş ilə tamamlanır. Ərşin fövqündə isə zaman və məkan məfhumu yoxdur. Allahu təala da Ərşinin fövqündədir. Belə olduğu təqdirdə, necə deyə bilərik ki, Allahın Ərşin fövqündə olduğunu demək Ona məkan nisbət etməkdir. İmam Zəhəbi demişdir: “Allahın göylərin üstündə olan Ərşin fövqündə olduğunu demək, Onun hansısa bir məkanda, yaxud yöndə olduğuna etiqad etmək sayılmaz. Belə ki, Ərşin altında olanlara məkan, yaxud yön nisbət etmək olar. Lakin Ərşin fövqü belə deyildir”.[115]

• Müəllif ***“O, elmi ilə hər yerdədir”*** – deməklə Allahın “əl-məiyyə”, yəni bərabərlik sifətini isbat edir. Lakin burada müəllif *“elmi ilə”* qeydini qoymuş və bununla da Allahın Zatı ilə hər yerdə olduğuna və məxluqatına hülul etdiyinə etiqad edən ilkin cəhmilərə və Hüluliyyə məzhəbinə cavab vermişdir. Allahın “əl-məiyyə”, yəni bərabərlik sifəti iki növdür:

---

[111] Əbdülqadir əl-Ceyləni “əl-Ğünyə” 1/54-55
[112] Yəmən diyarının böyük alimlərindən olub. Hicrətin 558-ci ilində vəfat etmişdir.
[113] Yəhya ibn Əbil-Xeyr əl-İmrani “əl-İntisar fir-raddi aləl-Mutəzilə”, fəsl: 102
[114] “Ət-Təmhid” 7/145
[115] “Əl-Ülüvv” səh. 267

- *Ümumi bərabərlik:* Yəni Allahın elmilə, görməsi və eşitməsilə, qüdrəti və iradəsilə bütün varlıqları əhatə etməsi və onlarla birlikdə olması. Uca Allahın elmindən, iradəsi və qüdrətindən kənarda bir zərrə belə yoxdur. Hər şey Onun elmi, iradə və qüdrəti çərçivəsindədir. Uca Allah buyurur: *"Siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür".*[116]
- *Xüsusi bərabərlik:* Yəni Allahın Öz yardımı, rəhməti və bərəkətilə mömin və müttəqi bəndələrlə birlikdə olması. Uca Allah buyurur: *"Allah səbir edənlərlədir"*[117]; *"Həqiqətən də, Allah Ondan qorxanlar və yaxşı işlər görənlərlədir".*[118]

Sual olunsa ki, "*«Siz harada olsanız belə, O sizinlədir»* – kimi ayə və hədisləri "Allahın məhz elmilə, görməsi və eşitməsilə, yaxud rəhməti və köməyilə hər yerdə olması" şəklində açıqlamaq bu ayə və hədisləri təvil etmək sayılmırmı?" Cavabımız belə olar: Siz "təvil etmək, yozmaq" – dedikdə nəyi nəzərdə tutursunuz? Əgər bununla həmin mənada olan ayə və hədisləri öz zahiri mənalarından çıxarıb, başqa istiqamətə yönəltməyi nəzərdə tutursunuzsa, biz qətiyyən belə bir şey etməmişik. Əksinə, bizim həmin ayə və hədislərə o cür məna verməyimiz elə o ayə və hədislərin zahirindən anlaşılan ilkin mənadır. Məgər Uca Allah *"Allahın hər şeyə qadir olduğunu, Allahın <u>hər şeyi elmi ilə əhatə etdiyini</u> biləsiniz deyə"*[119] – buyurmurmu?! Məgər Uca Allahın *"Qorxma, Allah bizimlədir!"* [120] ayəsinin zahiri mənası "Öz köməyi və yardımı ilə bizimlədir" – demək deyilmi? Yoxsa Allahın Zatı ilə Peyğəmbər ﷺ və Əbu Bəkr ؓ ilə birlikdə mağaranın içində olduğunumu iddia edirsiniz? Məgər *"Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!"*[121] ayəsinin zahirindən anlaşılan məna Allahın Öz nəzarəti və köməyilə Musa və Harun peyğəmbər ilə birlikdə olması demək deyilmi? Yox, əgər "təvil" – dedikdə həmin mənada olan ayə və

---

[116] Əl-Hədid: 4
[117] Əl-Bəqərə: 153
[118] Ən-Nəhl: 128
[119] Ət-Talaq: 12
[120] Ət-Tövbə: 40
[121] Ta ha: 46

hədisləri düzgün şəkildə təfsir edib anlamağı nəzərdə tutursunuzsa, bəli, biz həmin ayə və hədisləri düzgün şəkildə təfsir edib anlamış, sizin təbirinizcə desək, təvil etmişik. Uca Allahın bu kəlamına diqqət yetirək: *"Məgər görmürsənmi ki, Allah göydə və yerdə nə varsa, hamısını bilir. Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir".*[122] Məgər bu ayənin zahirindən anlaşılan məna "Allahın Öz elmi ilə bəndələrlə bərabər olması və Ondan heç bir şeyin gizli qalmaması" – deyilmi? Başqa bir ayəyə diqqət yetirək: *"O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir".*[123] Şübhəsiz ki, elm və qüdrəti hər şeyi əhatə edən, əlbəttə, hər şeylə bərabərdir. Elə bu səbəbə görə, həmin ayənin sonunda "*siz harada olsanız belə, O sizinlədir. Allah sizin nə etdiklərinizi görür"* – buyurulur.

***Allahın qulları ilə bərabər olması həqiqi mənadadır, yoxsa məcazi?*** – Əlbəttə ki, həqiqi mənadadır. "Əl-Məiyyə", yəni bərabərlik sifəti Uca Allahın şəninə yaraşan həqiqi sifətidir. Bəzi insanlarda, xüsusən də, Allahın ad və sifətlərini inkar və ya təvil edən kəslərdə bu kimi sualların doğmasına səbəb onların öz zehinlərində Xaliqi məxluqa bənzətmələridir. Belə ki, məxluqa nisbətdə bərabərlik sifəti, əsasən, "iki zatın eyni yerdə və ya iç-içə olması" anlamındadır. Bunu bilən biri "Allahın qulları ilə bərabər olması" ayələrini və hədislərini oxuduqda elə zənn edir ki, bu bərabərlik məcazi mənada olan bərabərlikdir. Əslində, bu cür düşünmək Xaliqi məxluqa bənzətməkdir. Allah Təalanın Zatı, varlığı, həyatı məxluqatın zatına, varlığına və həyatına bənzəmədiyi kimi, Onun danışması, eşitməsi, görməsi, elmi, bərabərliyi də məxluqatın bərabərliyinə, elminə, görməsi və eşitməsinə bənzəməz. Heç bir sifət inkarçısı öz zehnində Xaliqi

---

[122] Əl-Mucədələ: 7
[123] Əl-Hədid: 4

məxluqa bənzətmədikcə, Allahın hər hansısa bir sifətini inkar edə bilməz.

***Allahın bərabərlik sifəti Onun ucalıq sifətilə ziddiyyət təşkil etmirmi?*** – Əsla! Müəllifin də qeyd etdiyi kimi, Allah Zatı ilə Ərşinin fövqündə, elmi, görmə və eşitməsilə hər yerdədir. Məgər yürüyən biri "mən yürüyürəm və hara gedirəmsə, gedim, ay da mənimlə bərabərdir", – demirmi?! Məgər göydə olan ayın həmin yolçu ilə olan bərabərliyi "iki zatın eyni yerdə və ya iç-içə olması" mənasında olan bərabərlikdir, yoxsa məcazi mənada olan bərabərlik? Əlbəttə ki, heç biri. Ayın yolçu ilə olan bərabərliyi həqiqi mənada olan bərabərlik, yəni ayın yolçuya görünməsi və nurunun ona çatması ilədir. Bununla belə, ayın yolçu ilə olan bu bərabərliyi onun göydə olması ilə heç bir ziddiyyət təşkil etmir. Yəni bizə nisbətdə ilk baxışdan bir-birinə zidd kimi görünən bir hal ay üçün mümkün olduğu halda, onu yaradan Allah üçün necə mümkünsüz ola bilər?! *"Göylərdə və yerdə olan ən uca vəsflər məhz Ona məxsusdur".*[124] Məxluqa nisbətdə bir-birinə əks görünən elə şeylər var ki, Xaliqə nisbətdə onlar arasında heç bir ziddiyyət yoxdur. Çünki *"Onun heç bir bənzəri yoxdur".*[125] Uca Allah buyurur: *"Əvvəl də, Axır da, Zahir də, Batin də Odur".*[126] Görün Uca Allah Özünü bizə nisbətdə bir-birinə əks görünən vəsflərlə necə vəsfləndirir. Həmçinin Uca Allah bir ayənin daxilində həm Özünün ucalıq sifətini, həm də bərabərlik vəsfini qeyd etmişdir. Allahın Kitabında isə heç bir ziddiyyət ola bilməz. Uca Allah buyurur: *"Göyləri və yeri altı gündə yaradan, <u>sonra da Ərşə ucalan Odur</u>. O, yerə girəni də, oradan çıxanı da, göydən enəni də, oraya qalxanı da bilir. <u>Siz harada olsanız belə, O sizinlədir</u>. Allah sizin nə etdiklərinizi görür".*[127]

---

[124] Ər-Rum: 27
[125] Əş-Şura: 11
[126] Əl-Hədid: 3
[127] Əl-Hədid: 4

📖 **O, insanı yaratdı və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilir. O ona şah damarından da yaxındır. Onun xəbəri olmadan bir yarpaq belə yerə düşməz. Yerin qaranlıqlarında elə bir toxum, yaş və quru elə bir şey yoxdur ki, aydın bir Kitabda (Lövhi-məhfuzda) olmasın.**

✍ Uca Allahın elmi hər şeyi əhatə etmişdir. O gəlib-keçmiş hər şeyi və gələcəkdə nələrin baş verəcəyini bilir. Göylər və yer, var olan hər şey Onun önündə bir zərrə kimidir. Ondan gizlin heç bir şey yoxdur. *"Onun xəbəri olmadan heç bir meyvə toxumundan cücərib çıxmaz, heç bir dişi hamilə qalmaz və bətnindəkini yerə qoymaz"*[128]*; "Onun xəbəri olmadan bir yarpaq belə yerə düşməz. Yerin qaranlıqlarında elə bir toxum, yaş və quru elə bir şey yoxdur ki, aydın bir Kitabda (Lövhi-məhfuzda) olmasın".* [129] Bu ayə müəllifin yazısında iqtibas etdiyi ayədir. Ondan öncə Qaf surəsi 16-cı ayədən iqtibas etmişdir. Həmin ayədə Uca Allahın "əl-Qurb", yəni yaxınlıq sifətindən bəhs edilir.[130] Uca Allahın yaxınlıq sifətinə dəlalət edən adlarından əl-Qarib və əl-Batin[131] isimlərini misal göstərmək olar. Belə ki, Uca Allah buyurur: *"Qullarım*

---

[128] Fussilət: 47

[129] Əl-Ənam: 59

[130] Müəllifin iqtibas etdiyi ayənin Allahın yaxınlıq sifətinə dəlalət edib-etməməsində alimlər ixtilaf etmişlər:

- Alimlərin əksəriyyəti, o cümlədən də müəllif həmin ayənin Uca Allahın yaxınlıq sifətinə dəlalət etdiyini qeyd etmişdir. Yəni ayənin *"Biz ona şah damarından da yaxınıq"* hissəsi Allahın Öz elmi və qüdrəti ilə qullarına yaxın olmasını bildirir. Çünki ayədə ondan qabaq *"insanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik"* – deyilir.
- Bəzi alimlər, o cümlədən də İbn Teymiyyə, İbn Kəsir və digərləri bu ayənin Allahın yaxınlıq sifətinə dəlalət edən ayələrdən olmadığını demişlər. Ayədəki yaxınlığın məhz mələklər vasitəsilə olan yaxınlıq olduğunu qeyd etmişlər. Çünki həmin ayədən bir sonrakı ayələrdə belə deyilir: *"Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın"* (Qaf: 17-18).

[131] Uca Allahın əl-Batin adının mənası əl-Qarib isminin mənasından daha genişdir. əl-Batin ismi Allahın yaxınlıq sifətinə dəlalət etdiyi kimi, həmçinin

*səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam. Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm".*[132] Peyğəmbər ﷺ demişdir: *"Allahım! Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan, Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən daha yaxın olanı yoxdur".*[133]

---

Allahın Zatının və sifətlərinin keyfiyyətinin bəndələri tərəfindən dərk olunmaz olduğuna və digər başqa mənalara da dəlalət edir.

[132] Əl-Bəqərə: 186

[133] Müslim (2713)

📖 **O, Ərşə yüksəldi və mülkü Öz hökmü altına aldı.**

✍ Allahın "əl-İstiva", yəni yüksəlmək, ucalmaq sifəti Onun feili sifətlərindəndir və Quranda yeddi yerdə zikr olunmuşdur.[134] Həmin ayələrin birində Uca Allah belə buyurur: *"O, göyləri, yeri və onların arasında olanları altı gündə yaratdı, sonra da Ərşə ucaldı".*[135] Bu ayələrin hamısında استوى "istəva" kəlməsi على (üzərində) ön qoşması ilə birlikdə işlənmişdir ki, bu halda həmin kəlmənin bir-birinə yaxın dörd mənası olur:

1. ارْتَفَعَ – yüksəldi;
2. عَلاَ – ucaldı;
3. صَعِدَ – qalxdı;
4. اسْتَقَرَّ – qərar tutdu.

İmam Malikdən "əl-istiva"nın keyfiyyəti barədə soruşulduqda o belə cavab vermişdi: "«Əl-İstiva» (Allahın Ərşə ucalması) məlumdur..."[136] Yəni istivanın mənası ərəb dilində məlum – bilinən bir şeydir.[137] Cəhmiyyə, Mötəzilə və onlara tabe olan mütəəxxir əşarilər "istəva" kəlməsinə الاستيلاء , yəni "hökmü altına almaq" mənasını vermişlər. Yəni "Allah göyləri və yeri yaratdıqdan sonra Ərşə ucaldı" deyil, "Ərşi hökmü altına aldı". Buna dəlil olaraq da aşağıdakı beyti misal göstərmiş və orada

---

[134] Həmin ayələr bunlardır; əl-Əraf: 54, Yunus: 3, ər-Rad: 2, Ta ha: 5, əl-Furqan: 59, əs-Səcdə: 4, əl-Hədid: 4.

[135] Əl-Furqan: 59

[136] Dərimi "Ər-rəddu aləl-cəhmiyyə" səh. 280, Sabuni "Əqidətus-sələf" səh. 39, Lələkai "Şərh usuli etiqadi Əhlis-sünnə" 3/398-442, Zəhəbi "əl-Ərş" 2/167.

[137] Quran və sünnətdə, həmçinin ərəb dili ədəbiyyatında استوى kəlməsi على ön qoşması ilə birlikdə işləndikdə onun mənası yalnız və yalnız "ucaldı", "yüksəldi", "qalxdı" və "üzərində qərar tutdu" olur. Allahın "əl-İstiva" sifətilə əlaqədar sələfdən rəvayət olunan əsərlərin hamısı bu mənalara dəlalət edir. Tabiinlərin təfsir imamlarından olan Mücahid və Əbul-Aliyə də "istəva"nın bu mənada olduğu demişdir (Buxari 9/124, səh.1276). Maliki alimlərindən İbn Əbdülbər demişdir: "«Əl-İstiva»nın mənası "yüksəklikdə qərar tutmaq" deməkdir. Uca Allah buyurur: «*Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu*» (Hud: 44)" (İbn Əbdülbər "ət-Təmhid" 7/131).

“istəva” ləfzinin “alə” ön qoşması ilə birlikdə işlənməsinə rəğmən məhz “hökmü altına almaq” mənasını verdiyini irəli sürmüşlər.

قَدِ اسْتَوَى بِشْرٌ عَلَى الْعِرَاقِ ............. مِنْ غَيْرِ سَيْفٍ وَدَمٍ مُهْرَاقٍ

“Bişr İraqa istəva etdi (yəni oranı hökmü altına aldı),
Qılıncsız və qan axıtmadan”.

***Bu iddiaya bir neçə yöndən cavab vermək olar:***
***Birincisi:*** Dəlil olaraq gətirilən beyt müəllifinə nisbət olunması belə səhih olmayan qondarma şeirdir. İddia edilir ki, bu beytin sahibi Axtal adlı xaçpərəst bir şairdir. Lakin onun şeir divanı içərisində bu beytə rast gəlinmir. Bu beyti ona əsasən mötəzilələr nisbət etmiş və daha sonra gələnlər də bunu məhz onlardan əxz etmişlər.
***İkincisi:*** Sələfdən heç kəs “istəva” kəlməsinə bu mənanı verməmişdir. Əgər ərəb dilində bu kəlmənin belə bir mənası olsaydı, o zaman bu sələfdən nəql olunardı. Onlardan nəql olunan isə bunun tam əksidir. Belə ki, onların hamısından nəql olunan bu kəlmənin “ucalmaq” mənasında olduğu yönündədir. İndi isə sual olunur: Biz bu kəlmənin mənasını haradan götürməliyik? Saleh sələflərimizin əsərlərindən, yoxsa xaçpərəst müəllifinə belə nisbəti sabit olmayan bir beytdən?
***Üçüncüsü:*** Məlumdur ki, Mötəzilə məzhəbi, əşarilər və onların izi ilə gedənlər “əhəd hədislər etiqad məsələlərində dəlil sayılmaz” deyirlər. Yəni Peyğəmbərin ﷺ səhih hədislərini etiqadi məsələlərdə dəlil saymırlar və deyirlər ki, hədisin sənədi səhih olsa da, hədisi rəvayət edən ravilər etibarlı olsa da, onlar fərd olaraq xəta etməkdən hali deyillər və beləcə, hədislərin nəqlində xəta edə bilərlər ehtimalı ilə səhih olan hədisləri qəbul etməmiş və Uca Allahın ad və sifətlərinə dəlalət edən yüzlərlə hədisləri rədd etmişlər. Bütün bunların müqabilində isə heç bir sənədi olmayan, kim tərəfindən nəql olunduğu bilinməyən və müəllifi nəsrani olan birinin sözü qəbul edilir və bunun əksinə dəlalət edən Peyğəmbər

ﷺ hədisləri və sələfdən nəql olunmuş əsərlər bir kənara atılır. Bu nə dindir, nə ağıldır?!

• Müəllifin ***“və mülkü Öz hökmü altına aldı”*** sözü Allahın “əl-İstiva” sifətini inkar edənlərə və “istəva” ləfzini “hökmü altına aldı” kimi mənalara yozanlara bir cavabdır. Çünki burada müəllif “istəva” (yüksəlmək) ilə “ihtəva” (hökmü altına almaq) ləfzlərini bir-birindən ayırmış və “istəva”nı Ərşə, “ihtəva”nı isə mülkə, yəni bütün varlıqlara nisbət etmişdir. Müəllif demək istəyir ki, bütün mülk, var olan hər şey Uca Allahın hökmü altındadır. O hər şeyin hakimi, sahibidir, tək Ərşin yox. Əgər “istəva” ləfzinin mənası “hökmü altına aldı” olsaydı, o zaman belə çıxır ki, Allahın hökmü altına aldığı varlıq yalnız Ərşdir. Axı Uca Allah məhz Ərşə istəva etmiş və istəvanı məhz Ərşlə xüsusiləşdirmişdir! Həmçinin Uca Allah bildirmişdir ki, Onun Ərşə “istəva”sı məhz göyləri və yeri yaratdıqdan sonra olmuşdur: *“Şübhəsiz ki, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır”.*[138] O zaman belə çıxır ki, göylərin və yerin yaradılışından öncə Ərş Allahın hökmü altında deyildi? Məgər belə bir şeyi müsəlman dilinə gətirə bilərmi?

---

[138] Yunus: 3

🕮 **Ən gözəl adlar və ən uca sifətlər məhz Ona məxsusdur. Onun bütün ad və sifətləri əzəlidir. O, ad və sifətlərinin sonradan əmələ gəlməsindən və yaradılmasından bəridir və Ucadır.**

✍ Bu yerəcən müəllifin yazdığı hər sətir Uca Allahın ad və sifətləri barədə idi. O səbəbdən də, müəllif buracan yazdıqlarını müxtəsərləşdirərək Allahın ad və sifətləri barədə bəzi mühüm olan qaydalara toxunur. Bu sahənin əsas olaraq üç mövzusu var:

- Allahın adları;
- Allahın sifətləri, yəni vəsfləri;
- İxbar, yəni xəbər vermə yönü ilə Allah barədə deyilənlər.

● ***“Ən gözəl adlar Ona məxsusdur”***.

Uca Allah buyurur: *“Ən gözəl adlar Allahındır. Ona bu adlar ilə dua edin”*[139]; *“De: «İstər Allah deyib çağırın, istərsə də Rəhman deyib çağırın. Necə çağırsanız da, hər halda ən gözəl adlar Ona məxsusdur»”.*[140] Bilmək lazımdır ki, Uca Allahın adları sadəcə olaraq “gözəl” (الحَسَن) deyil, əksinə, “ən gözəl”dir (الحُسْنَى). Çünki bu adlar aləmlərin Rəbbi olan Uca Allahın adlarıdır və ən kamil vəsfləri özündə ehtiva edən adlardır. Yəni Allahın adları Onun Uca Zatına dəlalət etməsi baxımından “xüsusi isimlər” sayılmaqla yanaşı, həm də xüsusi mənalara, vəsflərə dəlalət edir. Misal olaraq, القدير “əl-Qadir” Onun ismi, qütrət isə Onun vəsfidir. Yəni Allahın “əl-Qadir” ismi Onun qüdrət vəsfini özündə ehtiva edir. Əhli-Sünnət Mötəzilə kimi “Allah «qüdrət» vəsfi olmadan «əl-Qadir», «yaxınlıq» sifəti olmadan «əl-Qarib»dir” demir və onlar kimi Allahın isimlərinin ləfzlərini isbat edib, mənalarını və dəlalət etdiyi vəsflərini inkar etmirlər. Həmçinin bilmək lazımdır ki, Uca Allahın adları tövqifidir, ictihadi deyildir. Yəni biz öz ictihadımız ilə Allahu Təala üçün adlar təyin edə bilmərik. Allah Özünü Kitabında və Peyğəmbəri ﷺ də Rəbbini səhih hədislərində hansı

---

[139] Əl-Əraf: 180
[140] Əl-İsra: 110

adlarla adlandırıbsa, biz də Onu həmin adlarla adlandırmalıyıq. Yuxarıda da qeyd etdiyim kimi, Allahın bütün adları həm də Onun sifətlərinə dəlalət edir, lakin bilmək lazımdır ki, Onun hər sifəti – vəsfi Onun isminə dəlalət etməz. Yəni Allahın vəsflərindən Onun üçün adlar düzəldilməz. Məsələn, Allahın البصير "əl-Basir" ismi Onun "görmək" sifətinə dəlalət edər, lakin Onun "kəlam" sifətindən Allah üçün المتكلم "əl-Mütəkəllim" (danışan) ismi düzəldilməz. Bəli, Allahın kəlam sifəti var və Allah danışır, lakin Onun "əl-Mütəkəllim" ismi yoxdur, çünki O Özünü bu adla adlandırmamışdır. Onu da qeyd edək ki, Allahın adları müəyyən bir say ilə məhdudlaşmır. Belə ki, Peyğəmbər ﷺ dualarının birində demişdir: *"Allahım! Özünü adlandırdığın və ya Kitabında nazil etdiyin, yaxud yaratdıqlarından kiməsə öyrətdiyin, yaxud da Öz yanında qeyb elmində gizli saxladığın hər bir adınla Səndən diləyirəm ki, Quranı qəlbimin baharı və köksümün nuru et!"*[141] Lakin bu adlar içərisində doxsan doqquz ad vardır ki, Uca Allah bu adları öyrənən, ehtiva etdiyi mənalarına iman edən və bu adları sayaraq Rəbbini zikr edən kəslərə Cənnəti vəd etmişdir. Peyğəmbər ﷺ demişdir: *"Allahın yüzdən bir əksik – doxsan doqquz adı vardır ki, bu adları sayanlar Cənnətə daxil olar".*[142] Bu adların hansı adlar olduğu barəsində alimlər ictihad etmiş, əksəriyyəti üzərində ittifaq etdikləri halda, bəzi adların təyinində ixtilaf etmişlər.

• ***"Ən uca sifətlər məhz Ona məxsusdur".***

Uca Allahın bütün sifətləri kamil vəsflərdir və Onun vəsflərində heç bir qüsur, eyib və naqislik yoxdur. *"Ən uca vəsf Allaha*

---

[141] Əhməd (3712), İbn Hibbən (972), Əlbani səhih olduğunu qeyd edir, "əs-Səhiha" (199)

[142] Buxari (7392) və Müslim (2677). Bu hədis Allahın adlarının müəyyən bir ədədlə məhdudlaşdığına dəlalət etmir. Məsələn, mən deyirəm ki, müəllimin tələbələr üçün ayırdığı doxsan doqquz kitabı var. Yaxud cibimdə sədəqə üçün ayırdığım doxsan doqquz manat var. Bu o demək deyil ki, müəllimin bundan başqa kitabları yoxdur, yaxud mənim cibimdə doxsan doqquz manatdan başqa pul yoxdur.

*məxsusdur".*[143] Allahın sifətləri içərisində özündə hər hansısa bir naqislik ehtiva edən bir vəsfin olması qeyri-mümkündür. Bu cür vəsflərə misal olaraq, ölümü, unutqanlığı, acizliyi, karlığı, korluğu, cahilliyi və s. bu kimi vəsfləri qeyd etmək olar. Uca Allah buyurur: *"Heç vaxt ölməyən, əbədi Yaşayana təvəkkül et!"*[144]; *"Rəbbim nə xəta edir, nə də unudur!"*[145]; *"Göylərdə və yerdə Allahı aciz hala salacaq heç bir şey yoxdur"*[146]; *"Onu nə mürgü, nə də yuxu tutar".*[147] Lakin bəzi vəsflər vardır ki, bir yönü ilə kamillik, digər yönü ilə naqislik vəsfi sayılır. Buna misal olaraq, məkr, aldatma, istehza kimi vəsfləri qeyd etmək olar. Belə sifətləri nə mütləq – qeyri-şərtsiz bir şəkildə isbat etmək, nə də inkar etmək düzgün deyil. Belə bir vəziyyətdə məsələyə təfsilatlı şəkildə yanaşmaq lazımdır. Bu cür sifətlər (məkr, istehza və s.) onu edənin müqabilində edildiyi təqdirdə kamillik sifəti sayılır. Çünki bu hal qarşı tərəfin önündə aciz olmadığını göstərir ki, bu da kamillik vəsfidir. Elə bu səbəbdəndir ki, Uca Allah Özünü qeyri-şərtsiz mütləq bir şəkildə bu cür vəsflərlə vəsfləndirməmişdir. Əksinə, bütün bunları onu edənlərin müqabilində zikr etmişdir. Uca Allah buyurur: *"Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır"*[148]; *"Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır"*[149]; *"Onlar möminlərlə qarşılaşdıqda: "Biz iman gətirdik!"– deyirlər, öz şeytanları (yəni azmış dostları) ilə təklikdə qaldıqda isə: "Biz sizinləyik, biz möminlərə yalnız istehza edirik!"– deyirlər. Allah da onlara istehza edər".*[150] Həmçinin bilmək lazımdır ki, Allahın adları tövqifi olduğu kimi, Onun sifətləri də tövqifidir. Yəni Allah Özünü Kitabında və Peyğəmbəri ﷺ də Rəbbini səhih hədislərində

---

[143] Ən-Nəhl: 60
[144] Əl-Furqan: 58
[145] Ta ha: 52
[146] Fatir: 44
[147] Əl-Bəqərə: 255
[148] Əl-Ənfal: 30
[149] Ən-Nisə: 142
[150] Əl-Bəqərə: 14-15

necə vəsf edibsə, biz də Onu o vəsfləri ilə tanıyır və həmin vəsflərlə vəsfləndiririk.

***Uca Allahın sifətləri isbat və inkar yönü ilə iki qismə bölünür:***
- *Sübuti sifətlər:* Yəni həyat, elm, qüdrət, əl, üz və s. kimi Quran və sünnətdə Allah barədə isbat olunan və özündə kamillik ehtiva edən vəsflər;
- *Səlbi sifətlər:* Yəni acizlik, unutqanlıq, yatmaq və s. kimi Quran və sünnətdə Allah haqqında nəfy edilən və özündə naqislik ehtiva edən vəsflər.

***Allah Təalanın sübuti sifətləri iki qismə bölünür:***
- *Zatı sifətlər:* Uca Allahın Zatı ilə qaim – sabit olan və heç vaxt Ondan ayrılmayan sifətlərdir. Həyat, elm, qüdrət, əl, üz sifətləri kimi;
- *Feili sifətlər:* Uca Allahın istəyinə bağlı olan sifətlərdir. İstədikdə edər, istəmədikdə etməz. Ərşin fövqünə ucalması, hər gecənin son üçdə birində ən aşağı qat səmaya enməsi, fərəh, qəzəb sifətləri kimi.

● Cəhmiyyə və Mötəzilə məzhəbinə görə, Allahın ad və sifətləri əzəli deyil. Belə ki, Allah Təala mövcudatı yaratmamışdan öncə yaratmaq, ruzi vermək, görmək, eşitmək və bu kimi sifətlərlə vəsfli deyildi. Yəni Allahın sifətləri sonradan əmələ gəlmədir. Həmçinin Onun adları sonradan icad edilmiş və bəndələri bu adlar ilə Onu adlandırmışdır. Müəllifin ***“Onun bütün ad və sifətləri əzəlidir. O, ad və sifətlərinin sonradan əmələ gəlməsindən və yaradılmasından bəridir və Ucadır”*** sözləri Cəhmiyyə və Mötəzilə məzhəbinə bir cavabdır. Yəni Uca Allah ad və sifətlərinə əzəli olaraq layiqdir. Allahın Zatı əzəli olduğu kimi, Onun ad və sifətləri də əzəlidir. Çünki Onun Zatı barədə nəyə etiqad ediriksə, ad və sifətləri haqqında da eyni şeylərə etiqad edirik. İbn Batta əl-Ukbəri demişdir: “Kim Allahın ad və sifətlərinin sonradan əmələ gəldiyini iddia edərsə, o artıq Uca Allahın məxluq olduğunu və yox ikən sonradan əmələ gəldiyini iddia etmiş olar. Allah zındıq

cəhmilərin Onun barədə dediklərindən bəri və Ucadır”.[151] Allah Təalanın bütün sifətləri özündə heç bir qüsur və naqislik olmayan kamil sifətlərdir. Əgər Allah əzəli olaraq bu sifətlərlə vəsflənmiş olmasaydı, o zaman bu sifətlərlə vəsflənənə qədər naqisliklə vəsflənmiş olacaqdır ki, Allah Təala da bütün naqisliklərdən bəri və Ucadır. Yəni Uca Allah bəndələrin asilikləri ortaya çıxmamışdan öncə bağışlamaq sifəti ilə, məxluqatın varlığından öncə isə yaratmaq sifəti ilə vəsfli idi. O, məxluqatını var edəndən və asiliklər ortaya çıxandan sonra bu sifətlərlə vəsflənmədi. Bütün bunlar müəllifin Allahın ad və sifətləri barədə dediklərinin müxtəsər izahı idi. Yuxarıda da qeyd etdiyim kimi, bu sahənin əsas olaraq üç mövzusu var. İkisi barədə artıq danışdıq. Üçüncü mövzu isə ixbar – xəbər vermə yönü ilə Allah barədə istifadə edilən ləfzlərdir. Yəni Uca Allah barədə xəbər verərkən istifadə olunan kəlmə və ifadələrdir. Allah Təala barədə “şəxs”, “varlıq”, “mövcud”, “Öz Zatı ilə qaim” və s. kəlmə və ifadələrin işlədilməsi kimi. Bütün bunlar Onun adı və ya sifəti deyil. Lakin ehtiyac olduğu təqdirdə istifadə edilə bilər. İxbar yönü ilə Allah barədə istifadə edilən kəlmə və ifadələrin Quran və sünnətdə varid olması şərt deyil. Çünki ixbar mövzusu ad və sifətlər kimi tövqifi bir mövzu deyil. Bu məsələdə əsas olan Allah Təala haqqında işlədilən bu növ ifadələrin mənasının özündə hər hansısa bir naqisliyi ehtiva etməməsidir. Uca Allah buyurur: *“Əkdiyinizi gördünüzmü? Onu siz bitirirsiniz, yoxsa Biz bitiririk?”*[152] Məsələn, bu ayəyə əsasən, Allah barədə “əkinçi” deyilə bilməz. Çünki Allahın nə “əkinçi” adı var, nə də “becərmək” sifəti. Bu sadəcə olaraq, Uca Allahın feillərindən bir feildir. Allah Təalanın hər feilindən isə Onun üçün ad, yaxud sifət təyin etmək icazəli deyil. Çünki Allah Özü Özünü adlandırdığı addan başqası ilə adlanmaz və Özünü vəsf etdiyi vəsfdən başqası ilə də vəsf edilməz. Lakin Uca Allahın hər hansısa bir feili barədə xəbər vermə yönü ilə bu cür ifadələr istifadə oluna bilər. Misal üçün, Uca Allahın feillərindən “peyğəmbərlər göndərməsi” və “kitablar nazil

[151] “Əl-İbanə” 1/213.
[152] Əl-Vaqiə: 64-65

etməsi”dir. Lakin Allah haqqında “göndərən” və ya “nazil edən” kimi bir ad və ya sifət təyin etmək icazəli deyil. Deməli, Uca Allah barədə xəbər vermə yönü ilə istifadə edilən hər kəlmə Allahın adı və ya sifəti olmadığı kimi, hər sifətindən də Onun üçün ad təyin edilməz. Lakin Allahın hər adı onun bir və ya bir neçə sifətinə dəlalət etdiyi kimi, Onun sifətləri barədə də xəbər vermə yönü ilə danışmaq olar. Nəticə olaraq, bu üç mövzu içərisində çərçivəsi ən geniş olan mövzu ixbar mövzusu, çərçivəsi ən dar olanı isə adlar mövzusudur.

🕮 **O, Musa ﷺ ilə Özünün zatı sifəti olan və məxluq olmayan kəlamı ilə danışdı. O, dağa təcəlli etdi və dağ Onun Cəlalından parça-parça oldu. Həqiqətən də, Quran Allahın kəlamıdır. O nə məxluq deyil ki, sonu gəlib bitsin, nə də hər hansı bir məxluqun sifəti deyil ki, yox olub tükənsin.**

✍ Müəllif bu sözləri ilə Quranın Allahın kəlamı olduğunu inkar edən Cəhmiyyə firqəsinə cavab verir. Belə ki, onlar Allahın həqiqi bir şəkildə danışdığını inkar etmiş və demişlər ki, Allahın kəlam sifəti yoxdur. Uca Allah rəsullarından kiməsə xitab etmək istədikdə, xitab etmək istədiyi kəlamı yaradır və onu o elçisinə eşitdirir və nəticədə "Allahın kəlamı" dediyimiz məfhum Onun yaratdığı bir məxluq olur. Həmin yaradılmış kəlamın Allaha nisbət edilərək "Allahın kəlamı" adlandırılması isə məcazi mənadadır və məscidlərə "Allahın evi", Salehin ﷺ dəvəsinə "Allahın dəvəsi" deyildiyi kimi, bu yaradılmış kəlama da "Allahın kəlamı" deyilir. Məscidlər həqiqi mənada Allahın evi olmadığı kimi, sonradan yaradılmış bu kəlam da həqiqi mənada Allahın kəlamı sayılmaz. Bu fikri ilk dəfə Cəhm ibn Səfvan və Cəd ibn Dirhəm kimi zəlalət imamları ortaya atmış və daha sonra isə bu zəlalət və bidətlərində mötəzilə və şiələr onlara tabe olmuşlar.

• ***"O, Musa ﷺ ilə Özünün zatı sifəti olan və məxluq olmayan kəlamı ilə danışdı".***

Uca Allah buyurur: "*Allah Musa ilə sözlə danışdı*"[153]; "*Musa təyin etdiyimiz vaxtda gəlib, Rəbbi onunla danışınca...*".[154] Müəllifin də qeyd etdiyi kimi, kəlam sifəti əsli etibari ilə Uca Allahın zatı sifətlərindəndir. Çünki bu sifət Allahın Zatı ilə qaim – sabit olan bir sifətdir və heç vaxt Ondan ayrılmamışdır. Allahın kəlamı Onun şəninə layiq, həqiqi bir sifətdir. Uca Allah əzəli və əbədi olaraq kəlam sifəti ilə vəsflidir. Onun kəlamının bir başlanğıcı olmadığı kimi, sonu da yoxdur. Digər yönü ilə kəlam sifəti feili sifətlərdən

---

[153] Ən-Nisə: 164
[154] Əl-Əraf: 143

sayılır. Çünki Allahın kəlamı Onun iradəsinə bağlıdır[155] və istədiyi vaxt, istədiyi formada, istədiyi dildə, hərf[156] və səslə[157] danışır. Ümumiyyətlə, kəlam sifəti ilə vəsf edilmək kamillik, əksi isə naqislik sifətlərindən sayılır. Belə ki, Uca Allah müşriklərin ilahlarının batil olduğunu isbat etməkdən ötrü onların danışa bilmədiklərini, kəlam sifətindən yoxsul olduqlarını dəlil olaraq qeyd edir və belə buyurur: *"Musanın ardınca qövmü zinət əşyalarından böyürən bir buzov heykəli düzəltdilər. Məgər bu heykəlin onlarla danışmadığını, onlara düz yol göstərmədiyini görmədilərmi?"*[158] Elə atamız İbrahim ﷺ də bu hüccət ilə qövmünün qarşısına çıxmışdı: *"İbrahim dedi: «Xeyr, bunu o bütlərin böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun»...Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: «Axı sən bilirsən ki, bunlar danışmırlar»".*[159] Deməli, bütlərin danışa bilməməsi onların həqiqi ilah olmadıqlarına dəlil təşkil edən bir naqislik sayılır. Elə bu səbəbdən bəzi alimlər Allahın kəlam sifətini inkar edən bidətçiləri bu yöndən bütlərə ibadət edən və öz məbudlarının danışmaqdan aciz olduqlarını iqrar edən müşriklərə bənzətmişdir. Fikir verin, müəllif burada ***"O,***

---

[155] *"Bir şeyi yaratmaq istədikdə ona əmri təkcə "ol!" deməkdir, o da həmən olar"* (Yasin: 82), – ayəsi kəlam sifətinin Allahın istəyinə bağlı olan feili sifətlərindən olduğunun dəlilidir. Çünki Uca Allahın "ol!" əmri Onun kəlamındandır və məhz Onun istəyinə bağlıdır.

[156] *"Bu Quran açıq-aydın ərəb dilində nazil edildi"* (Əş-Şuəra: 195). Bu ayə Allahın kəlamının hərflərdən ibarət olduğunun dəlilidir. Çünki Quran ərəb dilində nazil olmuşdur və ərəb dili də hərflərdən ibarətdir.

[157] Uca Allah Tur dağında Musaya ﷺ xitabən demişdir: *"Mən səni seçmişəm. Sənə vəhy olunanı dinlə!"* (Ta ha: 13). Bu ayə isə Allahın kəlamının səslərdən ibarət olduğunun açıq bir dəlilidir. Çünki eşidilən və dinlənilməsi əmr edilən yalnız və yalnız səsdir. *"O zaman Rəbbi onu müqəddəs Tuva vadisində səslənmişdi"* (Ən-Nəziət: 16). "Səslənmək" yalnız səs ilə mümkündür. Şeyx Əbdülqadir əl-Ceylani demişdir: "İmam Əhmədin əshabından bir dəstənin ondan rəvayət etdiklərinə əsasən, o (yəni imam Əhməd) Allahın kəlamında səsin olduğunu qeyd etmişdir. Bu, "Allahın kəlamı Öz nəfsində qaim olan mənadır", – deyən əşarilərə müxalif bir sözdür. Allah hər bir zəlalət əhli olan və insanları azdıran bidətçidən hesab soruşacaqdır..." ("əl-Ğunyə" 1/131).

[158] Əl-Əraf: 148

[159] Əl-Ənbiya: 63 və 65

***Musa* ﷺ *ilə Özünün zatı sifəti olan kəlamı ilə danışdı”*** deməklə kifayətlənməmiş və ***“məxluq olmayan kəlamı ilə danışdı”*** əlavəsini etmişdir. Bu çox önəmli bir qeyddir. Düzdür, əsli etibari ilə bəlkə də bu qeydi qoymağa ehtiyac yoxdur. Çünki “Allahın kəlamı” dedikdə onsuzda bu ibarədən başa düşülən məna “Allahın həqiqi kəlamı”dır. Lakin bəzi hiyləgər bidətçilər ortaya çıxıb “biz də Quranın Allahın kəlamı olduğunu deyirik”, – deyib, bununla da məcazi mənanı qəsd etdiklərindən dolayı, Əhli-sünnət alimləri onların bu hiylələrinin önünü kəsmək üçün “Quran Alahın kəlamıdır” ibarəsinə “və məxluq deyildir” ibarəsini də əlavə etmişlər. Mötəzilə firqəsi iddia etmişdir ki, Uca Allah Musa ﷺ ilə danışarkən ağac vasitəsi ilə danışmışdır. Yəni Allah Musaya xitab etmək istədiyi sözü ağacda yaratmış və Musa ﷺ da Rəbbi tərəfindən xəlq olunmuş o kəlamı eşitmişdir. Dəlilləri isə *“Musa oraya gəlib çatdıqda mübarək yerdəki vadinin sağ tərəfindəki ağacdan ona nida gəldi”*[160] ayəsidir. Uca Allah kəlamını ağacda yaratmamışdır. Sadəcə olaraq, Musa ﷺ peyğəmbərə edilən səsləniş vadinin sağ tərəfindən, ağacdan, yaxud ağac yaxınlığından olmuşdur. Necə ki “mən evdən Zeydin səsini eşitdim” dedikdə bu ibarədəki “evdən” kəlməsi səsin çıxış nöqtəsini ifadə edər, evin danışdığını deyil. Əgər kəlam ağacda yaradılmış olsaydı, o zaman *“Ey Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!”*[161]; *“Həqiqətən, Mən Allaham. Məndən başqa haqq məbud yoxdur. Mənə ibadət et!”*[162] sözlərini söyləyənin də ağac olması labüd olardı. Məgər aləmlərin Rəbbindən başqa kiminsə belə bir sözü deməyə haqqı çatırmı?! Həmçinin Musa ﷺ eşitdiyi səsə xitabən *"Ey Rəbbim!”*[163] deyə müraciət etdi. Məgər bir peyğəmbərin aləmlərin Rəbbi olan Allahdan qeyrisinə, hər hansısa bir məxluqa xitabən bu cür səslənməsi mümkündürmü?! Bütün bunlar açıq bir şəkildə onu göstərir ki, Uca Allah qulu və elçisi Musa ﷺ ilə arada heç bir vasitəçi olmadan birbaşa danışmışdır. Həmçinin məlumdur ki, Uca

---

[160] Əl-Qasas: 30
[161] Əl-Qasas: 30
[162] Ta ha: 14
[163] Əl-Qasas: 33

Allah bir şeyi yaratmaq istədikdə ona əmri yalnız *"ol!"* deməkdir.[164] Allahın *"ol!"* əmri də Onun kəlamıdır. O zaman elə çıxır ki, həmin *"ol!"* kəlamını xəlq etməsi üçün ayrıca bir *"ol!"* əmri də lazımdır, həmin *"ol!"* əmri üçün də ayrıca bir *"ol!"* əmri. Bu isə təsəlsül sayılır.[165] Təsəlsül də bütün İslam alimlərinin ittifaqı ilə batildir. Elə bu səbəbdən də Uca Allah *"yaratmaq da, əmr etmək də Ona məxsusdur"*[166] deyərək, yaratmaq ilə əmr etməyi bir-birdən ayırmışdır.[167] Çünki Allahın əmri Onun kəlamıdır və yaradılmamışdır.

- ***"O, dağa təcəlli etdi və dağ Onun Cəlalından parça-parça oldu".***

Burada müəllif Uca Allahın "ət-təcəlli", yəni "görünmə" sifətindən bəhs edir.[168] Uca Allah buyurur: *"Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. Musa dedi: «Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım». O dedi: «Sən məni görə bilməzsən. Lakin bu dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən». Rəbbi dağa təcəlli etdikdə – göründükdə onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: «Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm! »"*[169] Bu ayə dəlildir ki, Uca Allahın görünməsi mümkünsüz bir şey deyil. Çünki O, dağa görünmüşdür. Görünməsi mümkün olan bir varlığın danışması necə mümkünsüz ola bilər?! Elə bu səbəbdən də Mötəzilə məzhəbi hər iki məsələni də Allah barədə mümkünsüz saymışdır.

---

[164] *"Bir şeyi yaratmaq istədikdə ona əmri təkcə "ol!" deməkdir, o da həmən olar"* (Yasin: 82).
[165] Təsəlsül – sonu gəlməyən bir formada işlərin sıralanmasına deyilir (Bax! əl-Curcəni "ət-Tərifət" səh. 57).
[166] Əl-Əraf: 54
[167] Əgər "əmr" də yaradılmış olsaydı, yuxarıda da qeyd edildiyi kimi təsəlsül ortaya çıxardı.
[168] Bu barədə irəlidəki səhifələrdə geniş məlumat veriləcəkdir.
[169] Əl-Əraf: 143

• ***“Həqiqətən də, Quran Allahın kəlamıdır”.***

Quran məcazi mənada yox, həqiqi mənada Uca Allahın kəlamıdır. Ondan gəlmiş və Ona da dönəcəkdir. Məxluq deyildir. [170] İnsanların Qurani-Kərimi oxuyub, səhifələr üzərində yazmaları onu Allahın kəlamı olmaqdan çıxarmaz. Çünki ləfzi və mənası ilə onu kəlam olaraq söyləyən Allahdır. Bəndələr isə Quranı oxuduqları təqdirdə, öz səsləri ilə oxumuş olurlar. Yəni Quranı oxuyan kəsin qiraətində eşidilən kəlam Allahın sözüdür, oxuyanın sözü deyildir. Onu oxuyan şəxs isə onu məxluq – yaradılmış olan səsi ilə oxumuş olur.

• ***“O nə məxluq deyil ki, sonu gəlib bitsin, nə də hər hansı bir məxluqun sifəti deyil ki, yox olub tükənsin”.***

Uca Allah buyurur: *“Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də mürəkkəb olub ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir”.* [171] Bu ayə Uca Allahın kəlam sifətini isbat edən ayələrdəndir. Onun kəlamının nə əvvəli, nə də sonu vardır. Yer üzündəki bütün ağaclar qələm, dənizlər isə mürəkkəb olsaydı, yenə də Allahın sözləri yazılmaqla bitməz, ağaclar və mürəkkəb olan dənizlər isə tükənərdi. Çünki bütün bunların hamısı məxluqdur və məhdud saydadır. Allahın kəlamı isə məhdudsuzdur və məxluq deyildir.

---

[170] Uca Allah buyurur: *“Mərhəmətli Allah Quranı öyrətdi. İnsanı yaratdı*” (ər-Rəhman: 1-3). Fikir verin, Allah Təala “Mərhəmətli Allah Quranı və insanı yaratdı” demədi. Əksinə, “öyrətmək” ilə “yaratmağ”ı bir-birindən ayırdı və öyrətməni Qurana, yaratmanı isə insana aid elədi.

[171] Loğman: 27

📖 **Qədərin xeyrinə və şərinə, acısına və şirininə iman etmək vacibdir. Bütün bunları Rəbbimiz olan Allah təqdir etmişdir. Bütün işlərin qədəri – ölçüsü Allahın əlindədir və Onun əzəli hökmünə bağlıdır. O hər şeyi var olmamışdan öncə bilirdi və hər bir şey Onun təqdir etdiyi ölçüdə baş verdi. Bəndələrin dedikləri elə bir söz və ya etdikləri elə bir əməl yoxdur ki, Allah onu əzəldən bilməsin və təqdir etməsin. *“Yaradan Allah Lətif və hər şeydən Xəbərdar olduğu halda, ola bilərmi ki, O, öz yaratdığından bixəbər olsun?”* (əl-Mülk: 14). O, istədiyi kəsi azdırar və Öz ədaləti ilə onu rəzil edər. İstədiyi kimsəni də doğru yola yönəldər və Öz lütfü ilə onu xeyirə müvəffəq edər. Bir sözlə, hər kəs Onun izni və müvəffəqiyyəti ilə xoşbəxt və ya bədbəxt olacağına dair özü üçün öncədən təqdir edilmiş şeyə müyəssər olar. O, mülkündə Onun istəmədiyi bir şeyin baş verməsindən və ya kiminsə Ona ehtiyacsız olmasından bəridir və Ucadır. Hər şeyin Yaradıcısı Odur. O həm bəndələrin, həm də onların əməllərinin Rəbbidir. Onların hərəkətlərini və əcəllərini təqdir edən də Odur.**

✍ Müəllif burada “qədərə iman” haqqında danışır və qədərə imanın dörd mərhələsini qeyd edir. Ümumiyyətlə, müəllifin də qeyd etdiyi kimi ***“qədərin xeyrinə və şərinə, acısına və şirininə iman etmək vacibdir”.*** Çünki ***“bütün bunları Rəbbimiz olan Allah təqdir etmişdir”.*** Bəndəyə vacib olan isə Rəbbinin onun üçün təqdir etdiyi hər şeyə razı olmasıdır. Çünki Allah bəndələrindən heç kəsə zülm etməz. O, Ədalətlidir və sonsuz hikmət sahibidir. Məşhur “Cəbrail” hədisində qeyd edildiyi kimi, imanın altı rüknündən biri də qədərə iman etməkdir. Qədərə imanın isə dörd rüknü və ya dörd mərhələsi, yaxud dörd mərtəbəsi vardır:

**1.** *<u>Elm</u>:* Uca Allahın hal-hazırda var olan və gələcəkdə var olacaq hər şeyi var olmamışdan öncə, yaxud var olması mümkün olmayan, yaxud mümkün olub da var olmayan şeyləri hər bir xırdalığınacan bilməsinə iman etmək. Yəni Uca Allahın elmindən kənar heç bir şey yoxdur. Hər şey Onun elmi

daxilindədir. Müəllifin də qeyd etdiyi kimi, ***"O hər şeyi var olmamışdan öncə bilirdi"; "Bəndələrin dedikləri elə bir söz və ya etdikləri elə bir əməl yoxdur ki, Allah onu əzəldən bilməsin".*** Uca Allah buyurur: *"Yaradan Allah Lətif və hər şeydən Xəbərdar olduğu halda, ola bilərmi ki, O, öz yaratdığından bixəbər olsun?"*[172]*; "O, məxluqatın gələcəyini və keçmişini bilir"*[173] *"Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz"*[174]*; "Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur"*[175]*; "O, elm ilə hər şeyi əhatə edir".*[176]

**2.** <u>*Yazı*</u>: Qiyamət gününəcən var olacaq hər şeyin Lövhi-məhfuzda yazılmasına iman etmək. Müəllifin də qeyd etdiyi kimi, ***"Bütün bunları Rəbbimiz olan Allah təqdir etmişdir, yəni yazmışdır"; "Bəndələrin dedikləri elə bir söz və ya etdikləri elə bir əməl yoxdur ki, Allah onu əzəldən bilməsin və təqdir etməsin".*** Uca Allah buyurur: *"Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, Yazıda (Lövhi-məhfuzda) mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır"*[177]*; "Onun xəbəri olmadan bir yarpaq belə yerə düşməz. Yerin qaranlıqlarında elə bir toxum, yaş və quru elə bir şey yoxdur ki, aydın bir Kitabda (Lövhi-məhfuzda) olmasın".*[178]*; "De: Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz".*[179] Peyğəmbər ﷺ demişdir: *"Allah məxluqatın qədərini – taleyini göyləri və yeri yaratmadan əlli min il önçə yazmışdır"*[180]*; "Allah Qələmi ilk yaratdıqda ona «yaz!» deyə əmr etdi. O da «nəyi yazım, ey Rəbbim?» deyə soruşduqda, Allah buyurdu: «Qiyamət*

---

[172] Əl-Mülk: 14
[173] Əl-Bəqərə: 255
[174] Yunus: 61
[175] Əl-Ənam: 59
[176] Ta ha: 98
[177] Əl-Həcc: 70
[178] Əl-Ənam: 59
[179] Ət-Tövbə: 51
[180] Müslim (2653)

*gününəcən olacaq hər şeyin qədərini yaz! »*”[181] Abdullah ibn Abbas ﵁ deyir ki, bir gün (minik üzərində) Peyğəmbərin ﷺ arxasında idim. O dedi: *“Ey oğul, sənə bir neçə kəlimə öyrədəcəm: Allahı qoru ki,*[182] *Allah da səni qorusun. Allahı qoru ki, Onu daima öz qarşında tapasan. Bir şey dilədikdə, Allahdan dilə. Kömək istədikdə, Allahdan kömək istə. Bil ki, əgər bütün insanlar sənə xeyir vermək üçün bir yerə toplansalar belə, Allahın sənin üçün əzəldən təqdir etdiyindən başqa sənə heç bir xeyir verə bilməzlər. Əgər sənə zərər vermək üçün bir yerə toplansalar, yenə də Allahın sənin üçün əzəldən təqdir etdiyindən savayı sənə heç bir zərər toxundura bilməzlər. Çünki artıq qələmlər qaldırılmış və səhifələrin mürəkkəbi qurumuşdur”.*[183]

3. *__İradə__:* Varlıq aləmində baş verən hər şey, o cümlədən də bəndələrin əməlləri Uca Allahın istəyinə bağlıdır. Allahın mülkündə Onun istədiyindən başqası olmadığı kimi, Onun istəmədiyi bir şeyin olması da mümkün deyildir. Müəllifin də qeyd etdiyi kimi, ***“O, mülkündə Onun istəmədiyi bir şeyin baş verməsindən və ya kiminsə Ona ehtiyacsız olmasından bəridir və Ucadır”.*** Uca Allah buyurur: *“O, aləmlər (bütün insanlar və cinlər) üçün ancaq bir öyüd-nəsihətdir. Eləcə də sizlərdən doğru yolda olmaq istəyənlər üçün. (Onu da bilin ki) aləmlərin Rəbbi Allah istəməyincə, siz (bunu) istəyə bilməzsiniz!”*[184]; *“Həqiqətən, bu bir ibrətdir. İstəyən, Rəbbinə doğru aparan bir yol tutar. Amma Allah istəməyincə, siz də istəyə bilməzsiniz! Həqiqətən, Allah Biləndir, Müdrikdir! O, istədiyini Öz mərhəmətinə nail edər”*[185]; *“Xeyr! Bu Quran bir nəsihətdir. İstəyən ondan öyüd alar. Bununla belə, Allah istəməsə, onlar əsla öyüd ala bilməzlər.”*[186]

---

[181] Əbu Davud (4700), Əlbani “Səhihul-cəmi” (2018)
[182] Burada “Allahı qoru” ifadəsi “Allahın əmr və qadağanları qoru” mənasındadır.
[183] Tirmizi (2516), Əlbani “Səhihul-cəmi” (7834)
[184] Ət-Təkvir: 27-29
[185] Əl-İnsan: 29-31
[186] Əl-Muddəssir: 54-56

***Uca Allahın iradəsi iki qismə bölünür:***

- *Kövni iradə:* Allahın istəyi mənasında olan kövni – qədəri iradə Onun sevib-sevmədiyi, razı qalıb-qalmadığı hər şeyi ehtiva edir və həyata keçməsi də mütləqdir. Misal olaraq, "günəş Allahın istəyi ilə doğar və batar", "Onun istəyi olmadan ağacdan bir yarpaq belə yerə düşməz" ifadələrində olduğu kimi. Yəni Uca Allah günəşin doğmasını və batmasını istədiyi halda, onun doğub-batmaması mümkün deyil. Uca Allah buyurur: *"Əgər Allah sizi azdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm belə, nəsihətim sizə fayda verməz".*[187]
- *Şəri iradə:* Allahın məhəbbəti mənasında olan şəri iradə Onun sevdiyi və razı qaldığı şeylərə aiddir və həyata keçməsi də mütləq deyildir. Misal olaraq, "Allah bəndələrinin Özünə ibadət etməsini istəyir" ifadəsində olduğu kimi. Uca Allah istəsə də, lakin insanların əksəriyyəti Ona ibadət etmir. Deməli, bu iradənin baş tutması vacib deyil. Çünki bu iradə Allahın məhəbbəti mənasında olan bir iradədir. Uca Allah buyurur: *"Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz".*[188]

**4.** <u>Yaratma</u>*:* Göylərdə və yerdə – varlıq aləmində var olan canlı-cansız hər şeyi xəlq edən Allahdır. İnsanları və onların əməllərini də yaradan Allahdır. Bu aləmdə Uca Allahdan başqa Xaliq yoxdur. Ondan qeyri var olan hər şey isə Onun yaratdıqlarıdır. Müəllifin də qeyd etdiyi kimi, ***"Hər şeyin Yaradıcısı Odur. O həm bəndələrin, həm də onların əməllərinin Rəbbidir".*** Uca Allah buyurur: *"Allah hər şeyin Xaliqidir"* [189] *;"Sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır"*[190] *; "Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, <u>Biz onu yaratmamışdan əvvəl</u> o,*

[187] Hud: 34
[188] Əl-Maidə: 6
[189] Əz-Zumər: 62
[190] Əs-Saffat: 96

*Kitabda (Lövhi-məhfuzda) olmasın".* [191] Sual olunsa ki, "bəndənin əməlini Allah yaratdığı halda, necə olur ki, o əməlin sahibi insan sayılır və o əməl insanın özünə nisbət edilir?" cavabımız belə olar: İnsanın hər bir əməli iki əsas üzərində qurulur. Yəni insan hər hansısa bir əməli edərkən bu iki əsas ilə etmiş olur: İnsanın iradəsi və qüdrəti. Belə ki, insan iradəsi və qüdrəti sayəsində danışır, gəzir, durur, oturur və s. Məsələn, insanın danışmağa qüdrəti olmasa, istəsə də, danışa bilməz. Yaxud danışmağa gücü yetdiyi halda, danışmaq istəməsə, danışmaz. Beləcə, feil üçün hər iki amilin də bir arada olması labüddür. Bu yerdə sual olunur: İnsanın əməlinin əsası olan iradəni və qüdrəti ona bəxş edən və yaradan kimdir? Əlbəttə, Allah. Deməli, insanın əməlinin yaradıcısı da Allahdır. Çünki həmin əməlin əsaslarını onda xəlq edən Odur.

Xülasə, qədərə iman bu dörd rükn üzərində qurulub. Yəni. qədərin dörd rüknünə iman etməyənin qədərə imanı kamil sayılmaz. Deməli, hər bir müsəlman iman etməlidir ki, Uca Allah hər şeyi var olmamışdan öncə əzəli elmi ilə bilirdi və bütün məxluqatın qədərini, Qiyamətəcən olacaq hər şeyi göyləri və yeri yaratmamışdan öncə Lövhi-məhfuzda yazdı. Var olan hər şey Uca Allahın istəyi və yaratması ilə olur. Onun mülkündə Onun istəmədiyi və yaratmadığı bir şey ola bilməz. Hər şey aləmlərin Rəbbi olan Allahın elmi, yazısı, iradəsi və yaratması çərçivəsində baş verir. Onun elmindən, iradəsindən və qüdrətindən kənarda bir zərrə belə yoxdur. Var olan hər şey Ona bağlıdır. O hər şeyin Xaliqi, hər şey Onun məxluqudur. O hər şeyin Rəbbi, hər şey Onun quludur.

• Ümumiyyətlə, qədər mövzusu çox geniş bir mövzudur. Bu mövzu ilə əlaqədar hər şeyi burada qeyd etmək həm imkansız, həm də məqsədəuyğun deyil. Müqəddimədə də qeyd etdiyim kimi, kitabın şərhi zamanı məhz müəllifin toxunduğu məsələləri izah etməyə çalışacam. Bu mövzu ilə əlaqədar müəllifin qeyd etdiyi məsələlərdən biri də "hidayət və zəlalət" mövzusudur. Əhli-

---

[191] Əl-Hədid: 22

sünnətin etiqadına görə, hidayət verən və azdıran məhz aləmlərin Rəbbi olan Uca Allahdır. *“Allah istədiyini azdırar, istədiyini isə düz yola yönəldər”.*[192] Var olan hər şey, o cümlədən də bəndələrin iradə və əməlləri Uca Allahın elminə, iradəsinə və qüdrətinə bağlı olduğu halda, necə ola bilər ki, onların azmaları və ya doğru yol üzərində olmaları Allahın istəyinə və qüdrətinə bağlı olmasın?! Uca Allah bəndələri üçün haqq və zəlalət yollarını göstərmiş, xoşbəxtlik və bədbəxtlik cığırlarını bir-birindən ayırmışdır. Bəndələrinə haqqı batildən, əyrini düzdən və ağı qaradan ayırd edə biləcək ağıl, iradə və qüdrət bəxş etmişdir. Kim səadət yolunu seçərsə, bu yol onu xoşbəxtliyə aparar. Səadət yolunu seçməsi isə bəndənin iradəsi ilə baş verər ki, onun iradəsi də Uca Allahın iradəsinə bağlıdır. *“O, aləmlər (bütün insanlar və cinlər) üçün ancaq bir öyüd-nəsihətdir. Eləcə də sizlərdən doğru yolda olmaq istəyənlər üçün. (Onu da bilin ki) aləmlərin Rəbbi Allah istəməyincə, siz (bunu) istəyə bilməzsiniz!”*[193] Bu, Allahın Öz bəndəsini lütfü ilə xeyirə müvəffəq etməsidir. Kim də zəlalət yolunu seçərsə, bu yol onu bədbəxtliyə aparar. Zəlalət yolunu seçməsi isə bəndənin öz iradəsi ilə baş verər ki, onun iradəsi də Uca Allahın iradəsinə bağlıdır. Bu isə Allahın Öz bəndəsini ədaləti ilə rəzil etməsi sayılır. Müəllifin də qeyd etdiyi kimi, ***“O, istədiyi kəsi azdırar və Öz ədaləti ilə onu rəzil edər. İstədiyi kimsəni də doğru yola yönəldər və Öz lütfü ilə onu xeyirə müvəffəq edər. Bir sözlə, hər kəs Onun izni və müvəffəqiyyəti ilə xoşbəxt və ya bədbəxt olacağına dair özü üçün öncədən təqdir edilmiş şeyə müyəssər olar”.*** Müəllifin “hidayət və zəlalət” mövzusunda qeyd etdiyi bu sətirlər mövzu ilə əlaqədar Əhli-sünnətin etiqadının xülasəsidir. Burada əlavə olaraq onu da qeyd edək ki, hidayət iki növdür:

- *“Doğru yolu göstərmək, haqqa çağırmaq” mənasında olan hidayət:* Bu mənada olan hidayət mömin, yaxud kafir olsun fərq etməz, hər kəsə aiddir. Yəni Uca Allah peyğəmbərləri vasitəsi ilə hər kəsə doğru yolu göstərmişdir. *“(Ey Peyğəmbər!)*

---

[192] Əl-Ənam: 39
[193] Ət-Təkvir: 27-29

*Həqiqətən, sən onları hidayət edirsən – doğru yola yönəldirsən".*[194]

- *"Haqqa müvəffəq etmək" mənasında olan hidayət:* Bu mənada olan hidayət yalnız Allaha məxsusdur və məhz O istədiyi bəndəsini haqqa müvəffəq edər. *"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir"*[195]; *"Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır".*[196] "Haqqa müvəffəq etmək" mənasında olan hidayəti Qədəriyyə firqəsi[197] inkar etmişdir. Onlara görə, insan özü özünü hidayət edir. Bu isə yuxarıda qeyd etdiyimiz Quran dəlilləri ilə tam bir ziddiyyət təşkil edir. Uca Allah buyurur: *"Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir".*[198] Fikir verin, Uca Allah bu ayədə hidayətin hər iki növünü də qeyd etmişdir. Ayənin *"Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır"* hissəsi "*haqqa çağırmaq"* mənasında olan hidayət növünə işarədir. Çünki Uca Allah bütün insanları haqqa və Cənnətə aparan yola dəvət edir. Ayənin *"və istədiyini doğru yola yönəldir"* hissəsi isə *"haqqa müvəffəq etmək"* mənasında olan hidayət növünə işarədir.

• İlk öncə müəllif ***"O həm bəndələrin, həm də onların əməllərinin Rəbbidir"*** deyə qeyd edir. Həmən sonra ***"onların hərəkətlərini və əcəllərini təqdir edən də Odur"*** buyurur. Deməli, burada müəllif bəndənin əməlləri ilə hərəkətlərini bir-birindən ayırmışdır. Bu da müəllifin mövzulara son dərəcə diqqətli və dəqiq yanaşmasına dəlalət edir. Çünki bəndənin əməlləri ilə hərəkətləri fərqli-fərqli anlayışlardır. Belə ki, əməl bəndənin öz seçiminə və iradəsinə bağlıdır. Məsələn, "Zeyd namaz qılır, oruc tutur, yeyir,

---

[194] Əş-Şura: 52
[195] Əl-Qasas: 56
[196] Əl-Hucurat: 7
[197] Qədəri inkar edənlər.
[198] Yunus: 25

içir” deyərkən burada Zeydin öz ixtiyarı ilə baş tutan əməllərindən söhbət gedir. Lakin “Zeyd xəstələndi, Zeydin əli əsdi, titrədi” deyərkən burada Zeydin əməllərindən deyil, ixtiyarı xaricində baş verən hərəkətlərindən söhbət gedir. Müəllif demək istəyir ki, fərq etməz, istər bəndənin ixtiyarı ilə baş verən əməlləri olsun, istərsə də digər hərəkətləri, hamısını xəlq edən Allahdır.

• ***“Onların hərəkətlərini və əcəllərini təqdir edən də Odur”.*** Əhli-sünnətin etiqadına görə, bəndənin ölməsi və ya öldürülməsi məhz onun üçün təyin edilmiş əcəl vaxtının gəlib yetişməsi ilə olur. Yəni bu məsələdə ölən ilə öldürülən arasında bir fərq yoxdur. Hər kəs öz əcəli ilə ölür. Bu səbəbdən də “filankəsi öldürüblər, o öz əcəli ilə ölmədi” kimi ifadələrdən çəkinmək lazımdır. Məgər başqası tərəfindən öldürülən öz əcəli ilə ölmüş sayılmır?! Bu məsələdə Mötəzilə firqəsi haqqa müxalif olmuşdur. Onlara görə, öldürülən insanın əcəli həmin qətl sayəsində tamamlanmış olur. Lakin əgər o öldürülməsəydi, onun üçün təyin olunmuş ilkin əcəlinə qədər yaşayacaqdı. Yəni sanki onun iki əcəli vardır. Mötəzilələrin sözünə əsasən, sanki insan kiminsə əcəlinin yubadılmasına və ya tezləşdirilməsinə qadirdir. Yəni bəndənin əcəli onun əlindədir. Heç şübhəsiz ki, bu etiqad küfrdür. Uca Allah belə buyurur: *“Onların əcəlinin çatdığı vaxt nə bircə saat yubanar, nə də tezləşə bilər”*[199]; *“Hər bir kəs ancaq Allahın izni ilə, əzəldən müəyyən edilmiş bir vaxtda ölür”.*[200]; *“De:"Əgər siz evlərinizdə olsaydınız belə, öldürülməsi qabaqcadan təyin edilmiş kəslər yenə çıxıb öləcəkləri yerlərə gedərdilər". ”*[201]

---

[199] Ən-Nəhl: 61
[200] Əli İmran: 145
[201] Əli İmran: 154

📖 **Onlara ilahi dəlillərin çatdırılması üçün peyğəmbərləri göndərən Odur. Daha sonra O Öz peyğəmbəri Muhəmməd ﷺ ilə risaləti, nübüvvəti və insanlara olan son xəbərdarlığını tamamladı. Onu peyğəmbərlərin sonuncusu, insanlara müjdə verən və xəbərdarlıq edən, Öz izni ilə Allaha tərəf çağıran və nur saçan bir çıraq etdi. Ona hikmət dolu Kitabını nazil etdi. Onun vasitəsi ilə haqq olan dinini bəyan etdi və doğru olan yolu göstərdi.**

✍ Bəşər ağlı ümumilikdə xeyir ilə şəri fərqləndirə bilsə də, bunu tam dəqiqliyi və təfsilatı ilə bilmək bacarığında deyildir. Bu səbəbdən də Rəbbimiz olan Allah ilk insan atamız Adəm peyğəmbərdən عليه السلام Muhəmməd ﷺ peyğəmbərə qədər yüz iyirmi dörd min peyğəmbər göndərmiş[202] və onların vasitəsi ilə insanlara həm Özünü tanıtmış, həm də əmr və qadağalarını onlara çatdırmışdır.[203] Uca Allah buyurur: *“Biz müjdə verən və qorxudan*

---

[202] Bax! İmam Əhməd “əl-Müsnəd” (22288), Əlbani “Mişkətul-məsabih” 3/1599.

[203] Son illərdə insanlar arasında “deizm” adı altında və əslində ateizmin özü olan bir cərəyan təbliğ edilməkdədir. Sözdə ateizmin əksinə, deizm Yaradanın varlığını qəbul edir, lakin dinləri, peyğəmbərləri və onlara nazil olmuş kitabları, ümumiyyətlə, ilahi mesajı, yəni Yaradanın yaratdığı ilə (vəhy yolu ilə) ünsiyyətə keçib ona bilmədiklərini öyrətdiyini və istədiyi şeyləri ona çatdırdığını inkar edir. Yuxarıda da qeyd etdiyim kimi, bu elə ateizmin özü və daha doğrusu, ateizmin yeni modelidir. Belə ki, ateistlər Yaradanın varlığının dəlilləri qarşısında aciz qaldıqlarına və “Yaradanı inkar etmək” metodu ilə nəyəsə nail ola bilməyəcəklərini anladıqlarına görə yeni bir hiyləyə əl atmağa məcbur oldular. Heç şübhəsiz ki, bu hiyləni də onların qulaqlarına pıçıldayan elə öz şeytanları oldu. Bir sözlə, ateizm batil olduğu kimi, deizm də son dərəcə batil və əsassız bir ideologiyadır. Mən bunu sadə bir əqli misal ilə isbat etməyə çalışacam. Belə ki, qeyd edəcəyim bu əqli dəlil həm ümumilikdə bütün peyğəmbərlərin risalətlərinin isbatını, həm də xüsusi olaraq Muhəmmədin ﷺ peyğəmbərliyinin, onun sonuncu elçi olduğunun, ona nazil olmuş kitabın ilahi bir Kitab olduğunun isbatını özündə ehtiva edən bir dəlildir. İlk növbədə, biz sual veririk: Yaradanın öz yaratdığı ilə ünsiyyətə keçməsi əqli yöndən mümkün bir şeydir ya yox? Fikir verin, biz bunun baş verib-vermədiyini deyil, baş verməsinin əqli yöndən mümkün olub-olmamasını soruşuruq. Bu sualın təbii cavabı isə belədi: Bəli, Yaradanın öz yaratdığı ilə ünsiyyətə keçməsi əqli

yöndən mümkündür. Nə üçün də mümkün olmasın?! Bunu mümkünsüz edəcək nə arqument ola bilər ki? Özünüz təsəvvür edin, bu böyüklükdə kainatı yaradan və hər bir incəliyi belə hesaba qatan bir güc və elm sahibi birinin yaratdığı ilə ünsiyyətə keçməsindən və ona istədiklərini öyrətməsindən aciz qalması düşünülə bilərmi?! Yaradanın yaratdığı ilə ünsiyyətə keçməsinin əqli yöndən mümkünlüyü aydın olduqdan sonra ikinci suala keçmək olar: Bəs, sizcə, Yaradanın yaratdığı ilə ünsiyyətə keçməsi əqli yöndən daha məqsədəuyğun bir haldır, yoxsa necə? Yəni sanki önümüzdə iki seçim var: ya Yaradan yaratdığını yaradıb və onu özbaşına tərk edib, beləcə yaşayır, ölür və bununla da hər şey bitir. Yəni bu böyüklükdə kainat və bu dəqiqlikdə yaradılmış insan faktiki olaraq mənasız, boş yerə, altmış-yetmiş il həyat sürüb məhv olmaq üçün yaradılıb. Yəni qüdrət, elm və hikmət sahibi olan Yaradanın insanı yaratmasında heç bir məqsədi yox imiş, yaxud elə "məqsəd"i bu imiş. Ya bunu qəbul etməliyik, ya da Yaradanın yaratdığı ilə müəyyən vaxtlarda ünsiyyətə keçib, ona həm Özünü tanıtdığını, həm də əmr və qadağalarını öyrətdiyini və beləcə, onu məsuliyyətli bir varlıq etdiyini və onun yaradılışının xüsusi bir məqsədə qulluq etdiyi deməliyik. Yaradanın elm və hikmət sahibi olduğunu, kainatda, yaxud insanın öz cismində heç bir şeyi boş yerə yaratmadığını düşündükdə, bu iki haldan ikincisinin daha çox məqsədəuyğun olduğu qənaətinə gəlmək mümkündür. Başqa bir ibarə ilə desək: necə olur ki, heç bir şeyi, hətta yalın gözlə görə bilmədiyimiz mikrobları, insan cismində olan hüceyrələri, yəni ağıl sahibi olmayan bütün bu varlıqları boş yerə yaratmayan bir Varlıq, ağıl sahibi olan və daxilində bir məsuliyyət hissi daşıyan insana gəldikdə yaradılışda var olan bütün məqsədləri unudur?! Necə olur ki, insan cismindəki hüceyrələr boş yerə yaradılmadığı halda, həmin hüceyrələrin var olma səbəbi olan insan boş yerə yaradılır?! Bunu bildikdən sonra belə bir sual ortaya çıxır: Bəs insan nə üçün yaradıldığını, yaradılışında olan ilahi məqsədi haradan və necə öyrənə bilərdi? Təbii ki, bunu əldə etmənin tək bir yolu var: Yaradanın onunla ünsiyyətə keçməsi, onunla əlaqə qurması və ona bütün bu həqiqətləri öyrətməsidir. Burada başqa bir sual da verə bilərik: Sizcə bu cür əzəmətli elmə və qüdrətə sahib olan Yaradan Özünə təzim edilməyə layiqli biridir, ya yox? Cavabınız təbii ki, "bəli" olacaq. Bəs insan onu yaradan bu elm və əzəmətli güc Sahibinə necə təzim etməli olduğunu haradan və necə öyrənə bilərdi? Hər bir halda, bütün bunlar yuxarıda qeyd etdiyimiz sualın cavabında seçdiyimiz ikinci halın daha doğru olduğuna dair ortaya qoyduğumuz arqumentlərdən bəziləridir. Ola bilsin, kimsə bu arqumentlərlə tam qane olsun, kimsə də qismən, lakin kiminsə bu dediklərimizlə heç cür qane olmaması üçün onun özünün bu yazılanların önünə bundan daha güclü və daha qənaətbəxş arqumentlər qoyması lazımdır ki, bu da tam əminliklə deyirəm, əqli yöndən mümkünsüzdür. Yuxarıda yazılanları ümumiləşdirsək, deməli, ilkin mərhələdə qəbul etdik ki, Yaradanın yaratdığı ilə ünsiyyətə keçməsi, əlaqə qurması əqli yöndən tam mümkün bir haldır. Bunu biləndən sonra ikinci mərhələdə onu bildik ki, Yaradanın yaratdığı

ilə əlaqə qurması daha məqsədəuyğundur, nəinki əlaqə qurmaması. Bu isə məntiqi yöndən kiməsə görə tam, kiməsə görə qismən qəbuledilləcək bir arqument sayıla bilər, lakin tamamilə inkar olunması əqli yöndən mümkünsüzdür. Təbii ki, bura qədər yazılanların hamısı məsələnin nəzəri olan yönü idi. Məsələni praktiki yöndən ələ aldıqda, yenə də yuxarıda qeyd etdiklərimizin hamısı öz təsdiqini tapır. Belə ki, hər dönəmdə Yaradanın özü ilə əlaqə qurduğunu deyən və ya bunu iddia edən insanlar (peyğəmbərlər) ortaya çıxmışdır. Yəni bu insanlar məntiqən mümkünsüz yox, əksinə mümkün olan və məqsədəuyğun bir şeyi iddia etmişlər. Bu insanlar barədə bizə çatan şifahi və yazılı məlumatlara əsasən görürük ki, bu insanlar yaşadıqları cəmiyyətlərdə məhz dürüstlükləri və yüksək insani və əxlaqi dəyərlərə sahib olmaları ilə tanınan kəslər olublar. Onlar insanları yalnız Yaradana qulluq və təzim etməyə, həmçinin yüksək əxlaqi dəyərlərə çağırmışlar. Bütün bunların müqabilində isə onlardan heç bir muzd və dünyəvi bir mənfəət güdməmişlər. Üstəlik, bu insanlar müxtəlif zamanlarda və müxtəlif yerlərdə yaşamalarına baxmayaraq, onların sözləri bir-birlərini təkzib yox, təsdiq etmişdir. Çox "qəribə" və düşündürücü bir hal deyilmi?! Həmçinin onların dedikləri sözlərə fikir verdikdə görürsən ki, hamısının sözü eyni mənbədəndir. Sanki bir çıraqdan şöləlenən işıq misalı kimi. Necə də bir-birini ardıcıl izləyən "əcaib təsadüflər"!!! Çox maraqlıdır, bu insanların heç biri Yaradanın məhz yalnız onunla əlaqə qurduğunu deyərək, "eqoistlik" nümayiş etdirməmiş, özündən əvvəl, yaxud sonra özü kimi hər hansısa bir peyğəmbərin gəldiyini və ya gələcəyini də inkar etməmişdir. Bu minvalla hər dönəmdə və müxtəlif yerlərdə adları və həyat hekayələri bizə məlum olan və məlum olmayan minlərlə peyğəmbər gəlib getmişdir. Ta ki miladi 570-ci ildə Ərəbistan yarımadasında doğulmuş, yaşamış və qırx yaşında ikən Yaradanın onunla əlaqə qurduğunu deyən Muhəmməd ﷺ adlı biri gələnə qədər. Bu yerdə haşiyəyə çıxaraq digər bir maraqlı nüansa da toxunmaq istəyirəm. Belə ki, ondan qabaq peyğəmbər olduğunu deyən İsa عليه السلام gəlmişdir. İsanın عليه السلام doğumu isə tarix səhnəsində elə bir dəyişikliyə səbəb olmuşdur ki, illər sonra onun doğumu münasibəti ilə tarixin illəri təyin ediləcəkdir. Yuxarıda qeyd etdiyim kimi, miladi 570-ci il, yəni İsanın doğulduğu günün 570-ci ili. Bunu qeyd etməkdə məqsədim sadə bir nümunə ilə peyğəmbərlərin dahi və tarixi şəxslər olduğunu inkar edən deistlərə kiçik bir tarixi dərs və məlumat vermək idi. Əlqərəz, Muhəmməd ﷺ adlı birisi çıxır və peyğəmbər olduğunu deyir. O da özündən əvvəlki peyğəmbərlər kimi eyni ilə onların dediklərini deyir və təsdiqləyir. Lakin özündən əvvəlkilərin demədiyi və onun dediyi yeni bir şey var idi: Mən peyğəmbərlərin, yəni Yaradanın özü ilə əlaqə qurduğu insanların sonuncusuyam. Yaradan məndən sonra heç bir bəşərlə əlaqə qurmayacaq. Siz "təsadüf"ə bir baxın! Özündən öncəkilərin heç biri bu sözü deməmişdir və elə onların dedikləri kimi də oldu. Yəni hər gəlib gedən peyğəmbərin ardınca yeni biri gəldi, ta ki Muhəmməd ﷺ gələnə qədər. Muhəmməd ﷺ isə gəldi və dedi ki, məndən sonra bir daha peyğəmbər

gəlməyəcək və dediyi kimi də oldu. “Təsadüf”ə bir baxın! Artıq onun vəfatından on dörd əsr keçməsinə baxmayaraq, hələ də onun bu sözünü yalan çıxarda biləcək biri gəlməyib. Ondan sonra özünün peyğəmbər olduğunu iddia edən kəslər isə tarixin zibilliyində məhv olub getmiş, adları da bu günə qədər yalançı peyğəmbərlər olaraq yaddaşlarda həkk olmuşdur. Hələ bunlar son deyil. Davam edirik. Fikir verin, peyğəmbər olduğunu deyən Muhəmməd ﷺ və onun tərəfdarları dəvətlərinin ilk dönəmlərində zəif və az olsalar da, daha sonralar önlərində olan bütün maneələri aşaraq, nəinki Ərəbistan yarımadasına, hətta yarımadanın xaricində olan böyük ərazilərə sahib olmuş və əzəmətli dövlətlər qurmuşlar. Sizcə, nə idi bütün bu “əcaib” uğurların səbəbi? Onu da qeyd edim ki, Muhəmməd ﷺ özü də tərəfdarlarına bunu vəd edirdi və dediyi kimi də oldu. Heç bir yerdə heykəli və ya adi bir şəkli belə olmayan bir insanın şəninin hər tərəfə yayılmasının və sevgisinin milyonlarla ərəb olmayan insanların qəlblərində kök salmasının səbəbi nədir, sizcə? Axı mən – türk oğlu türk nə üçün üzünü belə görmədiyim Muhəmmədi, İsanı, Musanı bu qədər sevməliyəm?! Nədir bu sevginin səbəbi? Nə üçün bu peyğəmbərlər yüz milyonlarla insanın bu cür sevgi və hörmətinə sahib olsunlar, amma onlardan başqa heç kəs bu cür sevgini və hörməti əldə edə bilməsinlər? Yəni bütün bunların hamısına təsadüf deyəcək qədər “ağıllı”yıqmı? Yəni özümüzü Yaradanın önündə məsuliyyət sahibi olmaqdan qurtarmaq üçün yalan uydurmağa və özümüzün uydurduğumuz yalanlara özümüzü inandırmağa və gözlə gördüyümüz bütün bu həqiqətlər önündə özümüzü korluğamı vurmalıyıq? İstəsəniz, sizin təbirinizcə desək, əcaib “təsadüf”lər silsiləsinə davam edə bilərik. Çox qəribədir, Muhəmməd ﷺ elə bir kitabla gəlir ki, o kitabdan sonra onun mislində, yaxud ona oxşar ikinci bir kitab gəlmir. Elə bir kitab ki hər dəfə oxunduqca köhnəlmək əvəzinə, əksinə yenilənir. Həmin kitabla (Qurani Kərimlə) əlaqədar beş “təsadüf”ü qeyd edəcəm.

***Birincisi:*** Təsəvvür edin ki, bir insan Yaradan tərəfindən ona vəhy yolu ilə surə və ayələrin nazil olduğunu deyir və həmin ayələrin birində bu cür qeyd edilir: *“Şübhəsiz ki, Zikri ( yəni Quranı) Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq”* (əl-Hicr surəsi, 9-cu ayə). Nəticədə vəd edilən kimi də olur. Nazil olduğu ilk gündən ta günümüzəcən heç bir dəyişikliyə uğramadan olduğu kimi gəlib çatır. Yəni nədir bu meydan oxumanın və bu əminliyin sirri? Təsadüf???

***İkincisi:*** *“Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar”* (ən-Nisa surəsi, 82-ci ayə). On dörd əsr keçməsinə və ərəb dilini öz ana dilləri kimi bilən yüzlərlə İslam düşmənlərinin və avropalı şərqşünasların cəhdlərinə baxmayaraq, hələ də bu kitabda bir ziddiyyətin belə tapılmamasının sirri nədir görəsən? Əslində bu sualın cavabı elə həmin ayənin özündə var: *Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar”* (ən-Nisa surəsi, 82-ci ayə).

***Üçüncüsü:*** *“Əgər bəndəmizə (yəni Muhəmmədə) nazil etdiyimizə (yəni Qurana) şübhə edirsinizsə və doğru deyirsinizsə, onda ona bənzər bir surə gətirin və Allahdan savayı bütün şahidlərinizi köməyə çağırın! Əgər siz bunu edə bilmirsinizsə, – heç edə də bilməzsiniz – onda yanacağı insanlardan və daşlardan olan, kafirlər üçün hazırlanmış oddan (yəni Cəhənnəm odundan) çəkinin”* (əl-Bəqərə surəsi, 22-23-cü ayələr); *“Yoxsa: "Muhəmməd onu özündən uydurdu!"– deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!”* (Yunus surəsi, 38-ci ayə); *“De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün bir yerə toplaşıb, bir-birinə kömək etsələr də, ona bənzərini gətirə bilməzlər”* (əl-İsra surəsi, 88-ci ayə). Yenə soruşuram: nədir bu meydan oxumanın və bu əminliyin sirri? Məgər o dövrdə, yaxud ondan sonrakı əsrlərdə ərəblər arasında söz sehrbazları beləmi az idi? Əlbəttə ki, xeyr! Bunu elə o dönəmə xas olan və daha sonrakı əsrlərdə yazılan ərəb dili divanları təsdiq edir. Bəs bu meydan oxumanın önündəki on dörd əsrlik acizliyin sirri nədir? Heç bu sualları ömrünüzdə bir dəfə də olsa, özünüzə verdinizmi?

***Dördüncüsü:*** Bu Kitabda gələcəyə aid çox dəqiq məlumatlar var. Misal üçün, Sasanilərin üstün olmasına baxmayaraq, Rumluların qələbə çalacaqlarına dair ilahi müjdənin verilməsi kimi: *“Yaxın bir yerdə Rumlular məğlub edildilər. Lakin onlar öz məğlubiyyətlərindən sonra bir neçə il ərzində qələbə çalacaqlar”* (ər-Rum surəsi, 2-4-cü ayələr). Onu da qeyd edim ki, Rumlular qalib gələndə artıq Muhəmməd ﷺ vəfat etmişdi, lakin bu ilahi müjdə ona nazil olmuş kitabda mövcud idi.

***Beşincisi:*** Təsəvvür edin ki, Muhəmmədin ﷺ zamanından ta günümüzə qədər hər əsrdə 6236 ayədən ibarət olan Quranı son nöqtəsinə kimi əzbər bilən on minlərlə insan olub. Hal-hazırda da Quranı sinələrində daşıyan minlərlə insan mövcuddur. İndi isə Quranda olan bu ilahi kəlama fikir verin: *“Biz Quranı yada salmaq üçün asanlaşdırdıq”* (əl-Qamər surəsi, 17-ci ayə). Kim mənə bu cür ikinci bir kitab misalı göstərə bilər? Yəni sözün əsl mənasında bütün bu heyrətamiz ecazkarlıqların səbəbi nədir, görəsən? Hər halda bu yazımda ünvanladığım hər sualın cavabında “təsadüfdür” deyəcək qədər də sadəlövh olmadığınıza əminəm. Yəni bu qədər təsadüflər zənciri? Bunu hansı ağıl, hansı məntiq qəbul edər?! Özünüz də hiss etmirsinizmi bütün bu ecazkarlıqların arxasında bir ilahi qüvvə durur?! Yəni bütün bunlar hər hansısa bir bəşər övladının iradəsinə bağlı olmayan və onun bacarıq imkanlarını aşan şeylərdir. İstəsəniz, “əcaib təsadüflər” silsiləsini davam elətdirə bilərik. Misal üçün, Kəbə. Mahiyyət etibarilə kub şəklində olan sadə bir tikilidir. Lakin milyonlarla insanın dünyanın müxtəlif yerlərindən göz yaşları ilə onu ziyarət etmək üçün gəlmələrini necə və nə ilə izah edə bilərsiniz? Hal-hazırda yer üzündə son dərəcə uca, yaraşıqlı və heyrətamiz yüzlərlə tikililər mövcuddur. Nə üçün o tikililəri görən insanların gözləri yaşarmır və qəlbləri titrəmir?! Bəs, görəsən, insanların qəlblərini bu tikililərə deyil də, məhz görünüşü son dərəcə sadə və

*elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın".*[204] Bu peyğəmbərlərin üç yüz on beşi rəsul – elçi, qalanları isə nəbi olmuşdur. Rəsul olan peyğəmbərlər ilə nəbi olan peyğəmbərlər arasında fərq vardır. Çünki Uca Allah *"Biz səndən əvvəl elə bir elçi, elə bir nəbi göndərməmişik ki,..",*[205] – buyuraraq rəsul ilə nəbini bir-birindən fərqləndirir. Lakin onların arasındakı fərqin nə olduğu barəsində İslam alimləri ixtilaf etmişlər. Bu məsələdə ən mötəbər rəy budur ki, rəsul – özünə müxalif olan kafir və ya müşrik qövmə göndərilən peyğəmbərdir, nəbi isə özünə iman etmiş, lakin asilikləri olan qövmə göndərilmiş peyğəmbərdir. Nəbilərin ilki atamız Adəm ﷺ, rəsulların ilki isə Nuhdur ﷺ. Qurani Kərimdə bu peyğəmbərlərdən iyirmi beşinin adı zikr olunmuşdur: *"Bunlar, öz qövmünə qarşı İbrahimə verdiyimiz dəlillərimizdir. Biz istədiyimiz kəsi dərəcə-dərəcə ucaldarıq. Şübhəsiz ki, Rəbbin Müdrikdir, Biləndir. Biz ona İshaqı və Yaqubu bəxş etdik. Hər ikisini doğru yola yönəltdik. Bundan əvvəl Nuhu da doğru yola yönəltmişdik. Onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı və Harunu da. Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da. Hamısı əməlisalehlərdən idilər. İsmaili, Əlyəsə`i, Yunusu və Lutu da. Hamısını aləmlərdən üstün etdik."*[206] Digərləri isə Muhəmməd, Adəm, Hud, Şueyb, Saleh, Zül-Kifl və İdrisdir. Bu peyğəmbərlərin ən əfzəli sırası ilə

---

bəsit olan bir tikiliyə (Kəbəyə) yönəldən səbəb və qüvvə nədir? Heç bu barədə düşündünüzmü? Kim bütün bu sualların cavabı olaraq mənə ateizm, yaxud da deizm ideologiyası üzərindən məntiqli bir cavab verə bilər? Görün on dörd əsr bundan öncə Muhəmmədin ﷺ insanlara təqdim etdiyi o ilahi Kitabda nə yazılır: *"(Bir zaman İbrahim dua edərək belə demişdi) Ey Rəbbimiz! Mən əhli-əyalımdan bəzisini (İsmaili və anası Hacəri) Sənin Beytülhəramının (Kəbənin) yaxınlığında, əkin bitməz bir vadidə sakin etdim. Ey Rəbbimiz! Onlar (vaxtlı-vaxtında, lazımınca) namaz qılsınlar deyə belə etdim. Elə et ki, insanların bir qisminin qəlbləri onlara (Kəbənin ziyarətinə) meyl etsin"* (İbrahim surəsi, 37-ci ayə). Düşünürəm ki, bu yazdıqlarım ağıl və insaf sahibi olan hər kəsi ən azından bir dəfə belə olsa, dərindən düşünməyə vadar edəcəkdir.

[204] Ən-Nisa: 165

[205] Əl-Həcc: 52

[206] Əl-Ənam: 83-86

Muhəmməd, Nuh, İbrahim, Musa və İsadır. Hamısının üzərinə Allahın salamı olsun! Uca Allah həmin peyğəmbərləri Quranda iki yerdə zikr etmişdir: *“Bir zaman Biz peyğəmbərlərdən əhd almışıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışıq”*[207]; *“Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi”.* [208] Peyğəmbərlərin ən üstünü və sonuncusu isə Muhəmməd ﷺ peyğəmbərdir. [209] O özündən əvvəlki peyğəmbərlərdən fərqli olaraq, tək bir qövmə, tayfaya, yaxud millətə deyil, bütün insanlara və cinlərə elçi olaraq göndərilmişdir.[210] Allahın bəşəriyyət üçün göndərdiyi son xəbərdarlığını, son şəriətini – İslamı insanlara çatdırmış, iyirmi üç il peyğəmbərlik dönəmində ona nazil olan Quranı və onun əhkamlarını onlara öyrətmişdir.

• ***“Ona hikmət dolu Kitabını nazil etdi. Onun vasitəsi ilə haqq olan dinini bəyan etdi və doğru olan yolu göstərdi”.***

Qurani-Kərimin özündən öncəki ilahi kitablardan fərqli bir çox özəllikləri mövcuddur. Həmin özəlliklərin bəziləri aşağıdakılardır:

**1.** Quranın bütöv bir kitab halında deyil, iyirmi üç il ərzində hissə-hissə nazil olması: *“Kafirlər dedilər: "Nə üçün Quran ona bir dəfəlik bütöv nazil olmadı?" Biz onu sənin qəlbini möhkəmləndirmək üçün tədricən nazil etdik və onu ən gözəl şəkildə ayəbəayə izah etdik”*[211];

---

[207] Əl-Əhzab: 7

[208] Əş-Şura: 13

[209] *“Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur”* (əl-Əhzab: 40).

[210] *“Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin insanların çoxu bunu bilmir”* (Səba: 28); *“De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm”* (əl-Əraf: 158); *“Bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına yolladıq. Onlar onu dinləməyə gəldikdə bir-birinə: "Susun, qulaq asaq!"– dedilər. Quran oxunub qurtardıqdan sonra isə xəbərdar etmək məqsədilə öz tayfalarının yanına qayıtdılar”* (əl-Əhqaf: 29).

[211] Əl-Furqan: 32

2. Quranın ümumbəşəri bir kitab olması və hər hansısa bir qövmə, millətə deyil, bütün insanlara və cinlərə xitab etməsi: *"Aləmləri (insanları və cinləri) xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən Allah necə də mübarəkdir!"*[212]*;*
3. Quranın özündən əvvəlki ilahi kitabların hökmlərini ləğv etməsi: *"Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın sənə nazil etdiyi Kitabla hökm ver"*[213]*;*
4. Quranın özündən əvvəlki kitablardan fərqli olaraq heç bir dəyişikliyə uğramaması: *"Şübhəsiz ki, Zikri (vəhyi) Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq"*[214]*;*
5. Qurani-Kərimin əzbərlənməsinin Uca Allah tərəfindən asanlaşdırılması: *"Biz Quranı yada salmaq üçün asanlaşdırdıq".*[215]

[212] Əl-Furqan: 1
[213] Əl-Maidə: 48
[214] Əl-Hicr: 9
[215] Əl-Qamər: 17

📖 **Həqiqətən, Qiyamət saatı mütləq gələcəkdir və bunda heç bir şübhə yoxdur. Allah bütün ölənləri yenidən dirildəcək və onlar öz ilkin hallarına qayıdacaqlar.**

✍ Ümumiyyətlə, insan həyatı üç mərhələdən ibarətdir: Dünya həyatı, dünya həyatı ilə Axirət həyatı arasında olan və çoxumuzun qəbir həyatı olaraq adlandırdığımız Bərzax həyatı və Axirət həyatı. Uca Allah dünya həyatını bir imtahan məkanı, sınaq yeri kimi və biz bəndələrini də məhz Ona ibadət etmək üçün xəlq etmişdir. Bu, dünya həyatının həqiqəti və insanın yaradılışının ümdə qayəsidir. Uca Allah buyurur: *"Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur"*[216]*; "Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım".*[217] Belə ki, hər şey bu dünya həyatı ilə bitmir. Bir anlıq təsəvvür edin, insan altmış-yetmiş il həyat sürür, daha sonra da zalım cəzasını, məzlum da haqqını almadan məhv olub gedir və bununlada hər şey bitir. Məgər bütün bu aləm heç bir ali məqsədə bağlı olmadan, bu cür mənasız və anlamsız bir şəkildə yaradılıb?! Məgər bu, kainatın hər zərrəsində Öz elmini və qüdrətini təcəssüm etdirən Uca Allahın hikmətinə və ədalətinə layiqdirmi?! *"Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?"*[218] Əslində axirətə – insanların diriləcəyi günə və Rəbbi önündə haqq-hesab verəcəyinə iman etmək Allaha iman etməyin və Onun ədalətinin mütləq nəticəsidir. Çünki Uca Allah zülmü müdafiə etməz, zalımı cəzasız buraxmaz, məzlumu haqqından məhrum qoymaz, yaxşı insanı mükafatsız və əvəzsiz buraxmaz. Bir sözlə, Uca Allah hər kəsin layiq olduğu haqqını özünə qaytarar. Yaxşının mükafatlanacağı, pisin cəzalanacağı və haqlının öz haqqını əldə etməsini təmin edən qayıdış gününün olması zəruridir. Sadəcə olaraq, insanın düşməni olan şeytan onun gözündə bu dünyanı elə böyütmüş və elə bəzətmişdir ki, bir çox insan nəinki diriləcəyi və Rəbbi önündə hesab verəcəyi gün barədə

---

[216] Əl-Mulk: 2
[217] Əz-Zəriyət: 56
[218] Əl-Muminun: 115

düşünmür, heç bu dünyadan ayrılacağına belə inana bilmir. Halbuki *"Hər bir kəs ölümü dadacaqdır".*[219] Rəbbimiz olan Allah Öz Kitabında insanların diriləcəkləri günün isbatına dair elə gözəl məsəllər çəkmiş, dəlillər zikr etmişdir ki, hər ağıl və korlanmamış fitrət sahibinin bunları inkar, yaxud rədd edə bilməsi qeyri-mümkündür. Uca Allah buyurur: *"Məgər insan onu nütfədən yaratdığımızı görmədimi ki, birdən-birə (Rəbbinə) açıq bir düşmən kəsilərək, öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi. (Ey Peyğəmbər!) De: "Onları ilk dəfə yaradan Özü onları diriləcəkdir. O, hər bir məxluquna yaxşı bələddir. O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan od yandırırsınız. Göyləri və yeri yaradan onların eynisini yenidən xəlq etmək qüdrətinə malik olmazmı?! Şübhəsiz ki, O, Yaradandır, hər şeyi biləndir. Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar. Hər şeyin hökmü əlində olan Allah pak və müqəddəsdir. Siz ancaq Onun hüzuruna qaytarılacaqsınız"* [220] *; "Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, bilin ki, həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, qüdrətimizi sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi oradan uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi yetkinlik yaşına çatmamış vəfat edir, kimisi də ömrünün ən rəzil (ən ixtiyar) dövrünə çatdırılır ki, vaxtilə bildiyi bilməz olar. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarar və cürbəcür gözəl bitkilər bitirər. Bunun səbəbi Allahın Haqq olmasındadır. O, ölüləri diriildir və hər şeyə qadirdir. Həmin Qiyamət saatı mütləq gələcəkdir, ona heç bir şəkk-şübhə yoxdur və Allah qəbirlərdə olanları dirildəcəkdir"*[221]*; "Onlar deyirlər: «Biz sür-sümük və toz halına düşdüyümüz zaman yeni bir məxluq kimi dirildiləcəyikmi?» De: «İstər daş olun, istər*

---

[219] Əli İmran: 185
[220] Ya sin: 77-83
[221] Əl-Həcc: 5-7

*dəmir və ya ürəyinizdə (özünüzü dağlar, göylər kimi) böyük bir məxluq bilin! (Yenə diriləcəksiniz!)». Onlar deyəcəklər: «Bizi həyata kim qaytaracaq?» De: «İlk dəfə sizi yaradan!»"*[222]

İsrafil ﷺ mələyin Sura birinci dəfə üfürməsi ilə Allahın istisna etdiklərindən savayı yer üzündə və göylərdə olan bütün canlılar həlak olacaqdır. Sura ikinci dəfə üfürüldükdə isə bütün ölmüş olanlar qəbirlərindən dirilib çıxarılacaqlar. Uca Allah buyurur: *"Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar!"*[223] Peyğəmbər ﷺ demişdir: *"Sura iki üfürmə arasında qırx (gün, yaxud ay, ya da il)*[224] *vardır. Daha sonra Uca Allah göydən yağış endirəcək və ölülər yerdən ot göyərib çıxdığı kimi dirilib çıxacaqlar. İnsanın bədənində büzdüm sümüyündən*[225] *başqa çürüməyən ikinci bir sümük yoxdur. Qiyamət günü insanlar məhz ondan yaradılacaqlar".*[226]

---

[222] Əl-İsra: 49-51
[223] Əz-Zumər: 68
[224] Hədisi rəvayət edən ravi "qırx" olaraq nəql etmiş, gün yaxud ay, ya da il olduğunu deməmişdir.
[225] Bu orqan onurğa sütununun sonunda yerləşən kiçik bir hissəcikdir.
[226] Buxari (4935)

📖 **Uca və Nöqsansız olan Allah mömin qullarının əcrlərini dəfələrlə artırmış, onların böyük günahlarını tövbə ilə, kiçik günahlarını isə böyük günahlardan çəkinmək səbəbilə bağışlamışdır. Böyük günahlardan tövbə etməyən kəsləri isə Öz istəyi altına almışdır. *“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar”* (ən-Nisə: 48). Allah, kimi Cəhənnəm odu ilə cəzalandıracaqsa, oradan onu sahib olduğu imanı səbəbilə çıxaracaq və Cənnətinə daxil edəcəkdir. *“Zərrə qədər yaxşılıq edən əvəzini alacaqdır”* (əz-Zəlzələ: 7). Həmçinin Allah Peyğəmbərin ﷺ öz ümmətindən böyük günah sahibləri üçün edəcəyi şəfaət səbəbilə də Cəhənnəmdən bəzi insanları çıxaracaqdır.**

✍ Müəllif burada Uca Allahın mömin bəndələrinə olan rəhmətinin təcəllisini özündə əks etdirən bəzi məqamlara toxunmuşdur. Həmin məqamlardan biri Uca Allahın mömin bəndələrinin saleh əməlləri müqabilində əldə etdikləri savablarını ən azı on misli qədər artırmasıdır. Belə ki, Uca Allah buyurur: *“Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər”.*[227] Peyğəmbər ﷺ demişdir: *“Hər kim xeyir bir əmələ niyyət edər, lakin o əməli edə bilməzsə, Allah onu Öz qatında (həyata keçirilmiş) kamil bir saleh əməl kimi qeydə alar. Hər kim də xeyir bir əmələ niyyət edər və onu həyata keçirərsə, Allah onun əcrini Öz qatında on misli qədərindən yeddi yüz misli qədərinə qədər və hətta bundan da daha artıq yazar”.*[228] Bütün bunlarla yanaşı, bəzi saleh əməllər vardır ki, hətta mələklər belə onun savabını yazmaqdan acizdirlər. Çünki onun əvəzini və əcrini bilən yalnız Allahdır. Uca Allah buyurur: *“Yalnız səbir edənlərə mükafatları hesabsız veriləcəkdir”.*[229] Peyğəmbər ﷺ Rəbbinin belə dediyini xəbər vermişdir: *“Orucdan başqa adəm övladının bütün əməlləri onun üçündür. Oruc isə Mənə xasdır və onun əcrini məhz*

---

[227] Əl-Ənam: 160
[228] Müslim (207)
[229] Əz-Zumər: 10

*Mən verəcəm".*[230] Bəndənin pis əməllərinə və asiliklərinə gəldikdə isə onlar, əsasən, elə olduğu kimi, yəni artırılmadan yazılar. Bu da Uca Allahın quluna olan rəhmətinin açıq bir təcəssümüdür. Çünki Uca Allahın rəhməti Onun qəzəbini ötüb keçmişdir.[231] Belə ki, Rəbbimiz olan Allah buyurur: *"Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz".*[232] Peyğəmbər ﷺ demişdir: *"Hər kim pis bir əmələ niyyət edər, lakin o əməli etməzsə, Allah onu Öz qatında saleh bir əməl kimi qeydə alar. Hər kim də pis bir əmələ niyyət edər və onu həyata keçirərsə, Allah onu (artırmadan) yalnız bir günah olaraq yazar".*[233] Lakin elə asiliklər vardır ki, işləndiyi yerinə, zamanına və məqamına görə onun cəzası şiddətli olar. Misal üçün, Məkkə və Mədinə şəhərlərində olan Haram bölgəsində işlənən asiliklər ilə digər yerlərdə işlənən asiliklər bir olmadığı kimi, Ramazan ayında yol verilən günahlar ilə digər aylarda işlənən günahlar da eyni sayıla bilməz. Elə bu səbəbdən idi ki, Abdullah ibn Abbas, Abdullah ibn Amr ﷺ kimi səhabələr Haram bölgəsində məskunlaşmaqdan ehtiyat edirdilər.[234] Həmçinin evli birisinin zina etməsi ilə subayın zina etməsi bir olmadığı kimi, təkəbbürlük edən zəngin ilə kasıb təkəbbürlünün halı da eyni sayıla bilməz. Ona görə də, şəriət zina edən subay ilə evli arasında fərq qoymuş, evlinin cəzasını daha şiddətli etmişdir. Çünki evli birisini və ya kasıb olanı o günaha (zinaya və ya təkəbbürlüyə) sövq edən cazibənin (şəhvətin və ya zənginliyin) çəkim gücü subay, yaxud zəngin olana nisbətdə daha zəifdir. Ona görə də, evli olmasına rəğmən zinaya, yaxud kasıb olmasına rəğmən təkəbbürlüyə düçar olan birisinin cəzası Allah qatında daha şiddətlidir.

---

[230] Buxari (1904)
[231] Buxari (7422)
[232] Əl-Ənam: 160
[233] Müslim (207)
[234] İbn Rəcəb "Cəmiul-ulumi vəl-hikəm" səh. 397

• ***"Onların böyük günahlarını tövbə ilə bağışlamışdır".***

Böyük günahlar – bu dünyada hədd cəzası olan va ya Cəhənnəm əzabı, Allahın lənəti və qəzəbi ilə [235] təhdid edilən və yaxud işlənəcəyi təqdirdə Cənnətdən məhrum olacağı ilə, [236] yaxud imanın özündən nəfy ediləcəyi ilə[237] ifadə olunan və ya açıq bir şəkildə böyük günah olduğu bildirilən asiliklərdir. Müəllifin də qeyd etdiyi kimi, böyük günahların bağışlanması üçün tövbə şərtdir. Uca Allah buyurur: *"Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün və sizi ağacları altından çaylar axan Cənnət bağlarına daxil etsin".*[238] Səmimi-qəlbdən edilən həqiqi tövbənin isə dörd şərti vardır:

1. *Yol verilmiş günahdan uzaq durmaq:* Əgər həmin günah tərk edilməsi vacib olan bir asilikdirsə, o asilik tərk edilməlidir. Yox, əgər həmin günah əməl edilməsi vacib olan bir ibadətin tərki ilə əlaqəlidirsə, həmin ibadət yerinə yetirilməlidir. Əgər günah hər hansı bir kəsin haqqı ilə əlaqəlidirsə, o zaman həmin kəsin haqqı ödənilməli, yaxud halallıq alınmalıdır;
2. *Səmimi-qəlbdən peşmançılıq:* Peyğəmbər ﷺ demişdir: *"Peşmançılıq tövbədir".*[239] Yəni peşmançılıq tövbənin əslidir və əsas rükünlərindəndir;
3. *Bir daha həmin günaha qayıtmayacağına dair söz vermək və bu istiqamətdə əzmkar olmaq;*
4. *Tövbənin, qəbul olunma vaxtında olması:* Uca Allah iki hal istisna olmaqla bəndənin tövbəsini hər zaman qəbul edir. Həmin iki hal:

– *Günəşin (Qiyamət gününə yaxın) batdığı yerdən çıxması:* Uca Allah buyurur: *"Yoxsa onlar ancaq ya mələklərin, ya Rəbbinin*

---

[235] Məsələn, Peyğəmbərin ﷺ bu kəlamı kimi: *"Rüşvət alana da, verənə də Allah lənət eləsin!"* (Tirmizi: 1337, Əbu Davud: 3580, Əlbani "əl-İrva" 2620)

[236] Məsələn, Peyğəmbərin ﷺ bu kəlamı kimi: *"Qəlbində zərrə qədər təkəbbürlük olan kəs Cənnətə girməyəcək"* (Müslim: 934).

[237] Məsələn, Peyğəmbərin ﷺ bu kəlamı kimi: *"Etibarı olmayanın (yəni xəyanətkar birisinin) imanı yoxdur"* (Əhməd: 12383, Əlbani "əl-Mişkət" 35).

[238] Ət-Təhrim: 8

[239] İbn Macə (4252), Əlbani "Səhihul-cəmi" (6802)

*və yaxud da Rəbbinin bəzi əlamətlərinin gəlməsini gözləyirlər? Rəbbinin bəzi əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanında bir xeyir qazanmamış kimsəyə iman gətirməsi fayda verməyəcəkdir”.* [240] Peyğəmbər ﷺ demişdir: *“Günəş batdığı yerdən çıxmayınca Qiyamət qopmaz. Batdığı yerdən çıxdıqda insanlar onu görəcək və hamı iman edəcəkdir. Həmin vaxt isə imanın heç kəsə fayda vermədiyi vaxtdır”.* Daha sonra Allah rəsulu ﷺ yuxarıda qeyd etdiyim ayəni oxumuşdur.[241]

– *Can boğaza gələndə:* Uca Allah buyurur: *“Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: “Mən indi tövbə etdim” deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!”*[242] Peyğəmbər ﷺ demişdir: *“Can boğaza gələnə qədər Allah qulunun tövbəsini qəbul edir”.*[243]

• ***“Kiçik günahlarını isə böyük günahlardan çəkinmək səbəbilə bağışlamışdır”.***

Müəllifin də qeyd etdiyi kimi, bəndənin kiçik günahlarının bağışlanması üçün tövbə etməsi şərt deyil. Çünki kiçik günahlara yol vermək adətkarlıq edilmədiyi təqdirdə hər kəsdə baş verə biləcək haldır. Bəşər övladı xəta edəndir və günahlardan xali deyildir. Bəndənin işlədiyi saleh əməllər və onun böyük günahlardan çəkinməsi elə öz-özlüyündə kiçik günahlarının yuyulmasına və bağışlanmasına bir səbəbdir. Uca Allah buyurur: *“Onlar kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinirlər. Həqiqətən, sənin Rəbbin geniş məğfirət sahibidir”*[244]; *“Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən (kiçik günahlarınızdan) keçər və sizi şərəfli bir keçidə (Cənnətə) daxil edərik”.*[245] Peyğəmbər ﷺ

---

[240] Əl-Ənam: 158
[241] Buxari (4636)
[242] Ən-Nisə: 18
[243] Tirmizi (3537), İbn Macə (4253), Əlbani “Səhihul-cəmi” (1903)
[244] Ən-Nəcm: 32
[245] Ən-Nisə: 31

demişdir: *"Gündəlik beş vaxt namaz, bir Cümə namazı digər Cümə namazına qədər və bir Ramazan da növbəti Ramazan ayına qədər böyük günahlardan çəkinmək şərti ilə aralarında olan kiçik günahlara kəffarədir (yəni bağışlanmasına səbəbdir)".*[246]

• ***"Böyük günahlardan tövbə etməyən kəsləri isə Öz istəyi altına almışdır".***

Böyük günah sahibi olan müsəlman işlədiyi günahından dolayı tövbə etmədən vəfat edərsə, onun işi Allaha qalar. İstəsə, onu bağışlayar və Cənnətinə salar, istəsə, işlədiyi günahından dolayı onu cəzalandırar. Uca Allah buyurur: *"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar".* [247] Peyğəmbər ﷺ demişdir: *"Allaha heç bir şeyi şərik qoşmayacağınıza, oğurluq və zina etməyəcəyinizə, övladlarınızı öldürməyəcəyinizə, yalan uydurub (kimsəyə) böhtan atmayacağınıza, şəriətin buyurduqlarından boyun qaçırmayacağınıza dair mənə beyət edin – sədaqət andı için! Sizlərdən hər kim bu əhdə vəfa etsə, onun savabını Allah verər. Kim də bu günahlardan birini edib sonra dünyada ikən cəzalandırılsa, bu onun üçün kəffarə (günahlarının təmizlənməsi üçün səbəb) olar. Kim bu günahlardan birini etdikdən sonra Allah onu gizlədərsə, onun işi Allaha qalar. İstəsə, onu bağışlayar, istəsə, onu cəzalandırar".*[248]

• ***"Allah, kimi Cəhənnəm odu ilə cəzalandıracaqsa, oradan onu sahib olduğu imanı səbəbilə çıxaracaq və Cənnətinə daxil edəcəkdir".***

Deməli, kim böyük günah işləsə və tövbə etsə, Allah onun tövbəsini qəbul edər və onu bağışlayar. Kim tövbə etmədən böyük günahı ilə Rəbbinin hüzuruna çıxsa, artıq onun işi Allaha qalar. İstəsə, onu Öz rəhməti ilə əfv edər və cəzalandırmadan Cənnətinə salar, istəsə, onu Cəhənnəm əzabı ilə cəzalandırar. Lakin Uca

---

[246] Müslim (233)
[247] Ən-Nisə: 48
[248] Buxari (18) və Müslim (1709)

Allahın Cəhənnəm əzabı ilə cəzalandırdığı bəndələrinin hamısı eyni səviyyədə və eyni hökmdə deyildir. Belə ki, kafirlər və münafiqlər Cəhənnəmdə əbədi qalacaqları halda, böyük günah sahibi olan müsəlmanlar Cəhənnəmdə əbədi qalmayacaqlar. Əksinə, günahına görə Cəhənnəmə daxil olan hər bir müsəlman asilikləri qədərincə əzab çəkdikdən sonra sahib olduğu imanı səbəbilə oradan çıxacaq və Cənnətə daxil olacaqdır. Nəticədə, qəlbində zərrə qədər imanı olan heç kəs Cəhənnəmdə əbədi qalmayacaqdır. *"Zərrə qədər yaxşılıq edən onun əvəzini alacaqdır".*[249] Bu, Uca Allahın iman əhlinə olan lütfü və mərhəmətidir. Peyğəmbər ﷺ demişdir: *"Cəhənnəmdən «Lə İləhə İlləllah» - deyib də qəlbində arpa ağırlığında xeyir daşıyan kəslər çıxacaqlar. Sonra isə Cəhənnəmdən odundan «Lə İləhə İlləllah» - deyib də qəlbində buğda ağırlığında xeyir olan kəslər, daha sonra isə «Lə İləhə İlləllah» - deyib də qəlbində zərrə ağırlığında xeyir olan kəslər çıxacaqlar".*[250] Müəllifin də qeyd etdiyi kimi, Uca Allah ***"Peyğəmbərin ﷺ öz ümmətindən böyük günah sahibləri üçün edəcəyi şəfaət səbəbilə də Cəhənnəmdən bəzi insanları çıxaracaqdır".*** Peyğəmbər ﷺ demişdir: *"Mənim şəfaətim ümmətimdən böyük günah sahibləri üçündür".*[251]

[249] Əz-Zəlzələ: 7
[250] Buxari (7410) və Müslim (325)
[251] Tirmizi (2435), Əbu Davud (4739), Əlbani "Səhihul-cəmi" (3714)

📖 **Uca və Nöqsansız olan Allah artıq Cənnəti xəlq etmiş və onu Özünün sevdiyi qulları üçün bir əbədiyyət diyarı olaraq hazırlamışdır. Orada onlara Özünün Kərim olan Camalına baxmağı lütf edəcəkdir. O Cənnət Allahın əzəli elminə əsasən Öz nəbisi və xəlifəsi olan Adəmi içərisindən çıxarıb, yer üzünə göndərdiyi həmin Cənnətdir. Həmçinin O, Cəhənnəmi xəlq etmiş və onu Özünü inkar edən, ayələrinə, göndərdiyi kitablarına və peyğəmbərlərinə inanmayan kəslər üçün bir əbədiyyət diyarı olaraq hazırlamışdır. Həmin kafirləri isə Öz Camalına baxmaqdan məhrum etmişdir.**

✍ Burada müəllif bir neçə məsələyə toxunmuşdur. Onlardan birincisi, Cənnət və Cəhənnəmin artıq yaradılmış olması məsələsidir. Bununla o, Cənnət və Cəhənnəmin hələ yaradılmadığını və Qiyamət günü yaradılacağını deyən Mötəzilə və Cəhmiyyə firqələrinə cavab vermiş olur. Uca Allah buyurur: *“Kafirlər üçün hazırlanmış Cəhənnəm odundan çəkinin”*[252]; *“Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin”.*[253]

• Müəllifin qeyd etdiyi ikinci məsələ, Cənnət və Cəhənnəmin əbədi olması məsələsidir. Uca Allah buyurur: *“Həqiqətən, Kitab əhlindən və müşriklərdən inkar edənlərin məskəni Cəhənnəm odu olacaq və orada əbədi qalacaqlar. Onlar məxluqatın ən pisləridir. Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər məxluqların ən yaxşısıdırlar. Onların Rəbbinin yanındakı mükafatı ağacları altından çaylar axan, içində əbədi qalacaqları Ədn bağlarıdır”.*[254]

• Müəllifin qeyd etdiyi üçüncü məsələ isə atamız Adəmin عليه السلام çıxardıldığı cənnətin[255] hansı cənnət olması ətrafındadır. Bu barədə Əhli-sünnət alimlərinin iki məşhur rəyi vardır:

- Müəllifin də qeyd etdiyi kimi, həmin cənnət bildiyimiz əbədiyyət Cənnətidir;

---

[252] Ali-İmran: 131
[253] Ali-İmran: 133
[254] Əl-Beyyinə: 6-8
[255] Cənnət sözünün mənası bağ, bağça deməkdir.

- O cənnət Allahın atamız Adəm və anamız Həvva üçün yaratdığı və onların imtahan olunduqları xüsusi bir məkandır.

Bu məsələdə doğru olan rəy müəllifin də qeyd etdiyi birinci rəydir. Peyğəmbər ﷺ demişdir: *"Uca Allah (Qiyamət günü məhşərdə) bütün insanları bir araya toplayacaq. Möminlər qalxar və Cənnət onlara yaxınlaşdırılar. Onlar Adəmin* ﵇ *yanına gedərək ona belə deyərlər: «Ey atamız, bizə görə Cənnətin (qapılarının) açılması üçün şəfaətçi ol!» O isə belə deyər: «Məgər sizi Cənnətdən çıxardan səbəb atanız Adəmin xətası deyildimi?!»..."*[256]

• Müəllifin qeyd etdiyi sonuncu – dördüncü məsələ isə "Ruyətullah" – Qiyamət günü Uca Allahın möminlər tərəfindən görülməsi məsələsidir. Belə ki, Cənnət əhli Uca Allahın Camalına baxacaq və bu onlar üçün Cənnət nemətlərinin ən əzəmətlisi olacaqdır. Ruyətullah Quranla, səhih və mütəvatir hədislərlə və sələfin icması ilə sabit olan bir məsələdir. Bu barədə Uca Allah buyurur: *"O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır".*[257] Həmçinin kafirlər barədə belə demişdir: *"Xeyr, o gün onlarla Rəbbi arasına pərdə çəkiləcək!"*[258] Ayədə Qiyamət günü Allahla məhz kafirlər arasında pərdə çəkiləcəyindən bəhs edilir. Bu da kafirlərin Onu görməyəcəklərinə, möminlərin isə Onu görəcəklərinə dair açıq bir dəlildir. Digər bir ayədə Rəbbimiz belə buyurur: *"Kim Rəbbi ilə görüşəcəyinə ümid bəsləyirsə, yaxşı işlər görsün və ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"*[259] Ayədə qeyd edilən "Allahla görüş" Onu görməni də ehtiva edir. Belə ki, görmə olmadan görüş olmaz. Uca Allah buyurur: *"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı (Allahı görmək) vardır"*[260]; *"Yaxşı iş görənlər üçün ən gözəli (Cənnət) və bundan da artığı (Allahı görmək) vardır".*[261] Peyğəmbər ﷺ də bu ayədə zikr olunan (الحسنى) "ən gözəl"

---

[256] Müslim (329)
[257] Əl-Qiyamə: 22-23
[258] Əl-Mutaffifin: 15
[259] Əl-Kəhf: 110
[260] Qaf: 35
[261] Yunus: 26

kəlməsini Cənnət, (الزيادة) “artıq” ləfzini isə Uca Allahı görmək kimi təfsir etmişdir.[262] Bu məsələdə Əhli-sünnətə cəhmilər, mötəzililər, şiələr və onlara tabe olan digər firqələr müxalif olmuşdur. Onlar məsələ ilə əlaqədar Uca Allahın bu kəlamını dəlil kimi qeyd etmişlər: *“Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. Musa dedi: «Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım». O dedi: «Sən məni görə bilməzsən. Lakin dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən». Rəbbi dağa göründükdə onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: «Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!»”*[263] Belə ki, ayədə zikr olunan (لَن تَرَانِي) ibarəsi “*sən məni əsla görə bilməzsən”* mənasındadır və bu, Uca Allahın nə bu dünyada, nə də Axirətdə görülməyəcəyinə dair açıq bir dəlildir. Bu şübhəyə Əhli-sünnət alimləri bir neçə yöndən cavab vermişlər:

**1.** Qeyd edilən ayə əslində Uca Allahın görülməyəcəyinə deyil, əksinə, görüləcəyinə dair açıq bir dəlildir. Belə ki, cəhmilərə görə, Musa ﵇ *“Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım”* deməklə Rəbbindən Onun şəninə layiq olmayan və Onun barədə mümkünsüz olan bir şeyi tələb etmişdir. Çünki onlara görə, belə bir tələblə Allahdan yeməsini, içməsini yaxud yatmasını tələb etmək arasında elə də böyük bir fərq yoxdur. Yəni bütün bunlar Uca Allah barədə mümkünsüz olduğu kimi, Onun görülməsi də mümkünsüzdür. Məlumdur ki, Musa ﵇ Rəbbi barədə nəyin mümkün olub-olmadığını cəhmilərdən daha yaxşı bilirdi və o, Rəbbindən ona görülməsini istəmişdi. Əgər Allahın görülməsi mümkünsüz bir şey olsaydı, Musa ﵇ heç vaxt belə bir təmənni içərisində olmazdı. Sizcə, hər hansı bir peyğəmbər Rəbbindən yeməsini, içməsini tələb edə bilərmi? Əsla! Bəs sizə görə, Allah barədə mümkünsüz və Onun şəninə yaraşmayacaq bir şeyi Musa ﵇ Rəbbindən necə istəmişdir?!

---

[262] Bax! Müslim (297 və 298)
[263] Əl-Əraf: 143

2. Bir anlıq belə fərz edək ki, Musa ﷺ Rəbbindən Onun şəninə layiq olmayan bir şeyi istəmiş və "cahillik" etmişdir. Bəs nə üçün Rəbbi onu bu "batil" istəyinə görə qınamadı?! Necə ki Nuhu ﷺ qınamışdı: *"Nuh Rəbbini çağırıb dedi: «Ey Rəbbim! Axı oğlum da mənim ailəmdəndir. Sənin vədin, şübhəsiz ki, haqdır. Sən hakimlərin ən hikmətlisisən!» O dedi: «Ey Nuh! O, sənin ailəndən deyildir. Doğrusu, bu, pis bir işdir. Elə isə bilmədiyin bir şeyi Məndən istəmə. Həqiqətən də, Mən sənə cahillərdən olmamağı tövsiyə edirəm». O dedi: «Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram»".*[264] Necə olur ki, kiçik bir səhvinə və xətalı istəyinə görə Nuhu ﷺ qınayan Allah bu böyüklükdə olan "xəta"ya görə Musanı ﷺ qınamadı?! Çünki Musanın ﷺ Rəbbindən tələb etdiyi şey əsli etibarilə mümkünsüz və Allahın şəninə layiq olmayan bir şey deyildir. Mümkünsüz olan şey məhz Musanın ﷺ bu dünyada Rəbbini görə biləcək gücdə və qabiliyyətdə olmaması idi ki, bu istiqamətdə də Rəbbi onu tərbiyələndirdi. "*Rəbbi dağa göründükdə onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: «Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!»"*
3. Uca Allah sadəcə olaraq, *"Məni görə bilməzsən"* dedi. Amma *"Mən görülmərəm", "Mənim görülməyim imkansızdır"* və ya *"Mən görülən bir varlıq deyiləm"* demədi. İki cavab arasındakı fərq isə son dərəcə açıqdır. Necə ki bir nəfərin çantasında bir daş olsa və bir başqası da çantada olan həmin şeyin bir meyvə olduğunu zənn etsə və *"Onu mənə ver, yeyim"* desə, bu tələbə veriləcək doğru cavab: *"Bu yeyiləcək, yaxud yeyiləsi bir şey deyil"* şəklindədir. Yox, əgər həmin şey həqiqətən də meyvə olsaydı, o zaman ona veriləcək doğru cavab belə olardı: *"Sən onu yeyə bilməzsən, bu sənlik deyil"*. Deməli, Uca Allahın *"Məni görə bilməzsən"* deməsi Onun görülən bir varlıq olmasına dəlildir.
4. Uca Allah "*Lakin dağa bax. Əgər o öz yerində qala bilsə, sən də Məni görəcəksən"* buyurdu və rəsulu Musaya ﷺ öyrətdi ki,

---

[264] Hud: 45-47

möhkəmliyinə və böyüklüyünə baxmayaraq dağ belə bu dünyada Onun təcəllisi qarşısında sabit dura bilməzsə, zəif bir məxluq olan insan necə sabit dursun?![265] Allahın "*lakin dağa bax!*" əmrindəki hikmət və incə məqam məhz budur.

**5.** Uca Allah Özünün görülməsini dağın yerində dura bilməsinə bağlamış və belə demişdir: "*Əgər o öz yerində qala bilsə, sən də Məni görəcəksən*". Dağın öz yerində sabit qalması isə əsli etibarilə mümkünsüz bir şey deyildir. Yəni Uca Allah istəsəydi, dağı yerində sabit saxlaya bilərdi. Ona bu dözümü, bu sabitliliyi verə bilərdi. Bir şeyin mümkünlüyünü qeyri-mümkün bir şeyə bağlamaq həmin şeyin mümkünsüz olduğunu tələb etdiyi kimi, mümkün olan bir şeyə bağlamaq da həmin şeyin mümkün olduğunu tələb edir. Bu, məntiqdə bilinən bir qaydadır və Quranda da bunun misalları vardır. Məsələn, Uca Allahın bu kəlamı kimi: *"Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara təkəbbürlüklə yanaşanlara göyün qapıları açılmayacaq və dəvə iynənin gözündən keçməyincə onlar Cənnətə girməyəcəklər".*[266] Uca Allah bu ayədə kafirlərin Cənnətə girmələrini dəvənin iynənin gözündən keçməsinə, yəni mümkünsüz bir şeyə bağlamışdır. Beləcə aydın olur ki, kafirlərin Cənnətə girmələri mümkünsüz bir şeydir. Musanın ﷺ qissəsində isə Uca Allah öz görülməsini əsli etibarilə mümkün olan bir şeyə bağlamışdır. Deməli, Onun görülməsi də mümkündür. Əgər bu mümkünsüz bir şey olsaydı, o zaman bu *"əgər dağ yerində qala bilsə, mən yeyəcəm, içəcəm, yaxud yatacam"* deməyə bənzəyərdi. Çünki cəhmilərə görə, Allahın görülməsi də eyni ilə bu cür mümkünsüzdür. Deməli, Uca Allahın "*əgər dağ yerində qala bilsə, mən yeyəcəm, içəcəm, yaxud yatacam*" deməsi heç bir yöndən Onun şəninə yaraşmaz. Lakin O "*əgər dağ öz yerində qala bilsə, sən də Məni görəcəksən*" demişdir. Buradan da aydın olur ki, bu Uca Allahın şəninə yaraşan və Onun barəsində mümkün olan bir şeydir.

---

[265] *"İnsan zəif yaradılmışdır"* (ən-Nisə: 28)
[266] Əl-Əraf: 40

6. “*Rəbbi dağa göründükdə onu parça-parça etdi”*. Ayənin bu hissəsi dəlildir ki, Uca Allahın görünməsi əsli etibarilə mümkünsüz bir şey deyildir. Çünki O, dağa görünmüşdür. Dünyada cansız bir dağa görünməsi mümkün olan Allahın Axirət həyatında sevdiyi və seçdiyi qullarına görünməsi nə üçün mümkünsüz olsun?!
7. Uca və Əzəmətli olan Allah Musa ﷺ ilə danışmış, ona səslənmişdir. Müxatəbinə vasitəsiz olaraq öz kəlamını eşitdirən bir varlığın görülməsi də mümkündür. Ona görə də, Allahın danışması inkar olunmadıqca, görülməsinin də inkar olunması qeyri-mümkündür. Elə bu səbəbdən dolayı cəhmilər və onların izi ilə gedənlər hər iki məsələni də Allah barədə mümkünsüz saymışdır.
8. Mötəzilələrin “(لَن تَرَانِي) “*sən məni görə bilməzsən”* ibarəsindəki “لَن” ədatı “əbədi inkarlıq” ifadə edər və beləcə *“sən məni əbədiyyən görməyəcəksən”* mənasını verər” formasındakı iddialarına gəlincə bu dilçilik baxımından qətiyyən doğru deyildir.[267] Əksinə, “لَن” ədatı onun inkar mənasını qüvvətləndirəcək kəlmə ilə yanaşı işlənsə belə, “əbədi inkarlıq” mənasını verməz, tək işləndiyi halda necə “əbədi inkarlıq” mənasını versin?! Necə ki Uca Allah kafirlər haqqında xəbər verərək buyurur: #وَلَن يَتَمَنَّوْهُ أَبَدًا$ *“Onu (ölümü) əbədiyyən istəməzlər”*.[268] Bu ayədə kafirlərin ölümü təmənni etməyəcəkləri həm “لَن” ədatı ilə, həm də onun mənasını gücləndirəcək (أبدا) “əbədiyyən” ləfzi ilə ifadə olunmuşdur, buna rəğmən yenə də “لَن” ədatı burada “əbədi inkar” mənasını ifadə etməmişdir. Çünki Uca Allah başqa bir ayədə kafirlərin Cəhənnəmdə ölümü təmənni edəcəklərini qeyd edərək

[267] Dilçi alim Cəmalüddin ibn Malik “əl-Kəfiyətuş-şəfiyə” 3/1515-də demişdir:

و من رأى النفي ب "لن" مؤبدا ..... فقوله اردد وخلافه اعضدا

*Tərcüməsi:* “Lən”in əbədi inkar ifadə etdiyini deyən kəsin sözünü rədd et və o sözün əksi olan rəyi dəstəklə!”

[268] Əl-Bəqərə: 95

buyurur: *“Onlar Cəhənnəm gözətçisini çağırıb deyəcəklər: «Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!» O isə: «Siz burada əbədi qalacaqsınız!» – deyəcək”*[269]*; “O gün insan öz əlləri ilə nələr etdiyini görəcək, kafir isə deyəcəkdir: «Kaş mən torpaq olaydım!»”*[270] Deməli, “لَن” ədatı “əbədi inkarlıq” ifadə etməz və Uca Allahın Musaya ﷺ *“sən Məni görə bilməzsən”* sözü bu dünyaya aiddir. Peyğəmbər ﷺ demişdir: *“Bilin ki, sizlərdən heç bir kəs ölənəcən (bu dünyada) Rəbbini görməyəcəkdir”.*[271]

Bu mövzu ilə əlaqədar müxaliflərin dəlil olaraq irəli sürdükləri ikinci bir ayə də var: *“Gözlər Onu dərk etməz. O, gözləri dərk edər”.*[272] Bu ayənin müxaliflərimizin lehinə dəlil olacaq bir tərəfi yoxdur. Çünki görmək ayrı bir şey, idrak etmək isə başqa bir şeydir. Onun idrak edilməz olduğunun bildirilməsi görülməz olduğunu ifadə etməz. Ayənin mənası isə belədir: Gözlər Onu görəcəkdir, lakin bu görmə ilə Onu əhatə etməyəcək və varlığının mahiyyətini dərk edə bilməyəcəkdir. Necə ki ağıllar Onu tanıyar, qəlblər Ona iman edər, amma bu elm ilə Onu əhatə edə bilməzlər. Deməli, O görüləcək, lakin dərk edilməyəcəkdir.

---

[269] Əz-Zuxruf: 77
[270] Ən-Nəbə: 40
[271] Müslim (7356)
[272] Əl-Ənam: 103

📖 **Uca və Mübarək olan Allah Qiyamət günü mələklər səf-səf düzüldüyü halda, insanlara əməllərini ərz etmək, onları hesaba çəkmək, cəzalandırmaq və mükafatlandırmaq üçün gələcəkdir. Bəndələrin əməllərinin çəkilməsi üçün Tərəzilər qurulacaqdır. Tərəzisi ağır gələnlər, məhz onlar nicat tapan kəslərdir. Həmçinin onlara əməl dəftərləri veriləcəkdir. Kimin kitabı sağ tərəfdən veriləcəksə, yüngül bir şəkildə hesaba çəkiləcəkdir. Kimin kitabı arxasından veriləcəksə, həmin kəs yaxıcı oda atılacaqdır.**

✍ Uca Allahın Qiyamət günü bəndələri arasında hökm verməsi üçün gəlməsi Onun feili sifətlərindəndir. Kəlam və bidət əhlinin iddia etdiyi kimi, bunun mənası "Allahın əmrinin, yaxud əzabının gəlməsi" və ya "mələklərinin gəlməsi" deyildir. Uca Allah buyurur: *"Yoxsa onlar ancaq ya mələklərin, ya Rəbbinin və yaxud da Rəbbinin bəzi əlamətlərinin gəlməsini gözləyirlər?"*[273] Belə ki, bu ayədə mələklərin gəlişi ilə Allahın, yaxud Onun bəzi əlamətlərinin gəlməsi bir yerdə zikr edilmişdir. Bu da Uca Allaha aid edilən "gəlmək" feilinin Onun şəninə layiq olan həqiqi bir sifət olduğuna dəlalət edir. Uca Allah buyurur: "*Yoxsa onlar Allahın bulud kölgələri içində mələklərlə birgə gəlməsini və işin tamam olmasını gözləyirlər?"*[274] Yəni kafirlər Allahın onlardan haqq-hesab çəkməsi üçün bulud kölgələri içində mələklərlə birlikdə gəlməsini və onların arasında Öz hökmünü verməsini gözləyirlər? Bütün bunlar isə Qiyamət günü baş verəcəkdir. *"Qiyamət günü Uca Allah bütün insanları qırx il ayaq üstə, gözləri səmaya dikəlmiş vəziyyətdə, hesab anını gözlədikləri halda məhşər yerində toplayacaqdır. Daha sonra Uca Allah bulud kölgələri içərisində Ərşdən Kürsüyə enəcəkdir..."*[275] *"O gün, göy buludla yarılacaq və mələklər sıra-sıra endiriləcəkdir. Həmin gün gerçək*

---

[273] Əl-Ənam: 158
[274] Əl-Bəqərə: 210
[275] Təbərani "əl-Mucəmul-kəbir" (9763), Dəraqutni "Ruyətullah" (163), Əlbani "Səhihut-tərğib" (3591)-də hədisin səhih olduğunu qeyd edir.

*hökm vermək ancaq Rəhmana məxsusdur."* [276] Mələklər təzim qəsdi ilə səf-səf düzüldükləri halda, Uca Allah qulları arasında hökm vermək üçün gələcəkdir. *"Rəbbin gəlib, mələklər səf-səf düzüldükdə"*[277] ;*"Ruhun (Cəbrailin) və mələklərin səf-səf duracağı gün Rəhmanın izin verdiyi kimsələrdən başqa heç kəs danışmayacaqdır".*[278] Uca Allah həmin haqq-hesab gününü bu cür vəsf edir: *"Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar! Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, əməllər yazılmış kitab hər kəsin qarşısına qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir. Hər kəsə öz əməlinin əvəzi tam veriləcəkdir. Allah onların nə etdiklərini yaxşı bilir".* [279] Peyğəmbər ﷺ demişdir: *"Qiyamət günü bəndə ömrünü necə keçirdiyi, elmi ilə əməl edib-etmədiyi, malını haradan qazandığı və hara xərclədiyi və bədənini nəyə sərf etdiyi barədə sorğu-sual olunmamış yerindən tərpənməyəcəkdir"*[280]; *"Sizlərdən elə bir kəs olmayacaq ki, Rəbbi onunla aralarında heç bir tərcüməçi olmadan danışmasın. Sağına baxacaq, öz əməllərindən başqa bir şey görməyəcək; sonra soluna baxacaq, öz əməllərindən başqa bir şey görməyəcək; daha sonra önünə baxacaq və Cəhənnəmlə üzbəüz gələcək. Sizlərdən kim özünü yarım xurma ilə də olsa, Cəhənnəmdən qurtara bilərsə, qoy eləsin!"*[281] Müəllifin də qeyd etdiyi kimi, Qiyamət günü haqq-hesabın çəkilməsi iki formada olacaqdır:

- Əməllərin bəndəyə ərz edilməsi yolu ilə hesaba çəkmək;
- Əməllər üzərində münaqişə etmək yolu ilə hesaba çəkmək.

Birincisi, Allahın mömin və müttəqi qullarına, ikincisi isə kafirlərə və asi bəndələrə aiddir. Belə ki, Qiyamət günü *"Uca Allah mömin*

---

[276] Əl-Furqan: 25-26
[277] Əl-Fəcr: 22
[278] Ən-Nəbə: 38
[279] Əz-Zumər: 68-70
[280] Tirmizi (2417), Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.
[281] İbn Macə (185), Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.

*bəndəsini Özünə yaxınlaşdıracaq, Öz örtüsünü onun üstünə qoyaraq onu gizlədəcək və belə deyəcəkdir: "Filan günahını bilirsənmi, filan günahını bilirsənmi?" Deyər ki, bəli, ey Rəbbim. Bəndə günahlarını etiraf edə-edə sonda elə zənn edər ki, artıq həlak olacaq. Uca Allah isə ona belə deyər: Dünyada ikən bütün bu günahlarını insanlardan gizlədiyim kimi, bu gün də onları sənin üçün bağışlayıram".*[282] Hədisdə zikr edilən hesab yuxarıda qeyd edilən birinci formadır. Aişə anamız Peyğəmbərin ﷺ belə dediyini rəvayət edir: *"«Qiyamət günü hesaba çəkiləcək hər kəs həlak olacaqdır». Mən dedim ki, ey Allahın rəsulu, məgər Uca Allah «Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu-suala tutulacaq»*[283]*, – demirmi? Peyğəmbərin ﷺ cavabında belə dedi: «Bu, (yəni ayədə zikr olunan hesab) əməlləri ərz etmək yolu ilə olan hesabdır. Qiyamət günü münaqişə yolu ilə hesaba çəkiləcək kəslərə gəldikdə isə onlar mütləq əzab olunacaqlar»".*[284]

●***"Bəndələrin əməllərinin çəkilməsi üçün tərəzilər qurulacaqdır. Tərəzisi ağır gələnlər, məhz onlar nicat tapan kəslərdir".***

Müəllif bu sözləri ilə tərəzini inkar edən və "tərəziyə Allahın yox, bazar əhlinin ehtiyacı var" deyən Cəhmiyyə firqəsinə cavab verir. Əhli-sünnət Qiyamət günü insanların pis və yaxşı əməllərinin çəkilməsi üçün haqq-ədalət tərəzilərinin qurulacağına iman edir. Bu, Allahın buna ehtiyacı olduğuna görə deyil, məhz insanların özlərinin öz əməllərinə qarşı şahid tutulması üçündür. Bu, Uca Allahın ədalətinin kamilliyindəndir. Mizanın – tərəzinin haqq olduğuna dəlalət edən bir çox ayə və hədis mövcuddur. Belə ki, Uca Allah buyurur: *"O gün əməllərin tərəzidə çəkilməsi bir həqiqətdir. Tərəziləri ağır gələnlər – məhz onlar nicat tapanlardır. Tərəziləri yüngül gələnlər isə ayələrimizə qarşı haqsızlıq etdiklərinə görə özlərini ziyana uğradanlardır"*[285]; *"Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər*

[282] Buxari (2441) və Müslim (2768)
[283] Əl-İnşiqaq: 7-8
[284] Buxari (6536) və Müslim (2876)
[285] Əl-Əraf: 8-9

*hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik".*[286] Səhabə Abdullah bin Abbas ﷺ tərəzinin vəsfi barədə belə demişdir: *"Tərəzinin bir dili və iki gözü olacaq. Bir gözünə saleh əməllər, digərinə isə asiliklər qoyulacaq".*[287] Tərəzidə bəzən əməl dəftərləri, bəzən əməllərin özü, bəzən də əməlin sahibi çəkiləcəkdir. Bütün bunların hamısı səhih sünnətdə varid olmuşdur.

- ***Tərəzidə əməl dəftərlərinin çəkiləcəyinə dair bu hədisi qeyd etmək olar:*** *"Uca Allah Qiyamət günü bütün insanların gözü önündə ümmətimdən bir nəfəri hesaba çəkmək üçün çağıracaq və onun önünə günah əməllərlə dolu və hər biri gözünün gördüyü son həddə qədər olan əməl dəftərlərini qoyacaqdır. Sonra ona belə deyəcəkdir: «Bu əməllərdən nəyisə inkar edirsənmi? Qulun əməllərini yazan mələklər sənə zülm ediblərmi?» O da «xeyr, ey Rəbbim», – dedikdə, Uca Allah belə buyurar: «(Bütün bu asiliklərin müqabilində) sənin bir bəhanən, yaxud hər hansı bir saleh əməlin varmı?» Həmin insan da qorxu içərisində həyacanlı bir şəkildə «xeyr, ey Rəbbim», – deyər. Uca Allah ona belə deyər: «Əksinə, Bizim yanımızda sənin bir xeyir əməlin var və bu gün sənə zülm olunmayacaq». Həmin insan üçün içərisində "Əşhədu əllə iləhə illəllah və ənnə Muhəmmədən rəsulullah" yazılmış bir kağız parçası çıxarılacaqdır. Uca Allah buyurar: «Onu gətirin!» Həmin insan deyər ki, «ey Rəbbim, bu qədər günahlarla dolu əməl dəftərlərinin yanında bu kağız parçası nədir ki?!» Uca Allah buyurar: «Sənə zülm olunmayacaq». Daha sonra günahlarla dolu əməl dəftərləri tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyular və günahlarla dolu əməl dəftərləri yüngül, kağız parçası isə ağır gələr".*[288]

---

[286] Əl-Ənbiya: 47

[287] Beyhəqi "Şuabul-iman" 1/443

[288] Əhməd 2/213, Tirmizi (2639), İbn Macə (4300), Əhməd Şakir "əl-Müsnəd"in, Əlbani isə "İbn Macə"nin təhqiqində hədisin səhih olduğunu qeyd etmişdir.

- ***Tərəzidə əməllərin çəkiləcəyinə dair bu hədisləri qeyd etmək olar:*** *“Tərəzidə gözəl əxlaqdan daha ağır gələn başqa bir şey olmayacaqdır”*[289]*; “Mərhəmətli Allaha sevimli, dilə yüngül (yəni tələffüzü asan olan) və tərəzidə ağır gələn iki kəlmə (vardır ki, bunlar): “Sübhənallahi və bihəmdihi, sübhənallahil-əzim” (yəni Allah pak və müqəddəsdir! Allaha həmd olsun! Əzəmətli Allah pak və müqəddəsdir!)”*[290]*; “Təmizlik imanın yarısıdır. “Əlhəmdulilləh” kəlməsi isə tərəzini doldurar”.*[291]
- ***Tərəzidə əməl sahibin çəkiləcəyinə dəlalət edən dəlillər isə bunlardır:*** *“Qiyamət günü kök iri bədənli bir kişi gələr, lakin Allah qatında ağcaqanadın qanadı qədər çəkisi olmaz”*[292]*; “Bir gün Abdullah ibn Məsud ﵁ misvak*[293] *qoparmaq üçün ərak ağacına çıxmışdı. Ayaqları da çox nazik idi. Elə bu vaxt külək onun paltarının açılıb, ayaqlarının görünməsinə səbəb oldu. Onun nazik ayaqlarını görən camaat gülüşdü. Peyğəmbər ﷺ «nə üçün gülürsüz?», – deyə soruşduqda onlar «ayaqlarının nazikliyinə görə, ey Allahın nəbisi», – deyə cavab verdilər. Bu zaman Peyğəmbər ﷺ belə dedi: «Nəfsim əlində Olana (Allaha) and olsun ki, o iki ayaq Qiyamət günü tərəzidə Uhud dağından daha ağır gələcəkdir»”.*[294]

---

[289] Tirmizi (2003), Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.
[290] Buxari (7563) və Müslim (2694)
[291] Müslim (223)
[292] Buxari (4729) və Müslim (2785)
[293] Ərak (salvadora persica) ağacının budaqlarından hazırlanan diş təmizləmək üçün təbii fırça.
[294] Əhməd (3991), Tayəlisi (355), Bəzzar (2678), Əhməd Şakir “əl-Müsnəd”in təhqiqində, Əlbani “əl-İrva” (65) hədisin həsən olduğunu qeyd etmişlər.

**Sirat haqdır. Bəndələr onu əməllərinin miqdarı ölçüsündə keçəcəklər. Bu yolda nicat tapan kəslər belə onları Cəhənnəm odundan qurtaran sürətlərində müxtəlif olacaqlar. Bəzi insanları isə elə öz əməlləri oradaca həlak edəcəkdir.**

Müəllif bu sözləri ilə Siratı inkar edən bəzi Mötəzilə firqələrinə cavab verir. Sirat – Cəhənnəm üzərində qurulacaq hamar və sürüşkən, tükdən nazik və qılıncdan iti bir körpüdür. Sirat Qiyamət günü bəndənin haqq-hesabdan, sorğu-sualdan sonra keçəcəyi son mərhələdir. Belə ki, haqq-hesabın çəkilməsindən, əməl dəftərlərinin paylaşılmasından və əməllərin tərəzidə ölçülməsindən sonra hər kəs sirat üzərindən keçəcəkdir. Möminlər siratı keçib Cənnətə girəcəkləri halda, kafirlər elə sirat üzərindən Cəhənnəmə atılacaqlar. Onun vəsfi barədə Peyğəmbər ﷺ demişdir: *"Haqq-hesab bitdikdən sonra Cəhənnəm üzərində körpü qurulacaq və şəfaətə icazə veriləcəkdir. (Peyğəmbərlər isə) «Allahım, xilas et, xilas et!» – deyib dua edərlər. «Ey Peyğəmbər, körpü nədir?» – deyə soruşduqda Allah rəsulu ﷺ belə cavab verdi: «Ayağın büdrədiyi və sürüşdüyü bir yerdir. O yolun üzərində çəngəllər, qarmaqlar və dəmir tikanlar vardır. Bunlar Nəcd diyarında bitən və üzərində çoxlu tikanlar olan, Sədən deyilən bir bitkiyə bənzəyir. Möminlərdən kimisi onun üzərindən bir göz qırpımında, kimisi şimşəktək, kimisi külək sürətində, kimisi quş, kimisi cins at və kimisi də adi atlı kimi keçəcəklər (Digər rəvayətdə: elə insan olacaq ki, körpünü sürünərək keçəcək). Bu körpüdə kimisi sağ-salamat qurtulacaq, kimisi didik-didik ediləcək, lakin axırda xilas olacaq. Bəziləri də Cəhənnəm odunda qalaqlanacaqlar». Hədisin ravisi Əbu Səid əl-Xudri ؓ qeyd edir ki, mənə gəlib çatan məlumata əsasən, bu körpü tükdən nazik və qılıncdan iti olacaqdır*". [295] Əbu Hureyrənin ؓ rəvayət etdiyi hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: *"Ümməti ilə birlikdə bu körpüdən keçən peyğəmbərlərin birincisi mən olacam".* [296] Uca Allahın

---

[295] Müslim (302 və 329)
[296] Müslim (299)

*“İçinizdən hər kəs oraya (Cəhənnəmə) varid olacaqdır”* [297] ayəsinin təfsiri barədə alimlər ixtilaf etmişdir. Daha doğru rəyə əsasən, burada nəzərdə tutulan məna sirat üzərindən keçiddir. Çünki sirat üzərindən keçən hər kəs Cəhənnəmi görmüş və dolayısı ilə oraya varid olmuş sayılır. Peyğəmbər ﷺ demişdir: *“«Nəfsim əlində Olana and olsun ki, ağac altında (Hüdeybiyyədə) mənə beyət edənlərdən heç kəs Cəhənnəmə girməyəcəkdir». Hafsa anamız dedi ki, ey Allahın rəsulu, məgər Uca Allah “içinizdən hər kəs oraya (Cəhənnəmə) varid olacaqdır” demirmi? Peyğəmbər ﷺ belə cavab verir: «Allahın bu sözünü eşitməmisənmi? Sonra Biz müttəqiləri oddan xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik*[298]*»”.*[299]

---

[297] Məryəm: 71
[298] Məryəm: 72
[299] Müslim (2496), Əhməd 6/285 və 362

📖 **Peyğəmbərin ﷺ hovuzuna iman etmək vacibdir. Ümməti o hovuzun başına gələcəkdir. Onun suyundan içən bir daha susamayacaqdır. Dinini dəyişən və dində dəyişikliklər edən kəslər isə onun ətrafından qovulacaqdır.**

✍ Hovuz – Peyğəmbər ﷺ üçün məhşər yerində qurulacaq bir sututardır. Məhşər yerinin istisindən və dəhşətindən yorulan, susayan ümmətinin sorğu-sualdan sonra gəlib su içəcəkləri bir yerdir. Qiyamət günü hər bir peyğəmbərin özünəməxsus hovuzu olacaqdır. Bu hovuzların ən böyüyü və ətrafına ən çox adam yığılacaq olanı isə məhz peyğəmbərimiz Muhəmmədin ﷺ hovuzu olacaqdır. Onun hovuzunun suyu süddən ağ, baldan şirin və müşk qoxusundan daha ətirlidir. Onun suyundan içən bir daha susuzluğun nə olduğunu bilməz. Onun suyundan içən kəs daha sonra susadığından dolayı deyil, ləzzət duymasından dolayı su içəcəkdir. Hovuz dördbucaq formasındadır və ona gələn su Cənnətdən – Kövsər çayından[300] biri qızıl, digəri gümüş olan iki boru ilə gələr. Hovuzun qədəhləri göyün ulduzları kimi çox olacaqdır. Peyğəmbər ﷺ, hovuzunun vəsfi barədə belə demişdir: *"Hər bir peyğəmbərin Qiyamət günü hovuzu olacaq və onların hər biri hansının hovuzuna daha çox adam gələcək deyə öyünəcəkdir. Mən ümid edirəm ki, hovuzuna ən çox adam gələcək olan məhz mən olacam"*[301]; *"Hovuzumun böyüklüyü Əylə ilə Ədən şəhərləri arasındakı məsafə qədərdir. Nəfsim əlində olan Allaha and olsun ki, onun qədəhlərinin sayı ulduzların sayından çoxdur. Süddən daha ağ, baldan daha şirindir"*[302]; *"Hovuzumun uzunluğu bir aylıq məsafə qədərdir və bütün küncləri eynidir (digər rəvayətdə: eni ilə uzunluğu eynidir). Suyu gümüşdən daha ağ, qoxusu*

---

[300] Kövsər – Cənnətdə bir çaydır və Uca Allahın öz Rəsuluna ﷺ əta etdiyi Cənnət nemətlərindən biridir: *"Həqiqətən, Biz Kövsəri sənə bağışladıq"* (əl-Kovsər: 1).
[301] Tirmizi (2443), Əlbani hədisin səhih olduğunu demişdir.
[302] İbn Macə (4302), Əlbani hədisin səhih olduğunu demişdir.

*müşkdən daha ətirlidir. Qədəhləri səmanın ulduzları kimidir. Onun suyundan içən kəs ondan sonra heç vaxt susamaz".*[303]

- ***"Dinini dəyişən və dində dəyişikliklər edən kəslər isə onun ətrafından qovulacaqdır".***

Hovuz ətrafından qovulacaq olanlar üç qrup insan olacaqdır. Müəllif isə onlardan sadəcə ikisini qeyd etmişdir.

1. Peyğəmbərin ﷺ vəfatından sonra dindən dönüb mürtəd olanlar: *"Mən hovuzun başında dayanıb yanıma gələnlərə baxdığım halda, bəzi insanların mənə yaxınlaşmasına mane olunacaq. Mən deyəcəyəm: «Ey Rəbbim, bunlar axı məndən, mənim ümmətimdəndirlər». Mənə deyiləcəkdir: «Məgər sən onların səndən sonra nə etdiklərini bilmirsənmi?! Allaha and olsun, səndən sonra az keçmədən dinlərindən üz çevirdilər». Hədis rəvayətçilərindən İbn Əbu Məlikə adlı bir nəfər deyir: «Allahım, dinimizdən üz çevirməkdən (qorxub) sənə sığınırıq»".*[304]
2. Peyğəmbərin ﷺ ümmətindən olan bidətçilər: Çünki hədisin digər rəvayətlərində mələklərin Peyğəmbərə ﷺ belə deyəcəkləri qeyd edilir: "*(Mələklər) Mənə deyəcəklər: "Sən, onların səndən sonra nələr törətdiklərini (nə yeniliklər ortaya çıxartdıqlarını) bilmirsən".*[305]
3. Zülm əməllərində rəhbərlərə yardımçı olan kəslər: *"Məndən sonra yalançı və zülmkar əmirlər olacaqdır. Kim onlarla olub yalanlarını təsdiqləsə və onların zülm olan əməllərində onlara yardım etsə, o məndən və mən də ondan deyiləm. Belə birisi hovuz başına gələ bilməyəcək. Kim onlarla olmasa, yalanlarını təsdiqləməsə və onların zülm olan əməllərində onlara yardım etməsə, o məndən və mən də ondanam. Belə birisi hovuz başına gələcəkdir".*[306]

---

[303] Müslim (2292 və 2300)
[304] Buxari (6593) və Müslim (2293)
[305] Buxari (4740)
[306] Əhməd (18126), Nəsai (4207), Əlbani hədisin səhih olduğunu demişdir.

📖 **İman – dil ilə söyləmək, qəlbən ixlaslı olmaq və zahiri əzalar ilə əməl etməkdir. Əməllərin artması ilə iman artar, azalması ilə də azalar. Beləcə, imandakı azalma əməllərdə və artma da əməllərlə olur. İmanın sözü əməl olmadan, söz və əməl niyyət olmadan, söz, əməl və niyyət də sünnətə müvafiqlik olmadan kamil olmaz. Qiblə əhlindən heç kəs günahına görə kafir olmaz.**

✍ Müəllif bu sözləri ilə əməlin imandan olmadığını iddia edən, imanın artıb-azalmasını inkar edən Murciə firqəsinə cavab verir. Müəllifin də qeyd etdiyi kimi, Əhli-sünnətin ətiqadına əsasən, imanın tərifi: qəlb ilə etiqad, dil ilə iqrar və zahiri orqanlar ilə əməl etməkdir. [307] Quran və səhih sünnətin, habelə sələfdən nəql olunmuş çoxsaylı əsərlərin dəlalət etdiyi də məhz budur. Belə ki, Uca Allah buyurur: *"Allah sizin imanınızı (yəni namazınızı) puç etməz".* [308] Bu ayədə Uca Allah əməli, yəni namazı iman adlandırmışdır. Elə bu səbəbdən də imam Buxari özünün "əs-Səhih" əsərində namazın imandan olduğuna dair bir bölüm açmış və o bölümdə belə bir hədis qeyd etmişdir: Peyğəmbər ﷺ Mədinəyə hicrət edəndən sonra on altı, yaxud on yeddi ay Beytül-Məqdisə – yəhudilərin qibləsinə doğru namaz qılmışdır. Daha sonra Uca Allah onlara Kəbə evinə doğru namaz qılmağı əmr etmişdir. Təbii ki, səhabələrin içərisindən Beytül-Məqdisə doğru namaz qılıb, elə bu on altı ay ərzində vəfat edən, yaxud müşriklər tərəfindən öldürülən müsəlmanlar da olmuşdur. Səhabələr həmin müsəlmanların bu müddət ərzində qıldıqları namazları barədə fikirləşirdilər ki, görəsən, onların bütün bu illər ərzində etdikləri ibadətləri boşa gedib, yoxsa necə? Bu səbəb ilə Uca Allah bu ayəni endirdi: *"Allah sizin imanınızı (yəni namazınızı) puç etməz".* [309]

---

[307] Yaxud digər ibarə ilə desək, iman – söz və əməldir. Yəni qəlbin və dilin sözü, qəlbin və zahiri orqanların əməli. Hətta sələfdən bəziləri imanın tərifində demişdir ki, iman əməldir. Yəni qəlbin, dilin və zahiri orqanların əməli. İmanın tərifində sələfdən varid olan bütün bu təriflər zahirdə bir-birindən fərqli görülsə də, hamısının dəlalət etdiyi məna eynidir.

[308] Əl-Bəqərə: 143

[309] Buxari (40), hədisi məna ilə nəql etdim.

Peyğəmbər ﷺ demişdir: *“İman yetmiş və bir neçə (digər rəvayətdə: altmış və bir neçə) şöbədən ibarətdir. Onun ən üstün olanı “lə iləhə illəllah” sözü, ən aşağı şöbəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imandan bir şöbədir”.*[310] Fikir versək, görərik ki, bu hədis elə imanın tərifinə dəlalət edən bir hədisdir. Belə ki, “lə iləhə illəllah” sözü dilin iqrarına, “əziyyət verən şeyləri yoldan kənarlaşdırmaq” zahiri əməllərə, “həya” isə qəlbin əməlinə bir misaldır. Həmçinin bu hədisin dəlalət etdiyi mənalardan biri də budur ki, iman xəvaric və mötəzilələrin iddia etdikləri kimi, bir-birindən ayrılmaz vahid bir məfhum deyildir. Əksinə, imanın bir-birindən ayrı olan cüzləri, şöbələri və mərtəbələri vardır. Bu şöbələrin ən yüksəyi “lə iləhə illəllah” sözü, ən aşağı olanı isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Bu iki şöbə arasında yetmişdən çox şöbə vardır. İmanın şöbələri üç hissəyə bölünür:

1. Allaha, mələklərinə, nazil etdiyi kitablarına, peyğəmbərlərinə, Axirətə, qədərin xeyrinə və şərinə iman etmək, Allah qorxusu, Allah üçün sevmək və Onun üçün nifrət etmək, münkəri, yəni şəriətə müxalif olan bir şeyi qəlb ilə inkar edib ona qəzəb etmək, Allahın rəhmətinə ümid bəsləmək, Ona təvəkkül etmək, ixlaslı olmaq və həya kimi ***qəlbin etiqadı və əməlləri.***
2. “Lə iləhə illəllah” şəhadəti, Allahı zikr etmək, Ona dua etmək, tövbə və istiğfar, elm öyrənmək və öyrətmək, insanları Allahın nuruna – İslama çağırmaq, şəriətə müxalif olan münkər bir əməli dil ilə inkar etmək, müsəlman qardaşına nəsihət etmək və Quran tilavəti kimi ***dilə xas olan əməllər.***
3. Namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həcc və ümrə etmək, valideynlərə itaətkarlıq göstərmək, övlad tərbiyəsi, qohumluq əlaqələrini möhkəmləndirmək, münkəri əl ilə inkar etmək, əziyyət verən şeyləri yoldan kənarlaşdırmaq kimi ***zahiri orqanlara xas olan əməllər.***

İmanın şöbələrindən elə şöbələr vardır ki, bunları tərk etməklə insan bütünlüklə imandan xaric olur. Məsələn, Allaha, mələklərinə, nazil etdiyi kitablarına, peyğəmbərlərinə və s. iman

---
[310] Müslim (58)

etmək, "lə iləhə illəllah" şəhadətini dilə gətirmək və bu kimi digər şöbələr. Bütün bunlar imanın əslini təşkil edən şöbələrdir. Elə şöbələr vardır ki, onları tərk etməklə insan imandan çıxmır, lakin tərk etdiyi həmin şöbə nisbətində onun imanı azalır. Misal olaraq, oruc tutmaq, zəkat vermək, elm öyrənmək və öyrətmək, valideynlərə itaətkarlıq göstərmək və s. əməllər. Bu əməllər imanın əsli (kökü) yox, fəri (budaqları) sayılır. Deməli, iman həm də əsli və fəri olaraq iki hissəyə bölünür.[311] Həmçinin burada bəzi əməllər, imanın bəzi şöbələri vardır ki, alimlər həmin əməllərin imanın əslindənmi, yoxsa fərindənmi olduğu mövzusunda ixtilaf etmişlər. Namazı buna misal göstərmək olar. İmanın tərifinə və əməlin imandan olmasına dəlalət edən hədislərdən biri də Peyğəmbərin ﷺ bu kəlamıdır: *"Kim şəriətə müxalif bir əməl görsə, onu əli ilə dəyişsin, əgər buna gücü çatmazsa, dili ilə, buna da gücü çatmazsa, qəlbi ilə onu dəyişsin (yəni qəlbi ilə o əməli inkar etsin). Bu isə imanın ən zəif dərəcəsidir".*[312] Burada Peyğəmbər ﷺ münkərə qarşı əl ilə, dil və qəlb ilə mübarizə aparmağı, hər üçünü də iman adlandırdı.

• Müəllifin də qeyd etdiyi kimi, ***"əməllərin artması ilə iman artar, azalması ilə də azalar. Beləcə, imandakı azalma əməllərdə və artma da əməllərlə olur".*** Yəni imanın şöbələrini təşkil edən qəlbi əməllər, dilə və zahiri orqanlara xas olan əməllər işləndikcə o nisbətdə insanın imanı artar. Həmin əməllər tərk olunduqca da imanın şöbələri boşalar və insanın imanı tərk olunmuş o əməllərə nisbətdə azalar. Misal olaraq, imanın şöbələrindən əllisinə əməl edən ilə qırxına əməl edən şəxsin imanı eyni ola bilməz. Çünki iman bu şöbələrdən ibarətdir. Əməl edildikcə sanki şöbələrin dolması ilə iman artır, əks halda isə azalır. Uca Allah buyurur:

---

[311] Beləcə, biz əməli imandan ayıran və buna dair Uca Allahın *"iman gətirib yaxşı işlər görənlər"* (ət-Talaq: 11) ayəsini dəlil olaraq gətirənlərin xətasını da anlamış oluruq. Çünki burada onların iddia etdikləri kimi Uca Allah əməli imandan ayırmamışdır. Əksinə, əsli imanı fəri imandan ayırmışdır. Yəni *"iman gətirib"* = əsli iman, *"yaxşı işlər görənlər"* = fəri iman. Hər ikisi də iman adlanır.

[312] Müslim (78)

*“Mömінlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbi qorxuya düşər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edərlər”*[313]*; “Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!" – dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!" – dedilər”.* [314] Peyğəmbər ﷺ demişdir: *“Allahın məndən əvvəlki ümmətlərə göndərdiyi hər bir peyğəmbərinin öz ümməti içərisindən onun əmrlərini yerinə yetirib, sünnətinə tabe olan dostları və həvariləri var idi. Onlardan sonra etməyəcəkləri şeyləri deyən və əmr olunmadıqları işləri görən bir nəsil gəldi (və gələcək də). Kim bunlarla əli ilə mübarizə apararsa, o, mömindir. Kim bunlarla dili ilə mübarizə apararsa, o, mömindir. Kim bunlara qəlbi ilə nifrət edərsə, o da mömindir. Ancaq bundan o yana imandan bir xardal dənəsi belə yoxdur”.*[315] Bu hədisdə Peyğəmbər ﷺ imanın azaldığını, onun xardal dənəsi qədər və hətta ondan da daha az ola biləcəyini bəyan etmişdir.

● ***“İmanın sözü əməl olmadan, söz və əməl niyyət olmadan, söz, əməl və niyyət də sünnətə müvafiqlik olmadan kamil olmaz”.***
İmanın kamil olması və sahibinə fayda verməsi üçün qəlbin etiqadı və dilin iqrarı ilə birlikdə əməlin də olması labüddür. Uca Allah buyurur: *“İman gətirib saleh əməllər işləyənlərin məskəni isə Firdovs bağları olacaqdır”.*[316] Həmçinin niyyət olmadıqca sözün və əməlin də bir faydası yoxdur. Çünki *“əməllər ancaq niyyətlərə görədir. Hər kəsə də yalnız niyyət etdiyi şey qalacaqdır”.*[317] Söz, əməl və niyyət isə sünnətə müvafiq olmadıqca heç bir fayda verməz və sünnətə müxalif olan əməllər qəbul olunmaz. Peyğəmbər ﷺ demişdir: *“Kim bizim bu işimizdə (yəni dində) ondan olmayan bir şeyi uydurarsa (digər rəvayətdə: kim bizim əmr etmədiyimiz bir işi edərsə), o əməl qəbul olunmaz”.*[318]

---

[313] Əl-Ənfəl: 2
[314] Ali-İmran: 173
[315] Müslim (80)
[316] Əl-Kəhf: 107
[317] Buxari (1) və Müslim (1907)
[318] Buxari (2697) və Müslim (1718)

• ***“Qiblə əhlindən heç kəs günahına görə kafir olmaz”.***
Müəllif bu sözləri ilə böyük günah sahiblərini kafir sayan Xəvaric məzhəbinə cavab verir. Böyük günah sahiblərinin kafir sayılmayacaqlarına dair ən böyük dəlillərdən biri İslam şəriətində tətbiq olunan hədd cəzalarıdır. Misal olaraq, İslam şəriətində evli zinakarın cəzası daşqalaq edilməklə öldürülməsidir. Cəzanın tətbiqindən sonra həmin kəsin cənazəsi yuyulur, cənazə namazı qılınır və müsəlman qəbiristanlığında dəfn edilir. Bu, Peyğəmbərin ﷺ zamanından bu günə qədər dəyişməz olaraq gələn bir qaydadır. Əgər zina edən kəs bu asiliyinə görə kafir olsaydı, o zaman onun cənazəsinin yuyulması, cənazə namazının qılınması və müsəlman qəbiristanlığında basdırılması icazəli olmazdı. Həmçinin şəriətin hədd cəzaları bəndənin həmin günahdan təmizlənməsi üçün bir kəffarədir ki, bu da məhz müsəlman olan kəslərə xasdır. Burada əlavə olaraq onu da qeyd etmək vacibdir ki, müəllifin qeyd etdiyi bu qayda məhz böyük küfr və şirk olmayan asiliklərə aiddir. Yəni bəndənin işlədiyi asilik nə qədər böyük olursa-olsun, fərq etməz, həmin asilik böyük şirk, yaxud küfr olmadıqca və həmin işlədiyi asiliyi halal saymadıqca, insan dindən çıxmaz və kafir olmaz. Belə ki, Uca Allah buyurur: *“Həqiqətən də, Allaha şərik qoşan kimsəyə Allah Cənnəti haram etmişdir və onun sığınacağ yeri Oddur”*[319]; *“Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, digər günahları isə istədiyi kimsəyə bağışlayar”.*[320]

---
[319] Əl-Maidə: 72
[320] Ən-Nisə: 48

📖 **Şəhidlər diridirlər, özlərinin Rəbbi qatında ruzilənirlər. Səadət əhlinin ruhları diriləcəkləri günə qədər nemət içərisindədir. Zillət əhlinin ruhlarına isə Qiyamət gününə qədər əzab olunmaqdadır. Mömünlər qəbirlərində imtahana çəkilər və sorğu-sual olunarlar.** ***"Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar"*** **(İbrahim: 27).**

✍ Müəllifin, ətrafında söhbət açdığı bu mövzu Bərzəx həyatı ilə əlaqəlidir. Bu həyat dünya həyatı ilə Axirət həyatı arasında olan bir qəbir həyatıdır. Necəliyini tam dərk edə bilmədiyimiz həqiqi bir həyatdır. Şəhidlər Bərzəx aləmində ən yüksək məqamlara yetişmiş kəslərdən sayılırlar və həqiqi şəkildə diridirlər. Çünki onların ruhları bədənsiz deyildir, Cənnət quşlarının cismindədir, həqiqi şəkildə Cənnətdə yaşayır və onun nemətlərindən ruzilənirlər. Uca və Əzəmətli Allah bu barədə belə buyurur: *"Allah yolunda öldürülənlərə: "Ölüdürlər!" deməyin. Əksinə, onlar diridirlər, lakin siz bunu hiss etmirsiniz"*[321]*; "Allah yolunda öldürülənləri əsla ölmüş sanma! Əksinə, onlar diridirlər; özlərinin Rəbbi qatında ruzilənirlər".*[322] Bu ayə barədə səhabə Abdullah ibn Məsuddan ﵁ soruşulduqda o belə cavab verdi: *"Onların (yəni şəhidlərin) ruhları yaşıl quşların içindədir. Onların Ərşdən asılmış qəndilləri (yuvaları) vardır. İstədikləri kimi Cənnətdə dolaşır və daha sonra həmin qəndillərə qayıdarlar".*[323] Müəllifin də qeyd etdiyi kimi, möminlər qəbirlərində nemət, kafirlər isə əzab içərisindədirlər.[324] Bu barədə Peyğəmbər ﷺ demişdir: *"Qəbir ya Cənnət bağlarından bir bağ, ya da Cəhənnəm çuxurlarından bir çuxurdur".*[325] Uca Allah belə buyurur: *"Onları səhər və axşam oda salırlar. O Saat (Qiyamət günü) gələcəyi vaxt: "Firon*

---

[321] Əl-Bəqərə: 154
[322] Ali-İmran: 169
[323] Müslim (1887)
[324] Cəhmiyyə və Mötəzilə məzhəbləri və onlara tabe olan firqələr qəbir əzabını və nemətini inkar etmişdir.
[325] Tirmizi (2460)

*camaatını ən şiddətli əzaba salın!” – deyilər”.*[326] Deməli, bu ayə Qiyamət qopanacan onların qəbirdə məhz səhər və axşam əzaba düçar olacaqlarını, Qiyamət günü isə onların daha da şiddətli bir əzaba məruz qalacaqlarını bəyan edir.[327] Digər ayədə isə belə deyilir: *“Kim Mənim Zikrimdən üz döndərsə, onun üçün sıxıntılı həyat olacaq...”*[328] Yəni Qiyamət qopmamışdan öncə. Çünki Uca Allah ayənin davamında belə buyurur: *“...və Biz Qiyamət günü onu kor olaraq hüzurumuza gətirdəcəyik".* Beləcə, bəlli olur ki, ayənin əvvəlində qeyd edilən “sıxıntılı həyat” məhz Qiyamət günündən öncəki həyatdır. Çünki biz bu dünyada rifah və bolluq içində yaşayan kafirləri və müşrikləri müşahidə edirik. Bununla da bizə aydın olur ki, ayədə qeyd edilən “sıxıntılı həyat” ibarəsindən məqsəd dünya həyatındakı ruzi darlığı və yaşam sıxıntısı deyildir. Deməli, “sıxıntılı həyat”dan məqsəd ölümdən sonrakı və Qiyamət günündən əvvəlki həyatdır. Abdullah ibn Məsud və Əbu Hureyrə ﵄ kimi səhabələr də Peyğəmbərin ﷺ bu ayədə qeyd edilən sıxıntılı həyatın qəbir əzabı olduğunu dediyini rəvayət etmişlər.[329]

- ***“Möminlər qəbirlərində imtahana çəkilər və sorğu-sual olunarlar. «Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar» (İbrahim: 27)”.***

Peyğəmbər ﷺ bu ayənin təfsirində demişdir: *“Müsəlman qəbirdə sorğu-sual edildikdə, Allahın tək və haqq məbud olduğuna, Muhəmmədin isə Onun elçisi olduğuna şəhadət edəcəkdir (yəni şəhadət edə biləcəkdir). Uca Allahın qeyd etdiyi kimi: «Allah iman*

---

[326] Ğafir: 46
[327] Bu ayə qəbir əzabını isbat edən əsas dəlillərdən sayılır. Belə ki, Uca Allah ayənin əvvəlində *“Onları səhər və axşam oda salırlar”*, – buyurur. İlk oxunuşdan bu əzabın Firon və onun kafir qövmünə məhz Qiyamət günü, Cəhənnəmdə veriləcək əzab olduğu zənn edilir. Lakin ayənin davamını oxuduqda bu əzabın Cəhənnəm əzabı yox, məhz Qiyamət günündən əvvəl onlara verilən əzab olduğu bəlli olur. Uca Allah ayənin davamında buyurur: *“Qiyamət günü gələcəyi vaxt; “Firon camaatını ən şiddətli əzaba salın!” – deyilər”* (Ğafir: 46). Qiyamət günündən əvvəl qəbir əzabından başqa bir əzab növünün olmadığını nəzərə alsaq, bu əzabın qəbir əzabı olduğunu anlayarıq.
[328] Ta-hə: 124
[329] Bax! “Səhih İbn Hibbən” (3119), Təbərani “əl-Mucəm əl-kəbir” (9143).

*gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar»”.*[330] Səhabə Bəra ibn Azib ﷺ bu ayənin təfsirində belə demişdir: *“Bəndənin dünya həyatındakı sabitqədəmliliyi ondan ibarətdir ki, qəbirdə onun yanına iki mələk gəldikdə və ona: «Rəbbin kimdir?» – deyə sual verdikdə o da: «Rəbbim Allahdır», – deyə bilsin və ondan: «Peyğəmbərin kimdir?» – deyə soruşduqlarında o da: «Peyğəmbərim Muhəmməddir», – desin. Bax (ayədə qeyd edilən) dünya həyatındakı sabitlik məhz budur”.* [331] Ümumiyyətlə, qəbir əzabı ilə əlaqədar olaraq Peyğəmbərdən ﷺ rəvayət olunmuş hədislər mütəvatir dərəcəsindədir. Həmin hədislərin birində Allah rəsulu ﷺ belə buyurur: *“Cənazə qəbirə qoyulduqda (sorğu-sual üçün) onun yanına birinin adı Münkər, digərinin isə Nəkir olan özləri qara, gözləri isə göy olan iki mələk gələr...”.*[332]

---

[330] Buxari (4699)

[331] Abdullah ibn Mübarək “əz-Zühdü vər-rəqaiq” (1356), Əcurri “əş-Şəriət” (867), Beyhəqi “İsbətu azəbil-qabr” (3), İbn Əbi Şeybə “əl-Müsənnəf” (12048)

[332] Tirmizi (1071), Əlbani hədisin həsən-səhih olduğunu demişdir.

🕮 **İnsanların üzərində onların əməllərini yazan gözətçi mələklər var. Onların yazdıqlarından heç bir şey Allahın elmindən kənarda qalmaz. Ölüm mələyi də ruhları məhz Rəbbinin izni ilə qəbz edər.**

✍ Mələklərə iman imanın altı rüknündən biridir. Mələklər Uca Allahın nurdan xəlq etdiyi lətif varlıqlardır. Uca Allah onları Öz Kitabında bu cür vəsf etmişdir: *"Əgər onlar təkəbbür göstərsələr bilsinlər ki, sənin Rəbbinin yanında olanlar (mələklər) gecə-gündüz yorulmadan Onun şəninə təriflər deyirlər"*[333]*; "Allahın əmrlərinə qarşı asi olmayan və onlara əmr edilənləri yerinə yetirən mələklər..."*[334]*; "Göyləri və yeri Yaradan, mələkləri iki, üç və dörd qanadlı elçilər edən Allaha həmd olsun!".*[335] Mələklərin özlərinə xas adları və vəzifələri vardır. Onlardan bəziləri Allahın Ərşini daşımaqla, bəziləri mömin bəndələri qorumaqla, kimisi Allahın vəhyini peyğəmbərlərə çatdırmaqla, kimisi də yağışın yağdırılması ilə vəzifəlidir. Əvvəlki səhifələrdə müxtəlif bölümlərdə mövzular arasında bəzi mələklər barədə məlumat vermişik. Burada isə müəllif insanların yaxşı və pis əməllərini qeydə alan mələklər barədə söz açır. Uca Allah bu barədə belə buyurur: *"Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır – çox möhtərəm, əməllərinizi yazanlar. Onlar sizin nə etdiklərinizi bilirlər"*[336]*; Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik? Xeyr! Yanlarında əməllərini yazan elçilərimiz vardır"*[337]*;"Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın".*[338] Daha sonra müəllif əksər insanların Əzrail deyə bildikləri ölüm mələyi haqda danışır. Quran və səhih hədislərdə bu mələyin adı Əzrail olaraq

---

[333] Fussilət: 38
[334] Ət-Təhrim: 6
[335] Fatir: 1
[336] Əl-İnfitar: 10-12
[337] Əz-Zuxruf: 80
[338] Qaf: 17-18

deyil, “ölüm mələyi” olaraq qeyd olunur. Bu cür adlanmasının səbəbi isə onun əcəli çatmış insanların ruhlarını qəbz etməklə vəzifəli olmasıdır. Uca Allah can almaq işini ölüm mələyinə nisbət edərək buyurur: *“De: «Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!»”.* [339] Ölüm mələyinin vəzifəsi yalnız ruhu bədəndən qəbz etməkdir. Ruhu qəbz etdikdən həmən sonra onu can alan digər mələklərə təhvil verər. [340] Elə bu səbəbdən də Uca Allah can almaq işini digər mələklərə nisbət edərək belə buyurur: “*Nəhayət, sizlərdən birinə ölüm gəldiyi zaman elçilərimiz (mələklər) onun canını alarlar və heç bir səhvə yol verməzlər*”[341]; “*And olsun kafirlərin canını zorla alanlara! And olsun möminlərin canını rahatlıqla alanlara!”*[342] Həmçinin onu da bilmək vacibdir ki, əslində həyat verən və öldürən yalnız Allahdır. Ölüm mələyi, sadəcə olaraq, Allahın əmri və izni ilə bu işin icraçısıdır. Ona görə də Uca Allah digər bir ayədə can almağı məhz Özünə aid etmiş və bu cür buyurmuşdur: *“Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır”.*[343]

---

[339] Əs-Səcdə: 11
[340] Bax! Əhməd “əl-Müsnəd” (18534), hədis həsəndir.
[341] Əl-Ənam: 61
[342] Ən-Nəziət: 1-2
[343] Əz-Zumər: 42

🕮 **Nəsillərin ən xeyirli olanı məhz Peyğəmbəri ﷺ görən və ona iman edən nəsildir. Sonra onların ardınca gələnlər və daha sonra da onlardan sonrakı nəsildir. Səhabələrin ən fəzilətli olanları hidayət sahibi raşidi xəlifələr: Əbu Bəkr, sonra Ömər, sonra Osman və daha sonra Əlidir (Allah onların hamısından razı olsun!) Peyğəmbərin ﷺ bütün səhabələri yalnız və yalnız xeyirlə yad edilməli və onların arasında baş vermiş bəzi hadisələr barədə isə danışılmamalıdır. Çünki onlar özləri barədə üzr gətirilməyə və yaxşı zənn bəslənilməyə ən layiqli kəslərdir.**

✍ Səhabə – Peyğəmbəri ﷺ görən, ona iman edən və bu imanla da ölən kəsdir. Əhli-sünnətin etiqadına əsasən, səhabələrin hamısı adildir və onlar bu ümmətin və ümumiyyətlə, bütün ümmətlərin ən xeyirliləridir. Uca Allah buyurur: *"Siz insanlar üçün ortaya çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz".*[344] Bu ayə ümumilikdə İslam ümmətinə aid olsa da, ayə nazil olarkən bu kəlamın müxatəbləri Allah rəsulunun ﷺ əshabı idi. Çünki onlar bu ümmətin sələfləridir. Peyğəmbər ﷺ ilə birlikdə Allahın adının uca tutulması və İslamın yayılması üçün canları və malları ilə cihad etmiş, dini təməlindən ucaltmışlar. Onlar bu dinin qurucuları sayılırlar. Uca Allah Muhəmmədi ﷺ Özünə son elçi seçdiyi kimi, onun əshabını da onun üçün dost və yardımçılar olsunlar deyə seçmişdir. Abdullah ibn Məsud رضي الله عنه deyir: *"Allah, bəndələrinin qəlblərinə nəzər yetirmiş və onların içərisində Muhəmmədin qəlbini ən xeyirli olaraq seçmiş, onu Özünə Peyğəmbər götürmüş və şəriəti ilə elçi göndərmişdir. Muhəmmədin qəlbindən savayı digər bəndələrinin qəlblərinə də baxmış və onların içərisində səhabələrin qəlblərini ən xeyirli bilərək onları Öz peyğəmbərinə vəzir seçmişdir".*[345]

---

[344] Ali-İmran: 110

[345] Əhməd "əl-Müsnəd" 1/279

• Görün Uca Allah onları necə vəsf edir: *“Muhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (səhabələr) kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da, (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu bənzətmələri) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (Cənnət) vəd buyurmuşdur!”*[346] Səhabələrin bu ayədə qeyd edilən əzəmətli vəsflərinə diqqət yetirin:

**1.** Kafirlərə qarşı son dərəcə şiddətli olmaları;
**2.** Öz aralarında bir-birlərinə qarşı olan hörmət və məhəbbətləri. Bu ayə “səhabələrin bir-birinə qarşı düşmənçilikləri olub” iddiasına gözəl bir cavabdır;
**3.** Allahın onları daima “rüku edən” və “səcdəyə qapanan” kimi əzəmətli vəsflərlə vəsfləndirməsi;
**4.** Daima Allahın razılığını və lütfünü diləmələri;
**5.** Allahın, səhabələri - onlar heç yaradılmamışdan öncə - bizdən əvvəlki kitablarda: Tövrat və İncildə xeyirlə yad etməsi;
**6.** Uca Allah bu ayədə səhabələri kafirlər üçün bir qəzəb mənbəyi etdiyini xəbər verir. Deməli, səhabələrin fəziləti barədə qeyd olunan ayə və hədislər yalnız və yalnız kafirlərin qəzəbinə və qısqanclığına səbəb ola bilər. İmam Malik məhz bu ayəyə əsasən, səhabələri söyənlərin küfrünə hökm vermişdir;[347]
**7.** Allahın onları iman əhli kimi vəsf edib, qəlblərindəki yəqini imana şəhadət verməsi. Uca Allahın bu şəhadətindən daha böyük nə şahidlik ola bilər?!
**8.** Allahın onların zahirlərinə də şəhadət verməsi və onları “saleh əməllərin sahibləri” kimi gözəl vəsflə yad etməsi;
**9.** Allahın onlara məğfirət və Cənnət vəd etməsi.

---

[346] Əl-Fəth: 29
[347] Bax: “Təfsirul-Qurtubi” 16/297

• Digər ayədə Uca Allah belə buyurur: *“Dində hamını ötüb keçmiş mühacirlərə (Məkkəli səhabələrə) və ənsarlara (mədinəli səhabələrə), həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır”.*[348] Uca Allah bu ayədə səhabələri dinin öncülləri adlandırmış, nəinki onlardan razı olduğunu, hətta onlara tabe olanlardan da razı qalacağını bildirmiş və dolayısı yolla onlardan sonra gələcək nəsillərə səhabələrə tabe olmağı əmr etmişdir.

• Başqa bir ayədə isə belə deyilir: *“Möminlər (Hüdeybiyyədə) ağac altında sənə beyət edərkən Allah artıq onlardan razı qaldı. Allah onların qəlbində olanı (yəqin imanı) bildi, onlara mənəvi rahatlıq nazil etdi və onları yaxın bir zəfərlə mükafatlandırdı”.*[349] Bu ayədə Uca Allah Özünün ağac altında Peyğəmbərə ﷺ beyət edən möminlərdən razı qaldığını bəyan edir. Allahın özlərindən razı qaldığını bəyan etdiyi kimsələrin daha sonra Onun qəzəbinə səbəb olacaq bir hala düşmələri qeyri-mümkündür. Çünki Uca Allah gələcəkdə baş verəcək hər bir şeydən xəbərdardır və Ona gizlin qalacaq heç bir şey yoxdur. Elə isə gələcəkdə Onun qəzəbinə layiq olacaq kəslər barədə “Mən artıq onlardan razıyam”, – deməsi qeyri-mümkündür və bu Onun elminə naqislik nisbət etməkdir. Uca Allah bütün naqisliklərdən münəzzəhdir. Həmçinin bu ayədə Uca Allah bildirmişdir ki, səhabələrin ürəklərində olan imanı, sədaqəti bildiyi üçün o zaman onların üzərinə və qəlblərinə Öz dərgahından arxayınlıq, rahatlıq, səbir, səbat və mənəvi qüvvət endirdi. Bu, ağac altında Peyğəmbərə ﷺ beyət edib, sədaqət andı içənlərin imanlarında sadiq olmalarına dair Uca Allah tərəfindən bir şahidlikdir. Həmin vaxt Peyğəmbərə ﷺ beyət edənlərin sayı 1400 nəfər idi. Peyğəmbər ﷺ onlar barədə belə demişdir: “*Nəfsim əlində Olana and olsun ki, ağac altında (Hüdeybiyyədə) mənə beyət edənlərdən heç kəs Cəhənnəmə girməyəcəkdir”.*[350]

---

[348] Ət-Tövbə: 100
[349] Əl-Fəth: 18
[350] Müslim (2496), Əhməd 6/285 və 362

• Görün Uca Allah mühacirləri – Məkkəli səhabələri necə vəsf edir: “*Qənimət həmçinin yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun Elçisinə kömək edirlər. Sadiq olanlar da məhz onlardır”.*[351] Bir sonrakı ayədə Uca Allahın ənsarları – Mədinəli səhabələri necə vəsf etdiyinə diqqət yetirin: *“Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və iman gətirmiş kimsələr (ənsarlar) öz yanlarına hicrət edənləri (mühacirləri) sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır”.*[352] Daha sonra Uca Allah səhabələrdən – mühacir və ənsarlardan sonra gələn mömin bəndələrin dili ilə belə buyurur: *“Onlardan (səhabələrdən) sonra gələnlər deyərlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!»”*[353]

• Yuxarıda da qeyd edildiyi kimi, səhabələr, əsasən, iki hissəyə bölünürlər: mühacir və ənsarlar. Burada üçüncü bir dəstə də mövcuddur. Bunlar Məkkənin fəthi günü və fəthdən sonra İslamı qəbul etmiş səhabələrdir. Uca Allah onlar barədə belə buyurur: *“Sizlərdən Məkkənin fəthindən əvvəl xərcləyib döyüşənlər başqaları ilə eyni deyillər. Onların dərəcəsi mallarını fəthdən sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı (Cənnəti) vəd etmişdir. Allah sizin nə etdiklərinizdən xəbərdardır”.*[354] Bu ayədə Uca Allah Məkkənin fəthindən öncə İslamı qəbul edib, malları və canları ilə Allah yolunda savaşanların dərəcələrinin başqalarına nisbətdə daha üstün olduğunu qeyd edir. Buna baxmayaraq, onların hamısına, yəni həm

---

[351] Əl-Həşr: 8
[352] Əl-Həşr: 9
[353] Əl-Həşr: 10
[354] Əl-Hədid: 10

fəthdən öncə, həm də sonra İslamı qəbul edənlərə Cənnəti vəd etmişdir.

• Ümumiyyətlə, səhabələr haqqında qeyd etdiyimiz dəlillərin heç biri Quranda və ya hədislərdə varid olmasaydı belə, yenə də onların keçdikləri məşəqqət dolu həyat yolları və onların Allahın dini üçün etdikləri xeyir dolu əməlləri onların ədalətli və sadiq olduqlarına dair kifayət edəcək bir sübut olardı. Belə ki, onlar ən çətin məqamlarda Peyğəmbəri tərk etməmiş və onu tək buraxmamışlar. Əksinə, Allahın dini üçün öz yurd-yuvalarını tərk edib hicrət etmiş, canları və malları ilə birlikdə Uca Allahın yolunda cihad etmişlər. İslama düşmənçilik göstərən və qarşı cəbhədə duran yaxınlarına – doğma ata və övladlarına, qardaşlarına qarşı döyüşməkdən belə çəkinməmişlər. Bütün bunlar onların imanlarında sadiq və ədalətli olduqlarına dair açıq bir dəlildir. Bu yerdə mühüm bir məqama da diqqət yetirmək lazımdır. Belə ki, səhabələrin ədalətli olmasını demək, onların məsum – günahsız və xətasız olmaları mənasına gəlmir. Biz Peyğəmbərin ﷺ əshabələrinin ədalətli olmalarını desək də, onların məsum olduqlarını demirik. Çünki onlar da bəşər övladı sayılırlar. Peyğəmbər ﷺ hədislərinin birində belə buyurur: *“Hər bir adəm övladı xəta edəndir”.*[355] Onlar da xəta edən adəm övladlarıdır. Bəzən xəta edər, bəzən isə doğru qərar verərlər. Lakin onların xəta damlaları işlədikləri saleh əməllər dəryasında itib-batmışdır. Uca və pak olan Allah isə artıq onlardan razı qalmış və onları bağışlamışdır. *“(Uhud döyüşündə) iki qoşun qarşılaşdığı gün içərinizdən üz döndərənləri (döyüşdən geri çəkilənləri) şeytan, qazandıqları bəzi günahlar üzündən səhv etməyə vadar etdi. Allah artıq onları bağışladı. Həqiqətən, Allah Bağışlayandır, Həlimdir”.*[356] Elə təkcə bunu demək kifayət edər ki, Peyğəmbərin ﷺ zamanında ən böyük və son döyüş sayılan Təbuk savaşında otuz mindən artıq müsəlman, yəni münafiqlər və üzrlü olanlar (xəstələr, qocalar və s.) istisna, bütün səhabələr – mühacir və ənsar iştirak

---

[355] Əhməd “əl-Müsnəd” 2/198
[356] Ali-İmran: 155

etmişdir. Uca Allah onlar barədə belə buyurur: *"Allah, müsəlmanlardan bəzilərinin qəlbi cihaddan yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərə də, çətin vaxtda onun ardınca gedən mühacirlərə və ənsarlara da əvvəlcə tövbə nəsib etdi, sonra da onları bağışladı. Çünki Allah onlara qarşı Şəfqətlidir, Rəhmlidir".*[357] Onu da qeyd etmək lazımdır ki, bu savaşdan heç bir üzrü olmadan cəmi üç səhabə geri qalmışdır: Kəb ibn Malik, Murara ibn ər-Rabi, Hiləl ibn Ümeyyə. Onlar barədə isə Uca Allah bu ayəni nazil etmişdir: *"Geri qalmış üç nəfəri də bağışladı. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri kədərdən sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra Allah peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir".*[358] Ona görə də bizə vacib olan müəllifin də qeyd etdiyi kimi, Peyğəmbərin ﷺ bütün səhabələrini yalnız və yalnız xeyirlə yad etmək və onlar barədə Uca Allahın bizə öyrətdiyi bu dua ilə dua etməkdir: *"Onlardan (səhabələrdən) sonra gələnlər deyərlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!»"*[359]

• Əhli-sünnətin etiqadına əsasən, səhabələr içərisində ən üstün olanı sırası ilə Əbu Bəkr, sonra Ömər, sonra Osman, daha sonra Əlidir رضي الله عنهم. Abdullah ibn Ömərin رضي الله عنه belə dediyi rəvayət olunmuşdur: *"Biz (yəni səhabələr) Peyğəmbərin ﷺ zamanında ən fəzilətli şəxs olaraq ilk növbədə Əbu Bəkri, sonra Öməri, daha sonra isə Osmanı görürdük".*[360] Amr ibn Asdan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ onu Zətus-Səlasilə göndərilən qoşunun başçısı təyin etdi. Amr bin As deyir ki, mən onun yanına gəlib dedim: *"«Hansı*

---

[357] Ət-Tövbə: 117
[358] Ət-Tövbə: 118
[359] Əl-Həşr: 10
[360] Buxari (3655)

*insan sənə daha sevimlidir?» O dedi: «Aişə». Dedim ki, bəs kişilərdən kimdir? Dedi: «Atası». Dedim ki, bəs sonra? Dedi: «Ömər ibn əl-Xəttab»".*[361] Hüzeyfənin ﷺ rəvayətinə əsasən, Peyğəmbər ﷺ: *"Mən sizin aranızda nə qədər qalacağımı bilmirəm, belə ki, məndən sonra bu iki kişiyə tabe olun",* – dedi və Əbu Bəkr ilə Ömərə işarə etdi.[362] Muhəmməd ibn Hənəfiyyə ﷺ atası Əli ibn Əbu Talibdən ﷺ Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən əfzəlinin kimlər olduğunu soruşmuş, o da cavabında: *"Əbu Bəkr, sonra isə Ömərdir"*, – demişdir.[363] Dörd Raşidi xəlifəsindən sonra ümmətin ən əfzəl olanları Bədr əhli, sonra Hüdeybiyyədə Peyğəmbərə ﷺ sədaqət andı içib beyət edənlər, daha sonra Məkkənin fəthinə qədər Allahın yolunda malları və canları ilə cihad edənlər və nəhayət, Məkkənin fəthindən sonra İslamı qəbul edənlərdir. Allah onların hamısından razı olsun!

● Müəllifin də qeyd etdiyi kimi, səhabə nəslindən sonra ən xeyirli nəsil tabiin nəsli, onlardan sonra isə ətbəut-tabiin nəslidir.

- *Tabiin:* müsəlman olduğu halda, səhabəni görən və müsəlman kimi də ölən kəslərdir.
- *Ətbəut-tabiin:* müsəlman olduğu halda, tabiini görən və müsəlman kimi də ölən kəslərdir.

Peyğəmbər ﷺ belə demişdir: *"İnsanların ən xeyirlisi mənim zamanımda yaşayanlardır. Sonra isə onların ardınca gələnlər, daha sonra isə onların ardınca gələnlərdir".*[364]

[361] Buxari (3662)
[362] Tirmizi (3663), İbn Macə (97), Əlbani hədisin səhih olduğunu demişdir.
[363] Buxari (3671)
[364] Buxari (2652) və Müslim (2533)

📖 **Müsəlmanların imamlarına: rəhbərlərinə və alimlərinə itaət edilməlidir.**

✍ Uca Allah buyurur: *"Ey iman gətirənlər! Allah və Elçisinə, həm də özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!"*[365] Bu ayədə zikr olunan əmr sahibləri həm müsəlman rəhbərləri, həm də alimləri ehtiva edir.[366] Uca Allah alimlərə itaəti əmr edərək belə buyurur: *"Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun!"* [367] Həmçinin onların fəzilətinə işarə edərək belə demişdir: *"De: «Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?»"*[368]

• İslam şəriətinə zidd olmayan hər bir məsələdə müsəlman rəhbərlərinə itaət etmək, onları dinləmək və onlara qarşı çıxmamaq Əhli-sünnətin əqidə əsaslarındandır. Çünki rəhbərsiz cəmiyyət başsız bədən kimidir. Elə bu səbəbdən də Əli ibn Əbu Talib ﵁ demişdir: *"İnsanlar üçün yaxşı və ya pis bir başçının olması labüddür"*.[369] Ümumiyyətlə, şəriət dəlillərinin tələbi olaraq deyə bilərik ki, yer üzündə idarəçilik sistemi qaçınılmaz bir zəruriyyətdir. Belə ki, Uca Allah bu barədə buyurur: *"Bəlkə də, Rəbbiniz düşməninizi məhv edib sizi yer üzünün xəlifələri (varisləri) edəcək, sonra isə nə etdiyinizə (özünüzü necə apardığınıza) baxacaq!"*[370]; *"Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün xəlifələri (varisləri) edəcək"*.[371] Şeyxülislam İbn Teymiyyə demişdir: "Bilinməlidir ki, insanları

---

[365] Ən-Nisə: 59

[366] İbn Teymiyyə demişdir: "Əmr sahibləri – insanlara əmr etmək səlahiyyətində olan kəslərdir. Güc və elm sahibləri bu işdə müştərəkdirlər. Bu səbəbdən ötrü əmr sahibləri iki qisim insanlar sayılırlar: alimlər və rəhbərlər. Onlar islah olsalar, insanlar da islah olarlar. Onlar fəsada uğrasalar, insanlar da fəsada uğrayarlar" ("Məcmu əl-Fətava" 28/170).

[367] Ən-Nəhl: 43

[368] Əz-Zumər: 9

[369] İbn Əbi Şeybə "əl-Müsənnəf" 7/557, səhih sənədlə rəvayət olunmuşdur.

[370] Əl-Əraf: 129

[371] Ən-Nur: 55

idarə etmək, onların işlərinə rəhbərlik etmək dinin ən vacib əmrlərindən biridir. Ümumiyyətlə, idarəçilik sistemi olmadan nə dini qorumaq olar, nə də dünyanı. Adəm övladı öz işlərində bir-birlərinə möhtac olduqlarına görə cəmiyyət halında bir yerdə yaşamadan onların ehtiyacları ödənə bilməz. Cəmiyyət halında yaşaya bilmələri üçün də mütləq bir başçıya ehtiyacları vardır. Allah Rəsulu ﷺ belə demişdir: *"Əgər üç nəfər səfərə çıxsa, aralarından birini əmr təyin etsinlər"*. Hədisi Əbu Davud Əbu Səid əl-Xudridən və Əbu Hureyrədən rəvayət etmişdir. İmam Əhmədin Müsnədində Abdullah ibn Amrdan rəvayət etdiyi hədisə əsasən, Allah Rəsulu ﷺ belə demişdir: *"Üzərlərində özlərindən biri əmr olmadan üç nəfərin səfərdə olmaları onlara icazəli deyildir"*. Allah Rəsulu ﷺ cəmiyyət üçün bir xəbərdarlıq olsun deyə səfər zamanı kiçik bir qrup içində belə müvəqqəti olaraq bir nəfərin əmir olaraq təyin edilməsini əmr etmişdir".[372] Həmçinin belə demişdir: "Uca Allah yaxşılığı əmr edib, pisliklərdən çəkindirməyi əmr etmişdir. Bu da yalnız və yalnız idarəçilik sistemi və icbari tətbiq yolu ilə tamamlana bilinəcək bir işdir. Həmçinin icbari tətbiq və idarəçilik sistemi olmadan cihadın, həccin, cümə və bayram namazlarının tətbiqi, məzlumlara yardım və cəzaların tətbiq olunması da qeyri-mümkündür. Elə bu səbəbdən də bəzilərindən belə dedikləri rəvayət olunmuşdur: *"Həqiqətən də, sultan Allahın yer üzündəki kölgəsidir"*. Həmçinin belə deyilmişdir: *"Altmış il zalım rəhbərin hökmü altında yaşamaq bir gecə rəhbərsiz qalmaqdan daha xeyirlidir"*. Elə təcrübə də bunu təsdiqləyir. Bu səbəbdən də Fudayl ibn İyad, Əhməd ibn Hənbəl və sələfdən digərləri belə demişdir: *"Əgər mənim müstəcəb (yəni Allah tərəfindən qəbul olunacaq) bir duam olsaydı, onu yalnız rəhbər üçün edərdim"*.[373] Başqa bir yerdə isə belə deyir: "Şəriətin məqsədlərindən biri, xeyrin əldə edilməsi və onun tamamlanması, fəsadın uzaqlaşdırılması və ya azaldılması, yaxud iki xeyirli işdən daha xeyirli olanın təyin edilməsidir. Əmr sahibinin təyin olunmasında olan əsas məqsəd və fayda da məhz

---

[372] İbn Teymiyyə "Məcmu əl-Fətava" 28/390
[373] İbn Teymiyyə "Məcmu əl-Fətava" 28/390-391

budur. Avam insanların zənn etdiyi kimi olsaydı, o zaman başçının varlığı ilə yoxluğu arasında bir fərq olmazdı. Bu sözü nəinki müsəlman, ümumiyyətlə, heç bir aqil insan dilə gətirməz. Əksinə, aqil insanlar belə deyərlər: *"Altmış il zalım rəhbərin hökmü altında yaşamaq bir gecə rəhbərsiz qalmaqdan daha xeyirlidir"*. Abdullah ibn Mübarək (öz şerində) nə gözəl demişdir:

"Rəhbərlər olmasaydı, yollarımızda əmin-amanlıq olmazdı
Zəiflərimiz qəsbkarların zülmündən qurtulmazdı".[374]

Peyğəmbər ﷺ rəhbərlərə itaəti əmr edərək demişdir: *"Üzərinizdə başı sanki qurumuş üzümə oxşar həbəşli bir kölə rəhbər təyin edilsə belə, eşidib ona itaət edin!"*[375]; *"«Məndən sonra istismar halları*[376] *və xoşagəlməz işlər olacaq». Biz dedik: «Ey Allahın Rəsulu, bizlərdən o zamana yetişəcək olan olsa, ona necə hərəkət etməsini əmr edirsən? » Allah rəsulu ﷺ belə cavab verdi: «Sizin üzərinizdə olan haqlarını ödəyin və öz haqlarınızı isə Allahdan diləyin»".*[377] Ənəs ibn Məlik ؓ demişdir: *"Allah Rəsulunun əshabından olan ağsaqqallarımız bizlərə əmr edərək demişdirlər ki, rəhbərlərinizi söyməyin, onlara xəyanət etməyin və onları qəzəbləndirməyin. Allahdan qorxun və səbir edin!"*[378] Həmçinin insanlar onun yanına gəlib Həccacın zülmündən ona şikayət etdikdə, onlara belə cavab vermişdi: *"Səbir edin! Çünki bundan sonra ta Qiyamətəcən elə bir zaman gəlməyəcək ki, həmin zamanın şəri özündən əvvəlkindən daha pis olmasın. Bunu sizin peyğəmbərinizdən eşitdim".*[379] Bilmək lazımdır ki, rəhbərlərə qarşı çıxmaq fəsada qapı açmaqdır. Bu həm şəriət əhlinin, həm də aqil insanların üzərində ittifaq etdikləri bir məsələdir. Bu barədə şeyxülislam İbn Teymiyyə demişdir: "Nə zaman ki rəhbərin

---

[374] İbn Teymiyyə "Məcmu əl-Fətava" 30/136
[375] Buxari (7142)
[376] Hədisdə qeyd edilən أثرة kəlməsi zalım rəhbərlərin müsəlmanların haqqı olan qənimət mallarını, beytul-malı haqsız yerə mənimsəməsi anlamını verir.
[377] Buxari (3603 və 7052) və Müslim (1843), bu hədis Müslimin rəvayət etdiyi ləfzdi.
[378] İbn Əbi Asim (1015), Əlbani sənədinin yaxşı və ravilərinin etibarlı olduğunu demişdir.
[379] Buxari (7068)

aradan getməsi üçün səy göstərilib, bununla ortaya çıxan fəsad onun rəhbər olaraq qalması ilə hasil olan fəsaddan daha böyük olub. Ona görə də daha böyük olan fəsad ilə kiçik fəsadın aradan qaldırılmasına cəhd göstərmək icazəli deyildir. Elə bu səbəbdən də Əhli-sünnətin məşhur nəzər nöqtəsinə əsasən, onlar rəhbərlər zalım olsalar belə, onlara qarşı çıxmağı və onlarla qılınc vasitəsilə döyüşməyi düzgün hesab etmirlər. Buna dəlil Peyğəmbərdən ﷺ nəql olunmuş çoxsaylı hədislərdir. Çünki döyüş və fitnə ilə hasil olan fəsad mücərrəd olaraq rəhbərin zülmü ilə döyüşsüz və fitnəsiz hasil olan fəsaddan daha böyükdür. Beləcə, iki işdən fəsadı daha böyük olanı ilə ondan daha kiçik olan fəsad aradan qaldırılmaz. Demək olar ki, rəhbərə qarşı çıxması ilə əvvəlkindən daha böyük bir fəsada səbəb olmayan bir dəstə tarixən bilinmir (yəni kim rəhbərə qarşı çıxıbsa, mütləq daha böyük bir fəsada səbəb olub)”.[380] Həmçinin belə demişdir: “Nadir hallar istisna edilməklə, rəhbərə qarşı çıxan hər bir şəxsin bu əməli xeyrindən qat-qat artıq şərlə nəticələnmişdir”.[381] Şeyxülislam sözünün davamında buna dair tarixi bəzi misallar qeyd edəndən sonra belə deyir: “Beləcə, onlar (yəni rəhbərə qarşı çıxan dəstələr) məğlub edildilər. Bu əməlləri ilə də nə dinlərini saxlaya bildilər, nə də ki dünyalarını qura bildilər (yəni həm dinləri, həm də dünyaları əldən getdi). Uca Allah isə nə dünyəvi, nə də ki dini bir qazancı, faydası olmayan bir işi (yəni rəhbərə qarşı çıxmağı) heç vaxt əmr etməz... Bütün bunlar bizə onu göstərir ki, Allah Rəsulunun ﷺ öz ümmətinə rəhbərlərin haqsızlıqlarına səbir etməyi, onlarla döyüşməməyi və onlara qarşı qiyam qaldırmamağı əmr etməsi onların dünya və axirətləri üçün daha xeyirlidir. Kim bilərəkdən və ya səhvən Allah Rəsulunun ﷺ bu əmrinə müxalif olarsa, o, fəsaddan başqa heç bir şey əldə etməyəcəkdir”.[382] Bu məqamda onu qeyd etmək istəyirəm ki, rəhbərlərin pis və ya yaxşı olması, əslində, elə bizim öz

---

[380] Minhəcüs-sünnə 3/391

[381] Zamanımızda “Ərəb Baharı” adı altında ərəb ölkələrində baş vermiş inqilabları, İraq və Suriya kimi viran qalmış ölkələrin halını gözqabağına gətirmək kifayət edər.

[382] Minhəcüs-sünnə 4/527-531

əməllərimizin bəhrəsidir. Çünki insanların başına gələn müsibətlər elə onların öz əməllərinin nəticəsidir.[383] *"İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad ortaya çıxır..."* [384] *; "Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar üzündəndir. Hələ Allah günahların çoxunu bağışlayır".* [385] İnsanlar ya saleh əməllərinin bərəkəti, ya da asiliklərinin cəzası və zilləti altında həyat sürürlər. Uca Allah isə hikmət sahibidir, Ədalətlidir və O, qullarından heç kəsə zülm etməz, insanlar isə öz nəfslərinə qarşı çox zülmkardılar. *"Kim yaxşı iş görsə, (xeyri) özünə, kim də pislik etsə, (zərəri) özünə olar. Sənin Rəbbin bəndələrə zülm edən deyildir."*[386] Bəndə öz Rəbbinə qarşı itaətkar və öz nəfsinə qarşı adil olduğu, öz halını, həyat tərzini düzəltdiyi və Rəbbinin hökmlərinə boyun əydiyi təqdirdə, onun dünyası da düzələr, Axirəti də. Uca Allah bu barədə belə buyurur: *"Əgər o məmləkətlərin əhalisi iman gətirib (Allahdan) qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət (qapılarını) açardıq. Lakin onlar (peyğəmbərləri) yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə (əzabla) yaxaladıq"*[387] *;"Əgər onlar Tövrata, İncilə və Rəbbindən özlərinə nazil edilənə düzgün əməl etsəydilər, onlar başları üstündə və ayaqları altında (olan nemətlərdən) yeyərdilər".*[388]

*"<u>Siz necə olsanız, üzərinizə də elə o cür rəhbər təyin edilər</u>".*[389] Son dərəcə hikmətli olan bu kəlam Allah Rəsulundan ﷺ onun sözü olaraq (yəni hədis olaraq) nəql olunsa da, sənəd yönündən çox zəifdir.[390] Lakin sənəd yönündən zəif olsa da və hədis olaraq bu sözün Allah Rəsuluna ﷺ nisbət edilməsi düzgün sayılmasa da, mətn olaraq son dərəcə doğru və düzgün bir sözdür və alimlər

---

[383] الجزاء من جنس العمل "cəza və ya mükafat əməlin növündəndir" qaydasında olduğu kimi.
[384] Rum: 41
[385] Əş-Şura: 30
[386] Fussilət: 46
[387] Əl-Əraf: 96
[388] Əl-Maidə: 66
[389] Ərəbcə: كيفما تكونوا يولى عليكم
[390] Əlbani "Silsilə əd-Daifə" (320)

tərəfindən də ümumi bir qayda kimi qəbul edilmişdir Əslində, bu qayda Quran və sünnət tərəfindən təsdiqlənmiş bir qaydadır. Belə ki, Uca Allah buyurur: *"Beləliklə, qazandıqları günahlara görə zalımların bir qismini digərinə rəhbər təyin edərik".*[391] Həmçinin tarixə nəzər yetirdikdə görürük ki, əsrlər boyunca insanlar üzərində Allahın qədəri hökmü də elə məhz bu qaydaya müvafiq bir şəkildə yürümüşdür. Elə buna görə də Peyğəmbərdən ﷺ sonra Əbu Bəkr və Ömər, daha sonra isə Osman və Əli xəlifə olmuşdur. Heç şübhəsiz ki, Əbu Bəkr və Ömərin rəhbərliyi altında yaşayan insanlar Osman və Əlinin rəhbərliyi altında yaşayanlardan daha xeyirli idilər.[392] Uca Allah da öz lütfü ilə ən xeyirli insanlara daha üstün və daha fəzilətli insanları rəhbər təyin etmişdir. Bu səbəbdən də Əhli-sünnət alimləri dörd xəlifə arasında olan xilafət sırasını həm də fəzilət sırası olaraq qəbul ediblər. İbn əl-Qeyyim demişdir: "Uca Allah qulları üzərində olan rəhbərləri, vali və əmr sahiblərini məhz onların öz əməllərinə uyğun bir şəkildə seçmişdir. Allahın bu yöndə olan hikməti haqqında dərindən düşün! Sanki insanların əməlləri sultanlarının və rəhbərlərinin surətində ortaya çıxmışdır. Əgər onlar itaətkar olsalar, rəhbərləri də itaətkar olarlar. Əgər adil olsalar, onlara qarşı da adil davranılar. Yox, əgər həddi aşıb zalım olsalar, onların vali və rəhbərləri də onlara qarşı həddi aşıb zalım olarlar. Əgər onların içərisində hiylə və yalan ortaya çıxsa, rəhbərləri də elə bu cür olar. Əgər Allahın haqlarını ödəməz və bu haqları ödəməyə qarşı laqeydlik göstərərlərsə, sultanları və əmrləri də onların haqlarını ödəməz və onlara qarşı laqeyd davranarlar. Əgər zəif və gücsüz gördükləri insanlardan haqları çatmayan şeyləri tələb edər və götürərlərsə, rəhbərləri də onlardan haqları çatmayan şeyləri götürər və üzərlərinə də haqsızcasına vergi yükləyərlər. Onlar hər dəfəsində zəiflərdən istifadə edib qazanc əldə etməyə səy göstərsələr, rəhbərləri də zor gücü ilə onlardan

---

[391] Əl-Ənam: 129

[392] Əli ibn Əbu Talibdən رضي الله عنه soruşdular: "Nə üçün insanlar Əbu Bəkr və Ömərin xilafəti üzərində ittifaq etdikləri halda, sənin xilafətin üzərində ixtilaf etdilər?" Əlinin cavabı isə son dərəcə möhtəşəm olur: *"Çünki Əbu Bəkr və Ömər mənim kimi insanların üzərində rəhbər idilər, mən isə sənin kimi insanların üzərində rəhbərəm"* (İbn Xaldun səh. 109 və ya kitabın bəzi nəşrlərində səh. 264).

qazanc əldə edərlər. Sanki rəhbərləri onların əməllərinin surətində ortaya çıxmışdır. Asi və şərli bir topluma onların öz əməllərinə müvafiq olmayan bir kəsin rəhbər gəlməsi ilahi hikmətə uyğun ola bilməz. İslamın ilk dönəmləri ən xeyirli əsrlər olduğuna görə onların rəhbərləri də ən xeyirli rəhbərlər idilər. O zaman ki onlar fəsada uğradılar, rəhbərləri də onlara qarşı elə o cür oldular. Hal-hazırki dövrdə də Allahın hikmətinə uyğun olaraq bizim üzərimizə nəinki Əbu Bəkr və Ömər, heç Muaviyə və Ömər ibn Abduləziz kimi rəhbərlər belə gələ bilməz. Çünki bizim rəhbərlərimiz bizim özümüzə uyğundur. Bizdən əvvəlkilərdə də onların özlərinə uyğun idilər. Hər iki halda da ilahi hikmət təcəlli edir. Dərin fəhmi və güclü zəkası olan hər kəs bu barədə düşündükdə ilahi hikmətin batinən və zahirən qəza və qədərdə seyr etdiyini görər. Öz batil zənnin ilə zənn etmə ki, Allahın qədər və qəzası ilahi hikmətdən xalidir. Əsla! Əksinə, Uca Allahın məxluqatı üzərində olan əzəli yazısı tam və kamil bir şəkildə ilahi hikmətə bağlıdır. Sadəcə olaraq, yarasanın gözləri zəif olduğuna görə günəş işığından məhrum olduğu kimi, bizim ağıllarımız da zəif və aciz olduğuna görə bu ilahi hikməti dərk edə bilmir. Yarasa gecənin zülmətinə rast gəldikdə uçub gəzişdiyi kimi, bizim zəif ağıllarımız da batil bir inancla birləşdikdə cuşa gəlib batil içərisində dolaşır və nə gəldi danışır”.[393] İbn Əbil-İzz demişdir: “Rəhbərlər zalım olsalar belə, onlara qarşı itaətkarlıqdan ayrılmamaq lazımdır. Çünki itaətdən əl çəkib onlara qarşı çıxmaqla ortaya çıxan fəsad onların zülmü səbəbi ilə ortaya çıxan fəsaddan qat-qat artıq olur. Onların zülmlərinə qarşı səbir etmək günahlar üçün kəffarə və əzəmətli əcr sayılır. Uca Allah o cür zalım rəhbərləri öz əməllərimizin cəzası olaraq bizim üzərimizə müsəllət edib. Necə deyərlər, insana verilən cəza onun əməlinin cinsindən olur. Bu səbəbdən də belə hallarda bizə vacib olan şey öz əməllərimizi islah edib, tövbə və istiğfarı çoxaltmaqdır. Deməli, əgər camaat rəhbərin zülmündən öz canını qurtarmaq istəyirsə, gərək ilk növbədə özü öz nəfsinə zülm etməyi tərk etsin”.[394]

---

[393] İbn əl-Qeyyim “Miftəhu dər əs-Səadə” 1/253
[394] “Şərhul-əqidə ət-Təhaviyyə” 2/578

📖 **Saleh sələflərimizə tabe olunmalı, onların iziylə gedilməli və onlar üçün daima Allahdan bağışlanma dilənilməlidir.**

✍ "Saleh sələflərimiz" dedikdə ən xeyirli üç nəsil – səhabə nəsli və onların izi ilə gedən, saleh əməllərdə onlara tabe olan tabiin və ətbəut-tabiin nəsli nəzərdə tutulur. Müəllifin də qeyd etdiyi kimi, onlara tabe olmaq və onların izi ilə getmək vacibdir. Çünki Allahın dinini – Quran və sünnəti bizə nəql edən məhz onlardır. Uca Allah buyurur: *"Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir".*[395] Fikir versək, görərik ki, bu ayədə Uca Allah tək Peyğəmbərə ﷺ tabe olmağı deyil, o cümlədən də möminlərin yolu ilə getməyi əmr etmişdir. Məlumdur ki, bu ayə nazil olan vaxt yer üzündə Muhəmmədin ﷺ əshabından savayı mömin bir zümrə yox idi. Peyğəmbər ﷺ demişdir: *"«Bəni İsrail yetmiş iki firqəyə ayrıldı. Mənim ümmətim isə yetmiş üç firqəyə ayrılacaqdır. Bir firqə istisna, hamısı oddadır». Sual verildi ki, ey Peyğəmbər, onlar kimlərdir? Peyğəmbər dedi: «Mənim və əshabımın olduğu yol üzərində olanlardır»".*[396] Peyğəmbər ﷺ bu hədisdə özü ilə birlikdə əshabının yoluna da tabe olmağı əmr etmiş və buna müxalif olacaq kəsləri Cəhənnəm əzabı ilə hədələmişdir. Uca Allah buyurur: *"Dində hamını ötüb keçmiş mühacirlərə (Məkkəli səhabələrə) və ənsarlara (mədinəli səhabələrə), həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır".*[397] Uca Allah bu ayədə səhabələrə tabe olmağı əmr etmiş və onların izi ilə gedənlərdən razı qalacağını bəyan etmişdir. Peyğəmbər ﷺ demişdir: *"Məndən sonra yaşayacaq olanlarınız çoxsaylı ixtilaflar görəcəkdir. Sizə vacib olan mənim və hidayət sahibi olan Raşidi xəlifələrin sünnətinə (yoluna) tabe olmanızdır. Bu yoldan möhkəm tutunun və azı dişləriniz ilə*

---

[395] Ən-Nisə: 115
[396] Tirmizi (2641), Əlbani hədisin həsən olduğunu qeyd etmişdir.
[397] Ət-Tövbə: 100

*yapışın. (Dində) sonradan ortaya çıxan şeylərdən uzaq durun. Çünki (dində olan) hər yenilik bidət və hər bidət isə zəlalətdir".*[398]

• ***"Onlar üçün daima Allahdan bağışlanma dilənilməlidir".***
Uca Allah buyurur: *"Onlardan (səhabələrdən) sonra gələnlər deyərlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!»"* [399] Aişə anamız səhabələri söyənlər barədə belə demişdir: *"Onlara əmr olunmuşdur ki, Peyğəmbərin əshabı üçün Allahdan bağışlanma diləsinlər, onlar isə onları söydülər (yəni Allahın bu əmrinə riayət etmədilər)".*[400]

---

[398] Əbu Davud (4607), İbn Macə (43), Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.
[399] Əl-Həşr: 10
[400] Müslim (3022)

## 🕮 Cədəl və dini münaqişələr tərk olunmalıdır.

✍ Dini münaqişələr iki növdür:

- ***Öyülən münaqişə:*** Zəruriyyət yarandıqda və haqqın ortaya çıxması üçün gözəl tərzdə və elm üzərində, həmçinin əhliyyəti olan kəs tərəfindən edilən münaqişə. Belə ki, Uca Allah buyurur: *“İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et”*[401]*; “İçərilərindən zülm edənlər istisna olmaqla Kitab əhli ilə ən gözəl tərzdə mübahisə edin”.*[402]

- ***Məzəmmət olunan münaqişə:*** Ehtiyac olmadıqda, yaxud adətkarlıq edərək, əsasən, fəlsəfə və kəlam əhlinin üslubu ilə, höcətləşmək naminə, batil və cəhalət üzərində qurulan münaqişələr. Belə ki, Uca Allah buyurur: *“Bax, siz o kəslərsiniz ki, bildiyiniz şeylər barəsində də höcətləşirsiniz. Bəs nə üçün bilmədiyiniz şeylər barəsində höcətləşirsiniz?”*[403]*; “Haqq bəlli olduqdan sonra belə onun barəsində səninlə mübahisə edirdilər”*[404]*; “Onlar həqiqətin yalan olduğunu sübuta yetirmək üçün batil sözlərlə mübahisə aparırdılar”.* [405] Uca Allah bu ayələrdə üç növ mübahisəni məzəmmət etmişdir:

1. İnsanın bilmədiyi bir şey barədə höcətləşməsi;
2. Haqq bəlli olduqdan sonra höcətləşmək;
3. Batil əsaslar, batil qaydalar üzərində mübahisə etmək.

Ümumiyyətlə, dini münaqişələr əsli etibarilə icazəli deyildir və bu, zəlalət əhlinin, bidətçi və kəlamçıların izlədikləri yoldur. Onlar daima dini münaqişələrə meyilli olmuş və öz etiqadlarını bu cür mübahisələr üzərində qurmuşlar. Onların yolundan uzaq durmaq və sələfə tabe olmaq vacibdir. Bu səbəbdən də müəllif dini münaqişələrin tərk edilməsinin vacib olduğunu qeyd etmişdir ki, heç şübhəsiz, bu yol ən doğru və ən salamat bir yoldur. Dini

---

[401] Ən-Nəhl: 125
[402] Əl-Ənkəbut: 46
[403] Ali-İmran: 66
[404] Əl-Ənfal: 6
[405] Ğafir: 5

münaqişələrin tərk edilməsinin vacib olmasının üç əsas səbəbi vardır:

*Birincisi:* Şəriət elmlərinin bu cür münaqişələrdən qorunması və bu cür mübahisələrə alət olmaması üçün. Çünki şəriət elmləri dini münaqişələr üçün deyil, Allah üçün və cəhalətin aradan qaldırılması üçün öyrənilməlidir. Tabiinlərdən Müslim ibn Yəsar demişdir: "Dini münaqişələrdən uzaq durun! Həqiqətən, dini münaqişələr anı alimin cahil olduğu vaxtdır ki, şeytan onu azdırması üçün bu fürsəti güdür".[406]

*İkincisi:* İnsanın zəlalətə və bidət əhlinin yoluna düşməkdən qorunması üçün. Çünki heç kəs öz nəfsinə və imanına görə əmin ola bilməz. Tabiinlərdən Əbu Qiləbə belə deyərdi: "Zəlalət əhli ilə oturub-durmayın və onlarla münaqişə etməyin! Mən onların sizi zəlalət yoluna salmayacaqlarından və məlumatınız olmayan şeylər barədə sizi şübhəyə düşürməyəcəklərindən əmin deyiləm".[407]

*Üçüncüsü:* Bidətçinin tanınmaması və bidətinin yayılmaması üçün. Çünki bəzi hallarda zəlalət fikirlərinin sahibi cəmiyyət içərisində tanınmayan məchul birisi olur, yaxud onun bir çox fikirləri insanlar içərisində yayqın olmur. Beləcə, dini münaqişələr vasitəsilə həm özünü tanıtmağa, həm də batil fikirlərini cəmiyyət içərisində yaymağa cəhd göstərir. Belə bir vəziyyətdə belə birinə qarşı ən gözəl cavab elə ona cavab verməmək, fikir yönəltməmək və beləcə arzusunu ürəyində qoymaqdır. Tabiinlərdən Əyyub əs-Səxtiyəni demişdir: "Mənim onlara (yəni bidət əhlinə qarşı) ən şiddətli cavabım susmaq (yəni onlara cavab verməmək) olub".[408]

---

[406] Əbu İsmail əl-Hərəvi "Zəmmul-kəlam və əhlihi" (814)
[407] Fəryabi "əl-Qədər" (370)
[408] Əcurri "əş-Şəriət" (129 və ya 138)

📖 **Bidət əhlinin sonradan uydurduğu şeylər də tərk olunmalıdır.**

✍ Bidət – dində olmayıb sonradan din adına uydurulmuş hər bir yenilikdir. Bidət olan hər bir əməldən uzaq durmaq və Peyğəmbərin ﷺ sünnətinə sarılmaq vacibdir. Bu, Əhli-sünnətin etiqad əsaslarından biridir. Peyğəmbər ﷺ demişdir: *"Kim bizim dinimizdə olmayan bir yenilik ortaya çıxararsa, o rədd edilər (yəni qəbul edilməz)"* [409] *; "Sözlərin ən doğrusu Allahın Kitabıdır. Yolların ən xeyirlisi isə Muhəmmədin yoludur. İşlərin ən şərli olanı (dində) sonradan ortaya çıxan şeylərdir. (Dində olan) hər yenilik bidət, hər bidət də zəlalətdir. Hər zəlalət isə Cəhənnəm odundadır";* [410] *"Mənim sünnətimdən üz çevirən məndən deyildir".*[411]
***Bidətlərin fəsadları:*** Bidətin fəsadı bir çox hallarda bidət olmayan digər asiliklərin fəsadından daha şiddətli və daha geniş olur. Çünki bidət olmayan asiliklərin zərəri, adətən, o asiliyi işləyən insana toxunduğu halda, bidətlərin fəsadı həmin bidəti işləyən kəslə məhdudlaşmır və cəmiyyət içərisində də yayılır. Səhabə Abdullah ibn Abbas ﷺ belə demişdir: *"Uca Allaha ən qəzəbli əməl məhz bidətlərdir".*[412] Onu da qeyd etmək lazımdır ki, asiliklərin əksinə, bidətlərdən tövbə etmək əksər hallarda mümkünsüz, yaxud çox çətin olur. Çünki günah işləyən kəs, adətən, o əməlin zərərindən xəbərdar olur və həmin asiliyin yaxşı bir əməl olmadığını bilir. Bunu bildiyi müddətcə də o əməlindən peşman olması və həmin günahdan tövbə etməsi ehtimalı güclü olur. Bidətçi isə bunun tam əksinə, öz əməlinin yaxşı bir əməl olduğunu iddia edir. Belə olduğu təqdirdə, onun həmin əməldən peşmançılıq duyması və tövbə etməsi düşünülə bilməz. Axı yaxşı hesab etdiyi əməlinə görə nə üçün peşman olsun ki?! Sufyan əs-Souri demişdir: "Bidət İblisə asiliklərdən daha sevimlidir. Çünki bidətlərdən tövbə edilməz,

---

[409] Buxari (2697) və Müslim (1718)
[410] Müslim (867), Nəsai (1578)
[411] Buxari (5063) və Müslim (1401)
[412] Mərvəzi "əs-Sünnə" (84), Beyhəqi "əs-Sünən əl-kubra" (8573)

asiliklərdən isə tövbə edilər”.[413] Həmçinin bidətlərin dinə vurduğu zərər digər asiliklərin dinə vurduğu zərərdən qat-qat artıq olur. Çünki bidətlər dinin əsas rükünlərindən biri olan “Muhəmməd Allahın rəsuludur” rüknünü zədələmiş olur. Belə ki, İslam dininin ilk rüknü şəhadət kəlməsini iqrar etmək və bu kəlmənin ehtiva etdiyi mənaya iman edib, bu kəlmənin tələbinə uyğun bir şəkildə yaşamaqdır. Şəhadət kəlməsi isə iki hissədən ibarətdir:

- *Tövhid:* “Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur”;
- *Sünnətə tabeçilik:* “Muhəmməd Allahın rəsuludur”.

Tövhidin əksi şirk, sünnətin əksi isə bidətlərdir. Elə bu səbəbdən dolayı İslam şəriəti qəti və israrlı bir şəkildə şirkin və bidətin hər növündən çəkindirmiş, şirkə və bidətə aparacaq bütün yolları kəsmiş, şirk və bidət qapılarını tamamilə bağlamışdır. Bidətlərin sünnəti zədələməsinin şəkli; ortaya çıxan hər bir bidətin öz müqabilində bir sünnəti aradan qaldırmasıdır. Misal olaraq, Quran oxuduqdan sonra “sadaqallahul-Azim” demək kimi. Bu bidət ortaya çıxdığı və insanlar arasında yayıldığı ilk gündən ta bu günəcən öz müqabilində bir sünnəti ortadan qaldırmış və insanlara unutdurmuşdur. Həmin sünnət isə Quran oxuduqdan sonra *“Subhanəkallahummə və bihəmdikə, əşhədu əllə iləhə illə əntə, əstəğfirukə və ətubu ileykə”* duasını oxumaqdır.[414] Tabiinlərdən Həssən ibn Ətiyyə belə demişdir: “Camaat dində hər hansı bir bidət ortaya çıxarsa, Allah o bidətin müqabilində mütləq bir sünnəti ortadan qaldıracaq və Qiyamət gününə qədər o sünnəti onlara geri qaytarmayacaqdır”.[415]

---

[413] İbn Teymiyyə “Məcmuul-fətava” 5/175

[414] Aişə anamız demişdir: *“Peyğəmbər ﷺ olduğu hər məclisi, oxuduğu Quranı və qıldığı hər namazı bu kəlmələr ilə tamamlayardı”* (Əhməd: 24486, hədis səhihdir).

[415] Dərimi “əs-Sünən” 1/45

📖 **Allahın ağamız Muhəmmədə, onun ailəsinə, zövcələrinə və zürriyyətinə xeyir-bərəkəti və çoxlu salamı olsun!**

✍ Uca Allah buyurur: *“Həqiqətən də, Allah və Onun mələkləri Peyğəmbərə xeyir-dua verirlər. Ey iman gətirənlər! Siz də ona xeyir-dua verib layiqincə salamlayın”.*[416] Allahın Peyğəmbərə ﷺ olan duası mələkləri yanında onu öyməsidir. Mələklərin salavatı (xeyir-dusı) isə onun üçün dua etmələridir. Peyğəmbər ﷺ onun üçün dua edilməsinin fəziləti barədə belə demişdir: *“Paxıl o kəsdir ki, adım onun yanında çəkilə və o mənə dua etməyə”.*[417]
Müəllifin də qeyd etdiyi kimi, Peyğəmbərin ﷺ əhli-beyti dedikdə onun zövcələri və zürriyyəti nəzərdə tutulur. Buna dəlalət edən dəlillərdən biri də Peyğəmbərin ﷺ namazlarında oxuduğu salavat duasının bu formasıdır: *“Allahım! İbrahimə və onun ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və əhli beytinə – zövcələrinə və zürriyyətinə də bərəkət ver!”*[418]

وسبحانك اللهم وبحمدك، أشهد أن لا إله إلا أنت، أستغفرك وأتوب إليك.

Allahım! Sən bütün qüsurlardan münəzzəhsən! Sənə həmd olsun! Şəhadət edirəm ki, Səndən başqa ibadətə layiq haqq məbud yoxdur. Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm.
Hicrətin 1441-ci ili, Zil-hiccə ayının 16-sı / Miladi 2020-ci il, Avqust ayının 5-i İşa namazından sonra tərcüməçinin qələmi ilə bu kitabın tərcüməsi və şərhi tamamlandı.

***(Əbu Zeyd Həbibli)***

---

[416] Əl-Əhzab: 56
[417] Əhməd (1736), Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.
[418] Əhməd (23173), Əlbani hədisin səhih olduğunu qeyd etmişdir.

# Mündəricat

Kitabı şərh edənin müqəddiməsi.....................................................4
İbn Əbu Zeyd əl-Qayravaninin “Müqəddiməsi”nin mətni..............6
İbn Əbu Zeyd əl-Qayravaninin “Müqəddiməsi”nin şərhi.............11
Dinin ilk etiqad əsası olan tövhid................................................12
Allahın heç bir bənzəri yoxdur....................................................14
Əhli-sünnəti müşəbbihə adlandırmaq bidət əhlinin vəsfidir.........17
Allah barədə naqis sifətləri nəfy etmək üslubunda üç qayda........18
Allahın “əl-Əvvəl” və “əl-Axır” isimləri....................................22
Allahın sifətlərinin həqiqəti dərk olunmazdır..............................23
Allahın sifətlərinin mənası məlum, keyfiyyəti isə məchuldur......24
Allahın şəri və kövni ayələri barədə təfəkkür etmək...................25
əl-Bəqərə surəsi 255-ci ayə və Kürsü barədə məlumat.................29
Uca Allahın bəzi adları barədə məlumat......................................32
Ərş barədə məlumat.....................................................................35
Allah Ərşinin fövqündədir...........................................................35
“Allah nə aləmin daxilində, nə də xaricindədir” etiqadı barədə...38
Allah elmi ilə hər yerdədir (“əl-Məiyyə” sifəti)...........................41
Allahın “əl-Qurb”, yəni yaxınlıq sifəti.........................................45
Allahın “əl-İstəva” sifəti..............................................................47
Allahın ad və sifətləri barədə bəzi mühüm qaydalar....................50
Allahın kəlam və təcəlli sifətləri..................................................56
Qədərin dörd rüknü.....................................................................61
Peyğəmbərlərə və kitablara iman (deistlərə cavab!)....................69
Qiyamət gününə iman..................................................................77
Asiliklər və tövbənin şərtləri.......................................................80
Cənnət və Cəhənnəm barədə məlumat.........................................86
Ruyətullah (möminlərin Cənnətdə Allahı görmələri)...................87
Allahın haqq-hesab çəkməsi üçün məhşər meydanına gəlməsi....93
Mizan – haqq tərəziləri................................................................95
Sirat körpüsü...............................................................................98
Peyğəmbərin ﷺ hovuzu............................................................100
İmanın tərifi...............................................................................102
Bərzəx – qəbir həyatı.................................................................107
Mələklərə iman..........................................................................110

Səhabələrin fəziləti və ədaləti....................................................112
Rəhbərlərə münasibət...............................................................119
Saleh sələflərə itaətin vacib olması............................................126
Cədəl və dini münaqişələr..........................................................128
Bidətin mənası və fəsadları........................................................130
Peyğəmbərə ﷺ dua etmək barədə (kitabın sonu).........................132